**Mükafat ƏLİYEV**

# ARAZIM,

# MƏNİM ARAZIM



Bakı – Mütərcim – 2010

Redaktor: ***Vüqar Əliyev***

Operator: ***Nərminə Nəbiyeva***

Korrektor: ***Elmira Əliyeva***

Dizayner: ***Vəfa Əhmədova***

**M. Əliyev.** Arazım, mənim Arazım. Bakı: Mütərcim, 2010. – 184 səh.

*«Arazım, mənim Arazım» kitabı Mükafat Əliyevin oxucularla üçüncü görüşüdür. Müəllifin öncəki iki kitabında olduğu kimi («Ömür də bir yoldur», 2007, «Günbatana baxan qəbir», 2009), bu kitabda toplanmış əksər şeirlərin də «ana xətti»ni Vətən və torpaq həsrəti, yurd itkisinin ağrı-acısı, gənc nəslə vətənpərvərlik və yurdsevərlik ruhunun aşılanması, eləcə də tarix və zamanın dəyişməz mövzuları olan Xeyir və Şərin mübarizəsi, həyat eşqi və məhəbbət ideyaları təşkil edir. Kitabda həmçinin müəllifin «Nə günahı var telli sazın?!» hekayəsi və «Qadalının qadaları» povesti yer alıb.*

$Ə\frac{4702060000}{026}34-10$

**© M. Əliyev, 2010**



# Lírika

## ARAZIM, MƏNİM ARAZIM!

Arazım, mənim Arazım,
Nədən sızlayır avazın?
Söylə, niyə küsdün məndən,
Əlimdən qopardın sazım?!

Nədən bağrım iki böldün,
Ürək dözmür, yox ixtiyar!
Əgər beləcə yaşasam,
Çətin ki, olam bəxtiyar.

Uca dağlardan aşmısan,
Çoxlu ellər dolaşmısan,
Üz tutmusan sən Xəzərə,
Dağıtmısan çöl, dağ, dərə.

Arazım, mənim Arazım,
Coşur asiman, Arazım!
Buludları dağa çökür,
(Dağ ağlayır, sitəm çəkir)
Dumanı yaylağa çəkir.

Haraylanır dağ çayları,
Atır, tutur qayaları,
Bağışlamır Çobanları,
Qurban alır Saraları…

Araz səs salır dağlara,
Qənim kəsilir bağlara,
Yetişməkçün göy Xəzərə,
Yalvarır ulu göylərə.

Ram eyləyir Kür Arazı,
Tovlaşdırır, salır razı.
Xəzər «çaldırır» «Naznazı»,
Dalğalar yayır avazı.

Durub yanda Yetim baba,
Susur, dinmir nə el, oba.
Xəzər coşur, şahə qalxır,
Göy yarılır, şimşək çaxır…

*19.06.2009*

## BAĞIŞLA BARI

Oynayıb güldükcə böyüdük hər gün,
Boy atıb böyümək xəbərsiz gəldi.
Duymadıq, qocalıq gələcək bir gün,
Hər keçən günümüz bənzərsiz oldu.

Mümkünmü keçmişə qayıtmaq yenə,
O günlər necə də qayğısız imiş?!
Keçən hisslərimi oyatmaq mənə
Necə də çarəsiz, sayğısız imiş?!

Səni qınamıram, məni qan tutar –
Sevgiyə xəyanət ölümdən betər.
Bir zaman duymadım titrək sevgini,
Layiqəm nifrətə, qarğışa, yetər!

Gün keçmiş, ötmüşdür ömür qatarı,
Qalmayıb cismimin gücü, tutarı,
Sən Allah, bağışla, bağışla barı,
Yetimin günahın, kəm etibarın!

*22.12.2008*

## YENİ İLLƏR

Yeni illər, xoş gələydiz yurduma.
Nədən şərik olmayırsız dərdimə?!
Dədə yurda yetişməyir sorağım,
İnsafınız, mürvətiniz vardımı?
(Nə müddətdi yasaq qoyduz orduma!)

Bir il deyil, on il deyil olanlar,
Bəlkə yetər dediyiniz yalanlar!
Bilmirsizmi məni müdam gözləyir,
Soraqlayır saçlarını yolanlar?
(Gecə-gündüz gözü yolda qalanlar?!

Təzə ilə tamarzıdı kəndimiz,
Bağlanıbdı bərəyəmiz, bəndimiz.
Niyə mənsiz Quycağıma endiniz,
Orda-burda yaratdınız talanlar?
(Darıxmayın, bir gün qalxar turanlar!)

Gün gələydi, dədə yurda gedəydim,
Qol götürüb göyə nida edəydim,
Sevincimdən üz-gözümü didəydim,
Sevinəydi həsrətimdə olanlar.
(Xar olaydı mənə tələ quranlar).

Haqq əmridi, Yetim bir gün gedəcək,
Getməmişdən hamıya ün edəcək:
Toy-busatla gəlsin Yeni ilimiz!
Yoxa çıxsın yalançılar, yalanlar!
(Yüz yaşasın elə dayaq duranlar!)

*30.12.2008*

## QAÇQIN ŞAİR

*(Eloğlumuz İsmayıl İmanzadəyə həsr olunur)*

Tanrım bilir, yaranmıram,
Çox sirlərə varammıram,
Səni görcək durammıram!
Yüz il yaşa, qaçqın şair.

Şöhrət üçün uçmayırsan,
Söz dalınca qaçmayırsan,
Nahaq yerə sancmayırsan.
Hey gəl cuşa, qaçqın şair.

Dindirilsən, coşur ürək,
Sevənlərə sözün dirək,
Susdurmaqçün oğul gərək.
Ellə qoşa, qaçqın şair.

Hər niyyətin düz olaydı,
Ülviyyətin yaz olaydı,
Gecən kaş gündüz olaydı,
Gəl alqışa, qaçqın şair.

Ay görünmür, gün saralıb,
Yetimin başın qar alıb,
Ömrü, deyəsən, daralıb,
Nə vaxtadək qaçqın olaq?!

Ürək dözməyir təlaşa,
Görüm yüz illərlə yaşa,
Qalx savaşa, ay İsmayıl,
Döz duruşa, ay İsmayıl!

*2.01.2008*

## GÜNAHKARSAN

Mən yatmışdım, oyatmaqda günahkarsan,
Unutmuşdum danışmağı lap axtarsan.
İlk görüşdən həyatımda yaşayırsan,
Günahınla sən öyrətdin sevinməyi.

Necə deyim, sözlərimə inanasan,
Sözlərimin doğruluğun sınayasan,
Küskünlüyə bir də məni qoymayasan.
Yaxınlığa buraxmayım deyinməyi?

Dağ döşündə mürgüləmək şirin imiş,
Bənövşəni sevindirmək yerin imiş,
Ləçəyinin şeh tutumu sərin imiş.
Aşıq güldən öyrənirmiş öyünməyi.

Bu dünyadan nakam getmək insafsızlıq,
Hər yetənə «pakam» demək həyasızlıq,
Eyləmə gəl, Yetim, sözdə mənasızlıq,
Hey sevindir ürəyini döyünməyə,
Adət eylə gündən-günə yenilməyə.

*8.1.2009*

## ALIŞ, KƏRƏM, YAN KƏRƏM!

*Toylarda «Kərəmi» havasını oynayanlara təəssüflə*

(Elegiya)

Deyirlər ki, məhəbbətdən
alışıbdı, yanıb Kərəm.
Ona qibtə eyləmirəm:
yandığını ara, öyrən.
Əgər gerçəksə deyilən,
razıyam olum söyülən:
«Eli hürküt, axsağın tut». –
söyləmişdi babam Qorqud.
Ruhuna rəhmət dilərəm,
Bunu həqiqət bilərəm.
El sözündən uzaq düşdüm,
bir zamanlar mən də çaşdım,
öz başıma oyun açdım…
Məni qınaq etsin ellər,
o vaxtlardan ötüb illər.
Kimdir Kərəm, kiməm ki, mən
Kərəmə «tənə» eyləyəm…
İllər ötür, keçir zaman,
Yeni Kərəm gəlir, aman.
Gəlir Əsli, zaman-zaman
«görkəmi» yandırır aləm!
Kor olaydı Kərəmi kaş,
Əyməyəydi Əsliyə baş!
Əsarətə düşdü özü,
qınaqlara saldı bizi:
niyə vuruldu nazına,
ülfət verdi hay qızına!
Əsliyə sevdim deyəndə,
torpağa pərçim olaydı,

tikəsi əlçim olaydı,
qurda, quşa yem qalaydı…
Gorun çatlasın, ay Kərəm!
Millətimə necə qıydın,
özgə dinə qəddin əydin?
Əcəb oldu, eşq oduna
alışdın, yandın, kül oldun:
dönük çıxdın övladına
doğma elin, ana yurdun!
Çatammadın muradına!
«Yandı, yandı, yandı Kərəm,
yaman alovlandı Kərəm!» -
sevinirlər ermənilər.
Bəlkə elə buna görə
mənə qənim kəsilirlər,
zaman-zaman usanmadan?
«Yandın, yandın, ay Kərəm, şiş!» -
diş qıcadı qara Keşiş.
Qoy desinlər, mən də razı.
Gözlərini kor eylədi,
görmədi Azəri qızın,
alovlanan dan ulduzun!
Duymadı saf məhəbbəti
öz elində, obasında,
xar eylədi babasın da.
Gördü bunu elin özü –
tərəzidi onun gözü.
**Bizdən başqa heç məkanda**
**sədaqətə and içməzlər,**
**təmiz eşqin, məhəbbətin**
**uğrunda candan keçməzlər!!!**
**(Fəxr edirik biz bununla,**
**öyünürük düz qanunla!)**
Gorun çatlasın, ay Kərəm,

Sənə qibtə eyləmirəm,
özünə, ya ünvanına
kinayələr söyləmirəm.
İllər ötər, hər fəsildə
ailədə, ya nəsildə
səni hər an xatırlarlar,
ağlayarlar, yas tutarlar,
xəcilliyə həm batarlar:
öz dinini unutdun,
özgə dinə üz tutdun,
öz elinin gözəlini
özgəsinə alçaltdın.
Bilmədin ki, bir zaman
susmayacaq tar, kaman,
sənə vuraraq eyham,
nalə çəkib ellərə,
söyləyəcək balaban:
«Alış, Kərəm, yan, Kərəm,
sənə tuturuq ələm!»
Niyə unutdun o gün
ata-baba dediyini?
«Ermənini qapımızda
muzdur gördük biz müdam».
«Alış, Kərəm, yan, Kərəm!» -
acıqlanıb mən hərdən
söyləyirəm lap bərkdən.
Mən də unutdum sən tək
el deyəni bir zaman:
«İtlə yoldaş olanın
əlində çomaq gərək».
Heyif, heyif, səd heyif,
fürsəti verdim əldən,
zərbə aldım qəfildən!
Yağı cumdu üstümə,

lap sevindi tüstümə.
Əlacsız qaldığımdan
güc umuram Tanrıdan.
Axı babam düz demiş:
«Tanrıya iman eylə,
dəvəni bağlamağı
unutma, ağlayarsan,
haqlı peşmanlanarsan».

***P.S.*** ***Ümidini itirmə, qılmasan da sən namaz,***
***İnamını itirsən, Yetim, faydası olmaz.***

*9.01.2009*



## ODLANAR

Düz danışsam, qınayanlar tapılar.
Düz sözlərdən yalançılar tutular.
Biləndə ki, düz sözlərdən qorxmuram,
İradəmi sınayanlar xoflanar.

* * *

İllər, aylar uzaqlaşsın yan-yana,
Qəm-kədərlər üzükməsin insana.
Xoş niyyətim bir gün düşsə bəyana,
Uğurumdan bədniyyətlər odlanar.

*9.1.2009*

## NECƏ GÖRÜNƏRDİ?

Nə olardı, insanlar düz danışsaydı,
Pisliklə yox, yaxşılıqla yarışsaydı?
Küsülülər lütv eyləyib barışsaydı,
Bu halətdə dünya necə görünərdi,
Doğrudanmı laləzara bürünərdi?!

Gecələri gündüzlərə döndərəydim,
Quranları çöl-düzlərə göndərəydim,
Zülmət saçan «ulduzları» söndürəydim.
Bu halətdə dünya necə görünərdi,
Doğrudanmı laləzara bürünərdi?!

Acıdillər, bədniyyətlər var olmasa,
Xeyirxaha hərdən həyat dar olmasa,
Mayamıza haram qatan xar olarsa,
Bu halətdə dünya necə görünərdi,
Doğrudanmı laləzara bürünərdi?!

Yeməsən də, ümid etmək məsləhətdi!
Görməyəndə, ayırd etmək nəsihətdi!
Uzun yolu süskün getmək qəbahətdi!
İstədiyin, Yetim, dünya görünərdi,
Fələk yanar, ahu-zara bürünərdi.

*10.1.2009*

## GƏLMƏZDİM

Niyə gəldim qaranlıqdan işığa,
Bu dünyadan xəbər tutsam, gəlməzdim!
Uyuşmuram nə böyüyə, uşağa,
Nankorlardan duyuq düşsəm, gəlməzdim!

* * *

Qulağım kar, dilimdən lal olardım,
Doğulmağım xam xəyalda qalardı,
Kimə halal, ya haramdı gəlməyim,
Yaranmaqdan yan ötüşsəm, gəlməzdim!

* * *

Ağılsızın nə dərdi var, nə səri,
Çöl-bayırda hey dolanır sərsəri,
Qalmaqaldan, vallah, yoxdu xəbəri,
Bir daş olub yolda düşsəm, gəlməzdim!

* * *

Nə halətdi, qoymurlar ki, yaşayam,
Döyürlər ki, gərək kimə baş əyəm.
İstəmirəm kimsələrlə döyüşəm,
Bu zilləti erkən görsəm, gəlməzdim!

* * *

Vurun məni, ayaq üstə qoymayın,
Diri soyun, xəstə-xəstə soymayın,
İçin qanım, halaldırsa, doymayın,
Qan tökəndən xəbər bilsəm, gəlməzdim!
Mən Yetimə tez yetişsən, gəlməzdim!

*11.01.2009*

## BU DÜNYANIN ƏMƏLİNƏ NƏ DEYİM?!

Nə hünərdi bu çağımda söz deyim,
Ömür keçir qalmaqalda, sözdəyəm,
Sevinmirəm, beşcə günlük üzdəyəm,
Bu dünyanın əməlinə nə deyim?!

Baş açılmır yazılandan, yazandan,
Xilas yoxdu yazılanı pozandan,
Mat qalıram movizədən, əzandan,
Uçur dünya, təməlinə nə deyim?!

Bilmirəm ki, kələk edim, söyümmü,
Həqiqəti ürək edim, deyimmi,
Haqsızları şallaqlayım, döyümmü,
Şeytanların şər-felinə nə deyim?!

Sanki təkəm, tənhalıqda qalmışam,
Düşünməkdən, pünhanlıqdan solmuşam,
Halallıqdan, haramlıqdan olmuşam,
Hədər gedən aya, günə nə deyim?!

Ha qaçıram, tutammıram yalanı,
Dayandıran tapılmayır talanı,
Duyan azdı olacağı, olanı,

Yetim ağlar gülə-gülə, qəm yeyir,
Köç eyləyir, düşür selə, nə deyim,
Hey aldanır yalan dilə, nə deyim?!

*14.01.2009*



## QISQANCAM

Külək necə cürətlənib öpür sənin telini.
Çiçək nədən qürrələnib salamlayır əlini,
Kəmər kimdən rüsqat alıb qamarlayır belini,
Saf eşqimə «yox» dediyin dodaqların çürüsün!

Söz vermişdin, qəbirədək sevəcəksən tək məni,
Kor qalacaq xumar gözün, görəcəksə özgəni,
Olacaqdır asimanlar sevgimizin məskəni,
Əhdi pozan əlindəki barmaqların qurusun!

Buxağından gecə-gündüz əl çəkməyir mirvarı,
Sığallanır sinən üstə, dincəltməyir nübarı,
Qara zülfün hey can atır dal gərdəndən yuxarı,
Necə qıyım bədnəzərə yanaqların görünsün?

Özgəsinə qismət olsan, arzum budur: yarıma!
El-obada əsəblərin hey çəkilsin tarıma!
Tez başa vur ömürünü, nə qocalma, qarıma!
Yetim qıymaz kimsə səni ya axtarsın, arasın.

*17.01.2009*

## NƏ DEYƏSƏN?!

İllər ötüb, qarımışam,
Qulaq batıb, sarımışam,
Kim deyər ki, yarımışam
Bu dünyaya nə deyəsən?!

Birinə oyuncaq olub,
Kiminə oduncaq olub,
Kimin ürəyincə olub,
Bu dünyaya nə deyəsən?!

Ağlı olan bəzər onu,
Gözəlləşdirər yurdunu,
Nə gərək tuta ordunu,
Bu dünyaya nə deyəsən?!

Bir kimsədən yox qorxusu,
Heç yatmayır, yox yuxusu,
Dörd yanda barıt qoxusu,
Hey fırlanır, nə deyəsən?

Kimə hazır quyruqdu o,
Kimə nazir, buyruqdu o.
Kiməsə bir aylıqdı o,
Demə ki, Yetim doyubdu,
Dönür royaya, deyəsən.

*24.01.2009*

## DOSTUM QƏLƏM

Ay qələmim, qurtar məni əzabdan,
Daha bezdim, darıxıram hesabdan.
Duruşum yox dörd divarın içində,
De, varmıdır mənim boyda, biçimdə?

Getmək olmur nə bağçaya, nə bağa,
Qoy köçürüm sinəmdəkin varağa,
Qaçqın oldum, hər şey mənə qadağa,
Bax, uzanır saatlar da içimdə.

Günlər gedir bir-birindən xəbərsiz,
Çatammıram yurd-yuvama, nə dersiz?
Aldatdılar, dil qatdılar canıma,
Dağ çəkdilər bağıma, bostanıma.

Ayrı düşdüm həm atamdan, anamdan.
Vallah bezdim, əl çəkmişəm canımdan!
Deyən yoxdu dərdimizə çarəni,
Kəsdiriblər yol-irizi, bərəni.
(Od-alovsuz yandırırlar hərəni).

Qələm dostum, bilmirsənmi əlacı,
Xırıldayır sinəm, yoxdur illacı?
Qış qurtarır, ümidimiz yazadı,
Qoyma daha, kimsə andın uzada.

Qoy qayıdım ana yurda, obaya,
Dönüb yurdum mənim üçün Kəbəyə!
O yerləri bir də görsəm, ölmərəm,
Vallah bundan artıq dilək bilmirəm!

Dostum qələm, qoy arzuma yetişim,
Macal tapım, anamla da öpüşüm,
Qılınc tutum at belində, ötüşüm!
Damcılayır göz yaşlarım, silmirəm.
(Üz-gözümdə təbəssüm yox, gülmürəm).

*P.S.* *Qolazladım künc-bucağa, lənət çıxdı dilimdən,*
*İncisən də, bağışladın, yenə tutdun əlimdən.*
*Olub hərdən, çoxlarını yarı yola qoymusan,*
*Eşitmədim, deyəsən ki, çalışmaqdan doymusan.*

*Bir qanunu sən yazmısan, çoxu bunu eşidib:*
*«Yaxşılığa yaxşılıqlar hər igidin işidi,*
*Yamanlığa yaxşılıqsa nər igidin işidi».*
*Yaxşılıqdan bezməmək mən Yetimin vərdişidi.*

*25.01.2009*



## İSTƏRƏM

Gözüm yoxdu bu dünyanın varında
Öz bağımın şirin narın istərəm.
İstəmirəm özgələrin yazını,
Kəndimizin xəfif nazın istərəm,
Obamızın xoş avazın istərəm.

Tükənməyir gözəllərdə işvə-naz,
Saf sevginin bircə azın istərəm.
Xoşum gəlmir bərbəzəkli qızlardan,
Elimizin qara qızın istərəm.

Bütün günü ac dolansam, dinmərəm,
Küskün olsam, tovlaşdırsan, gülmərəm.
Ayağımdan od vursalar cismimə,
Yağılara yalvarmamaq istərəm.

Gözəlləri vəsf etməmək günahdı,
Sevənləri məhv eyləyən bir ahdı.
Gecələri alışdıran sabahdı.
Sübh olmağı, oyanmağı istərəm.

Arzusuna bax bu Yetim quzunun:
- Tanrımıza çatdır cümlə arzumu!
Qorxum yoxdur qar-sazağın qışından,
Söndürülən kənd ulduzum istərəm!
Çiliklənmiş köhnə sazım istərəm!
Elimizin qışda buzun istərəm!

*26.01.2009*

## DÖNÜR

Küs eyləmək bir adətdi,
Tez-tez çayım buza dönür.
Qüssələnmək ağır dərdi,
Hərdən başım buza dönür.

Qara bulud çəkilməyir,
Qaranlıqlar sökülməyir,
Yurdda palıd əkilməyir,
Gözüm kor ulduza dönür.

Məni diri yandırırlar,
Od-alovla «qandırırlar».
Həsrət dolu ümidlərim
Qış soyuqlu yaza dönür.

Nankorların insafı yox,
Andları çox, müsafı çox.
Əcəl üstün kəsdirəndə,
Biləcəklər üzə dönür.

Dərdi qovub qəm əkirəm,
Yuxusuza dəm tuturam.
Yetim dağlardan da bezib,
Uçur dağlar, düzə dönür.

*10.11.2009*

## QINANMA

*(Kimsə mənə şair dedi)*

Şairlərə dözüm vermiş Yaradan,
Şair kimi doğulurlar anadan.
Şairlərin ömrü qınaq binadan,
Şairliyə sevinmirəm, qınama.

Çoxlarının demədiyin o deyir,
Dilənçinin yemədiyin o yeyir,
Soltanların söymədiyin o söyür,
Şairliyə sevinmirəm, qınama.

Gecə-gündüz hey alışır, sönməyir,
Dediyindən çox vaxt çaşır, dönməyir!
Hərdən qalxır lap «göylərə», enməyir
Şairliyə sevinmirəm, qınama.

Şər güləşi meydanından uzaqdı,
Demirəm ki, o, cahanda yazıqdı,
Sər işlərə, Yetim, müdam yasaq de,
Şairliyə sevinmə sən, qınanma.

*P.S. Yağlı tikə uzatsalar, aldanma,*
*Yaltaqlara, yamanlara inanma!*
*Tutulsa da haqq sözündən gözlərin,*
*Düz sözündən kənar qaçma, dayanma.*

*25.02.2009*

## ƏBƏSDİ

Əcəl quşu qonubdursa sinəmə,
Göz yaşları axıtmağın əbəsdi.
Tut qolumdan çevir məni qibləmə,
Qoyun gedim, ağlamayın, nə səsdi!

Şəhriyardan salam aldı Bəxtiyar,
Cavabını qaytarmağa çatmadı.
Qəm-kədərlə ömrü oldu ixtiyar,
Sitəm etdi, dərdə çarə tapmadı.

Cümlə-cahan lənət deyir ölümə,
Çarə yoxdu qəfil gələn zülümə.

İstədim ki, nicat düşsün əlimə,
Dəryalarda gəmim azdı, batmadı.

Qurtuluş yox qəfil gələn əcəldən,
Bax, bağlayır gözlərimi, dilimi.
Kim qurtulub «ölüm» adlı bir seldən,
Hayqırsam da, göyə ünüm yetmədi.

Yetim istər ölüm gəlsin qocaya,
Qaldırsınlar gücsüz cismim ucaya,
Həsrət qalım pəncərəyə, bacaya,
Sevinim ki, kimsə yolum tutmadı.

*21.03.2009*

## A QARDAŞ!

*«Niyə dəydi qardaşımın xətrinə,*
*Təxəllüsüm «yetim» sözü, bilmirəm?*
*İstəməzdim dözəm yetim «ətrinə»,*
*Yetimlikdən yetmiş ildir gülmürəm…»*

Təxəllüsum «Yetim» - özüm seçmişəm,
Nədən sənə xoş gəlməyir, a qardaş?
Yaşım boyu çox cəfadan keçmişəm,
Bu söz mənə tuş gəlməyir, a qardaş?

Məktəb ili, tələbəlik zamanı
Yaddan çıxmır, unutsam da bir zaman.
Gözlərimin açılmayır dumanı,
Ovunmaqçun tapammıram künc, aman.

Nə minnətlə daş-divarım tikildi,
Sevinməmiş, göz önündə söküldü,
Çalın-çarpaz sinəmə dağ çəkildi,
Yad ellərə köçkün düşdüm, a qardaş!

Nə yaxşı ki, isti ürək tapıldı,
Kədərimə həm dərdimə qatıldı,
Düşdüm selə, xilasıma atıldı,
Məhv olmağa lap yetmişdim, a qardaş!

Yaxınların «vəfasını» anladım,
Yad insanla pənahlandım, yanlandım.
İçin-için tüstüləndim, hey yandım.
Uzaqlaşdım mən qəzadan, a qardaş!

Kimsə mənə deyə bilməz soyuğam,
Dağ döşündə bapbalaca oyuğam,
Külək vursa, hərdən üzən qayığam,
Dalğalarla çarpışıram, a qardaş!

Gəl sındırma sınıq-salxaq sazımı,
Doğma anam çəkməyibdi nazımı,
Hərçənd, qurban verdim ona yazımı,
Anam üçün vay edirəm, a qardaş!

Cavanlığın sənin də xoş keçməyib.
Paltarına atan naxış seçməyib,
Toy gününün şərbətini içməyib,
Onsuz oldu toy-düyünün, a qardaş!

Pərvazlanıb hərəniz köç getdiniz,
Yalqız qaldım, arzumu puç etdiniz.
Yurd-yuvamız mərdimazara qaldı,
Ağardı saç, dərdə düşdüm, a qardaş!
Yetimliyim el bölüşdü, a qardaş!
Bu söz dildən-dilə düşdü, a qardaş…

*22.03.2009*

## HAQQIM BƏRQƏRAR OLSUN!

Qarğış tutsun, tar-mar olsun dağları,
Düzənləri sellər, sular basıbdı.
Daraşdırıb varlıları özünə,
Bataqlıqla çarpışanlar kasıbdı.

Füqəranın güzəranı zülümdü:
Tanıyan yox əkən, səpən, biçəni.
Əkinçiyə qalan təkcə ölümdü.
Qovalayan yoxdu dumanı, çəni.

Dillənənin dil-dodağın kəsirlər,
Sözdən çıxsa, ayağından asırlar,
Ələ keçsə qaçağanlar, yesirlər,
Gözlərinə şoran torpaq basırlar.

Gərəkdir ki, fələk buna dözməsin,
Quldurlarla vurhavurdan bezməsin,
Özü versin qərarını, söz desin,
Dağ-düzənin var-dövləti bir olsun.

Nə vaxtadək ağlar-gülər olacaq,
Zülmkarlar yer üzündə qalacaq,
Yetim bir gün dava-dalaş salacaq,
İstəyəcək hamı bərabər olsun!
İnsanların haqqı bərqərar olsun!

*26.03.2009*

## SAVALANA ÜZ TUTURAM

Ay Savalan, sol çiyninin başından
İcazə ver, Ziyarətə söz deyim.
Çox qovğalar keçirmişəm yaşımda,
Kəndimizə bir qədər də döz deyim.

Deyirlər ki, qələbəyə az qalıb,
Qılınc qından çıxan günə yaz qalıb.
Görəcəmmi, yağı qaçıb, iz qalıb?
Talanlardan dağlar uçub, düz qalıb!

Zalım fələk, təklənmişəm, kömək yox,
Buynuzsuzun qisasın al, yerə sox,
Haqq pozanın təpəsinə şimşək çax,
Səs-soraqdan fərəhlənim, saz döyüm,
Yetim kimi sevinim, avaz deyim!

*27.03.2009*



## QUYCAĞIM

Kömür olub ocağında yanardım,
Bir də səni görə bilsəm, Quycağım.
Cismim anam qucağında sanardım,
Torpağında külə dönsəm, Quycağım.

Sənsiz inan, yox gündüzüm, ya gecəm,
Gülmür üzüm, sanıram ki, lap gicəm,
Zəhərlənmiş bulağından su içsəm,
Uf demərəm, qəfil ölsəm, Quycağım.

Yad ellərdə toy-bayramda gülmürəm,
Rahatlığı səndən ayrı bilmirəm,
Qan töksəm də gözlərimdən, silmirəm,
Kor qalaram, dönük olsam, Quycağım.

Qolu bağlı qul olmuşam qürbətdə,
Saralmışam, bil, solmuşam həsrətdən,
Görsən üzüm, tanımazsan heyrətdən,
Nitqin itər, hey əsərsən, Quycağım.

Tüstülənir, yanmır sənsiz ocağım,
İsinməyir, donur sənsiz qucağım,
Laldır Yetim, dözmür sənsiz, Quycağım,
Qibləm sənsən, Kəbəm sənsən, Quycağım!
(Sən od vursan, alovlanar ocağım!)

*02.04.2009*

## TÜRK DÜNYASI

Xaqanların xaqanıydın bir zaman,
Parçalandın yaman, ay Türk dünyası.
Kürəyinə qılınc batdı hər yandan,
Xırdalandın pünhan, ay Türk dünyası.

Tamahını cilovlaya bilmədin,
Yağı kinin ürəklərdən silmədin,
Təklədilər, sevinmədin, gülmədin,
Haçalandın yandan, ay Türk dünyası.

Hər yetənə sirrin bəyan eylədin,
Coşdu nizən, hərdən tüğyan eylədin,
Sanki bülbül güllə fəğan eylədin,
Qıçalandın, inan, ay Türk dünyası.

Çox qardaşa bircə bacı azlıqdı,
İnan, dünya yaman oyunbazlıqdı,
Tənha qalsan, bil ki, sonun yazıqdı.
İncələyər zaman, ay Türk dünyası.

«İki qardaş, bir dövlətik», - deyirdin,
«Bütöv ata, tür övladıq», – deyirdin.
Coşub hərdən öz-özünü öyürdün,
Dönük çıxma, aldanarsan, babası!
Qorxuram ki, uça Türkün qalası!

Pusqudadı uzunburun, sarıbaş!
Vermə əldən ehtiyatı, türk qardaş!
Düz düşünər iki ürək, iki baş!
Təklər bizi xain, ay Türk dünyası!
Qorxur Yetim, aman, ay Türk dünyası!

*04.04.2009*



## NƏ GÜNAHI VAR TELLİ SAZIN?

Nə günahı telli sazın,
Küsdürüb aldın avazın,
Burmayırsansa qotazın.
Nədən çəksin yarın nazın?
Düşübdür əldən, qalıbdı.

Gözləri yaşla dolubdu,
Mehrin qumaşa salıbdı,
Toysuz-bayramsız ağlayır:
Susdurublar imansızlar,
Rəngi solub, qaralıbdı.

Yetim ağlar zarı-zarı,
Haraylayar obaları,
Tükənsə də ixtiyarı,
Əyilməyir şah vüqarı,
Susmur, amalı qalıbdı.

*06.04.2009*



## ADSIZ YAZI

«Hər gecənin gündüzü var», - deyirlər,
Heyif, hərdən deyiləni pozurlar.
«Yarananın ulduzu var», - deyirlər,
Əcinələr başqa səmtə yozurlar.

* * *

Saçlarından, gülüm, mənə pay göndər,
Dərmanımdı, bir neçəsin say, göndər,
Üşüyürəm, qışı qovla, yay göndər,
Dönük çıxsam, yollarıma vay göndər.

*06.04.2009*

## SEVİNC

Saçlarını günəş yerə sərəndə,
Bülbül gülü, gül bülbülü öpürdü.
Qucaqlaşıb çiçəkləri dərəndə,
Sevgimizi çəmənlərə səpirdi.
Əsdi külək, sığalladı çəməni.
İtdi duman, sevindirdi aləmi.

* * *

Gözə gəldi qəfil gələn məhəbbət,
Çox gördülər, söylədilər qəbahət.
Susdu bağça, soldu çəmən, məlahət.
Saxlasaq da sevgimizi əmanət,
Batdı dilim, itdi dözüm, dəyanət,
Gəldi zülüm, susdu sazım, nəhayət.

* * *

Küskün-küskün dağda, daşda gəzirdim,
Bir qaraca bulud kimi süzürdüm,
Qınayırdım öz-özümü, bezirdim,
Sanırdım ki, bu sonuncu qatardı.
Çaxdı şimşək, ürəyimi qopardı!
Alışdılar göy səmada ulduzlar,
Güldü Yetim, güldü aləm, yalqızlar.

*07.04.2009*

## BAYATILAR

Əsir əlim qocalıqdan, söy məni,
Düz sevgini yanlış sandım, döy məni.
Verin külüng, qazsın Yetim qəbrini,
Özü deyib, xatirinə dəyməyin.

* * *

Yetişməsəm el-obaya, tək qalım,
Lələ olum, çöllərdə tütək çalım,
Xatırlansın cismim bütün elliklə,
Axtarılsın çəmənliklə, çöllüklə.

*07.04.2009*

## DÜNYA

*(Qondarma «erməni soyqırımı»na etiraz)*

Kor olsun gözlərin, a belə dünya,
Doğrunu yalandan ayırmayırsan!
Qəsd olur elimə, alışır hər yan,
Gözlərin yumulub, ayılmayırsan.

Nə qədər ağlayım, gözüm yaş töksün,
Göylərə üz tutum: «El savaş çəksin!»
İnsafmı yoluma duman, çən çöksün?!
Haqsızlar yanında sayılmayırsan.

Mən əkib becərən, faydası onun,
Etiraz edəndə, axıdır qanım,
Kimlər yaradıbdı, de, belə qanun,
Haqqımı danırsan, soyulmayırsan?!

Tanrı yaratmadı hamını eyni,
Suları, torpağı, dumanı eyni?
Bəs nədən fərqlidi insanın beyni,
Niyə tərəziyə qoyulmayırsan?!

Biri yer şumlayır, biri kef çəkir,
Birisi əzilir, biri nəf təpir.
Ağalar əmr edir, cütcü səhv səpir,
Yetim düz deyəndə, söyülməyirsən!

***P.S***. *«Yalan ayaq tutar, yeriməz», - dedin,*
*Gözümün içinə baxıb söylədin.*
*Doğru deyiləni özün pozursan,*
*Yalanı doğru tək niyə yozursan?*

*Bir yana od vurub alışdırırsan,*
*Düz sözü yalanla «araşdırırsan»*
*Şərinlə aranı qarışdırırsan,*
*Sonradan dil töküb «barışdırırsan».*

*Sənə inanmağım gəlməyir daha,*
*Yalanın hər kəsə sırınır baha,*
*Yalanla yoğrulub, deyən, iştəhan,*
*De, nədən xəstəsən, sağalmayırsan?1*

*08.05.2009*

## SƏNİ NECƏ TƏRİFLƏYİM?

Mizrabım düşdü yerə, saz çalmağım getdi əldən,
Ey gidi dünya, səni, denən, necə təfifləyim?
Əlvida o illərə, yaxınlığım itdi teldən,
Ey gidi dünya, səni, denən, necə tərifləyim?

Elə illər yaşadım, bir də geri gəlməyəcək,
Hələ çox vardı sözüm, kimsə sirrim bilməyəcək,
Qapanır göz-bəbəyim, yar yanağı gülməyəcək,
Ey gidi dünya, səni, denən, necə tərifləyim?

Damarım incələşir, az döyünür ürək daha,
Soyuyur ayaqlarım, sızıldayır bilək daha.
Neçə gündür ki, qaçıb, yoxa çıxıbdır iştəha.
Son nəfəs yaxınlaşır, görünməyir şövqi-şəfa!
Bumudur eşqin sonu, Yetim görünməz bir daha!
Ey gidi dünya, səni, denən, necə tərifləyim?

***P.S.*** *Yetişə bilsə əlim bu dünyanın axırına,*
*Əl atıb saxlayardım, həm düşməzdim axarına,*
*Çün çoxlu evlər yıxıb, doldurubdu ovxuruna.*
*(Bənzədibdir qanımı qazanının paxırına)*
*Ey gidi dünya, səni, denən, necə tərifləyim?*

*23.05.2009*

## ŞƏN YAŞASIN

*(Azərbaycanın İstiqlal gününə)*

Bu necə dərddi, görən, çox dəyişib əlifbamız,
«Səhv düşüb» soy adımız, bəyənilmir lap adımız,
Çoxuna göz dağıdı – od nəslinin övladıyız,
Yandırır ürəkləri, sönməz olubdur odumuz.

Toy günü, ya vay günü yumruq kimi birləşirik,
Yağını susdurmağa haylanırıq, şirləşirik,
At minir, qılınc tutur, hər birimiz ərləşirik,
Toplanır el yolunda, dostlaşırıq, yox yadımız.

Neçə illərdi yağı qəsdimizə dayanıbdı,
Xoflanıb gücümüzdən, tüstülənibdi, yanıbdı,
Varımın, dövlətimin bolluğundan usanıbdı,
Suyuma zəhər qatıb, amma itməyib dadımız!

Kaş gözə gətirməyək azadlığın bəhrəsini,
Pozmayaq sırasını, dəyişməyək çöhrəsini,
Qoruyaq yurdumuzun hər yanını-yörəsini!
Yetimin arzusudu – şən yaşasın övladımız!

*28.05.2009*

## ÖMÜR YOLU

Ay canım, bu dünyadan əl götürmək hələ tezdi,
Görməyə işimiz bol, söyləmə ki, candan bezdin.
Xəstəlik bezdirməsin, çaşıb demə: «Əlim üzdüm».
Bu həyat yaşamağı bacaranın ömür yolu.

Dərdimiz şəriklidi, inanma ki, duymayıram,
Birgə keçib ömrümuz, sənsiz günüm saymayıram,
Nə qədər incitsən də, gülüm, səndən doymayıram,
Bu həyat yaşamağı bacaranın ömür yolu.

Yaşanan ömür yolun hər ikimiz bir yaşadıq,
Hələ innən belə də ürəyimiz, bil, qoşadı.
Elə zənn eyləyirəm, həyatımız baş-başadı,
Bu həyat yaşamağı bacaranın ömür yolu.

Olur, hərdən gecələr dərd əlindən ağlayırsan,
Sanırsan, bu əməllə sağalarsan, çağlayarsan,
Onu bil, ağlamaqla ömür yolun bağlayarsan.
Ağlamaq fəna işdi, göz yaşını axıtma sən,
Yoxsa tənha qoyarsan sən Yetimi, küsdürərsən!
Bu dünya yaşamağı bacaranın ömür yolu.

*27.05.2009*



## YAĞIŞ, YAĞIŞ

Bu yağış nə istəyir, gedir hara, baş aparır,
Bütün gün sitir gözün, göy buludlardan başlayır?
Hər tərəf gölməçədi, uşaq-böyük çaş-baş qalır,
Damlardan şırıldayır, yol-irizi palçıqlayır.

Günəşin görünməyir şəfəqləri gün uzunu,
Utanır, buludlarla örtbas eyləyir gözünü.
Bilmək olmayır, günəş gücsüz olub, ya ki duman?
Sarılıb bir-birinə, sellər-sular vermir aman.

Bu da bir möcüzədi: bir tərəfi sel aparır,
Bir tərəf al günəşdən alovlanır, kül qoparır.
Bir tərəf görmür günəş, tamam donur, buzlaqlanır,
İnsanlar göyə baxır, ümidlənir, qılıqlanır.

Yağış öz işindədi, şappır-şuppur döyür yeri,
Səsləyir saflaşmağa canlıları, meşələri.
Darıxıb gileylənmə, Yetim, yağış bolluğundan,
Çox zaman xeyirlidi, hərdən saxlayır işləri.

*01.06.2009*

## DÖZƏMMİRƏM

*(Niyə dünya birlikləri haqq səsimizi «eşitmir», kardı?!)*

Gözümə kül tökülüb, sanki, yata bilməyirəm,
Yuxumu qaçırmışam, nədən tuta bilməyirəm;
Bir fikir üzür məni: yurda çata bilməyirəm.
Ay ellər, ay obalar, alın məni bu yerlərdən!

Kim bizə qəsd elədi, üzün görən olmayıbmı?
Qəsd edən, bil, kölədi, dava-dalaş salmayıbmı?
Dünyamız məhv olursa, dərdi bizə qalmayıbmı?
Ay ellər, ay obalar, alın məni bu yerlərdən!

Yandırır çəmənləri qövsi-qüzeh göz önündə,
Tərg edir gözəlləri, olur şəbeh göz önündə,
Düzlərə çökür duman axşam, sabah göz önündə,
Ay ellər, ay obalar, alın məni bu yerlərdən!

Bu nə dərddi, düşmüşük, çarəsini bilən demir,
Gözlərim görə-görə yan çevirir, öləm, demir,
Hər yana ün salırıq, hay-haraya gələn demir,
Ay haray, rəhm eləyin, alın məni bu yerlərdən!

«Hər dərdin dərmanı var», - deyənlərə inanmıram!
Deyirlər: «Ay yox olar», - gözüm görür, danammıram!
Od düşübdü kürkümə, tüstülənir, yanammıram,
Sal məni məngənəyə, qanmazlığı qanammıram!
Qoy ölsün Yetim canım, saymazlığa dözəmmirəm!
Ay ellər, ay obalar, alın məni bu yerlərdən!

*02.06.2009*

## DÜZƏLƏSİYİK

Hey giley-güzarlanıb gözlərini kor eyləmə,
Eşidən yoxsa əgər, qulaqları kar eyləmə,
Canfəşanlıq çox fəna, öz yerini dar eyləmə.
Axırı bir-bir olur: hər birimiz öləsiyik.

Nə qədər çalışsaq da, acgözlərə təsiri yox,
Elə kasıb da bezib, bir əməlli həsiri yox,
Qorxudan evlənməyib, heç yetimi-yesiri yox,
Borcumuz yol göstərmək, döysələr də deyəsiyik.

Bizdən əvvəl yaşayıb Nizamilər, Füzulilər,
Çox nəsihət ediblər, bəlkə dünyamız düzələr.
«Çaq-çaq başın ağrıdar, dəyirman bildiyin eylər», -
Hər zaman təəssüflə söyləyib keçmiş aqillər!!!
(Ümidin kəsmir Yetim, İnşallah, düzələsiyik).

*03.06.2009*

## ELİN OĞLU

*(Azərbaycanın məşhur iş adamına ithaf)*

Düz yolu göstərəni, görüm, hər zaman yaşasın,
Sevilsin el gözündə, ömrü firavan yaşasın,
Qoluna qüvvə gəlsin, eldə pəhləvan yaşasın,
Hər işdə zəfər çalsın, obamıza olsun mayak.

Hər işdə, hər görüşdə məsləhəti ondan alaq,
Tez gələk bir araya, nəsihəti ondan alaq,
Döyüşdə hünər üçün qılıncı tək ondan alaq,
Yağıya sinə gərək, hücumu hər yandan salaq.

Düşmənin iftirasın dəf eyləyək, qalib olaq,
Özgədən nə məsləhət, tədbirləri birgə qılaq.
Kəsilsin üstümüzə hücumları yağıların,
Sərsəmlik eyləməsin zaman-zaman «dığaları».
(Yoxsa meydanda qalar cəsədləri qalaq-qalaq).

Kaş ki, çox olsun sayı ölkəmizdə ərənlərin,
Elimə yol göstərən, hayıma hay verənlərin,
Bağımın, bostanımın gələcəyin görənlərin,
Yayılsın dörd bir yana səs-sorağı, səcdə qılaq,
Gül açsın əməlləri, həm Yetimə olsun dayaq.

*16.06.2009*

## YOLDA QALIR (QURCALANIR)

Qonşuda toy çalınır, uşaq, böyük yallı gedir,
Bəzənib qız-gəlinlər, üzləri sığallı gedir.
Birisi sevincini bölüşməyə haray salır,
Birisi «inqə» deyir, anaya cığallıq edir.

Çiyninə al-qırmızı dəsmal atıb bəy oynayır,
Ərənlər üzlərinə hilal tutub qıy qıylayır,
Ustadlar məclis qurub güclərini sınayırlar,
Şəyirdlər ustadıyla mizrablayır, boylayırlar.

Saçları gözəllərin ilan kimi hey qıvrılır,
Alışır yanaqları ulduzlara tay, qovrulur,
Cürəti yox ərz etsin sevgisini, Ay kövrəlir,
Açılan mənzərədən Günəşin gözü ovulur.

«Ağ çiçək», «Heyvagülü», «Uzundərə», ya «Heyratı»,
Səs salır çöl-çəmənə, küsdürülübdü «Bayatı».
«Koroğlu» «cəng» səsləyir, meydanda hazır Qır atı,
«Vağzalı» dağ çayına haray salır, «Layla» çalır,
(İstəyir ayaqlansın Yetim baba, yolda qalır).

*07.06.2009*

## İLANLAR YATIR

Tikanlı kolcuğa dönəydim, Allah,
Bitəydim səhranın tən ortasında.
Kölgəmdən xoşlanan olsaydı, vallah,
İtərdim cəfanın tam arxasında.

Gələnlər, gedənlər məni görəydi,
Budağım altında dincin dərəydi,

İlanlar kölgəmdə sərinlənəydi,
Gah qalxa zirvəyə, gah da enəydi.

Zəhəri torpağa damcılasa da,
Gözləri «qonağı» sancılasa da,
Yolçunu yolundan saxlamayaydı,
Günahsız insanı oxlamayaydı.

İlanın quyruğun tapdalamasan,
Görəndə baş-gözün taxtalamasan,
İnanma toxuna sənə ilanlar,
Səhv edə, əslindən dönə ilanlar.

Yaman darıxıram ilanlı dağa,
Mənə ələm tutan qəmli Quycağa,
Nə əlim yetişir, nə ünüm çatır…
Bir Yetim babayam, dönəm yarpağa,
Sanam ki, üstümdə ilanlar yatır.

*20.06.2009*

## AY ALLAH!

«Yurda dönüş» xoş xəbəri gələydi,
«Dördnala» bir yol tutaydım, ay Allah!
Qız-gəlinlər sevinəydi, güləydi,
Öz canıma əl qataydım, ay Allah!

Cadarlanmış yolu kollar bassa da,
Göy üzündə qara yellər əssə də,
İlan-çəyən yollarımı kəssə də,
Çəhlimlərə yol tapaydım, ay Allah!

Çöl-bayırdan yelyepənək keçərdim,
Susuzluqdan lap qara su içərdim,

Kol-tikandan bir şələlik biçərdim,
Muradıma bol çatsaydım, ay Allah!

Qolu bağlı dayanmışam Qibləyə,
Bir qul kimi üz tutmuşam Kəbəyə,
Günahımçün kimlər, bilməm, nə deyər,
Qollarımdan yapışaydın, ay Allah!

Yaradanın tək Rəsulu – Məhəmməd,
İman eylə sən də, Yetim, ol hümmət,
Duaların yetsin Ona, nəhayət,
Kəramətin uca tutum, ay Allah!

*06.07.2009*

## … YOXSA Kİ, MƏNƏM?

*(Axı dünya fırlanır…)*
*B.Vahabzadə*

Fırlanan dünyadı, yoxsa ki mənəm? –
İstərəm şübhəmə cavab öyrənəm.
Doğrunu söyləyin üzümə, nə qəm,
Yalana onsuz da inanmayıram.

Günəşə baxıram, gözüm qamaşır,
Savaşa qalxıram, sözüm tam çaşır,
İnsanlar yalanla sanki yarışır,
Yalandan qaçanı qınamayıram.

Yalançı doğmadı, təkcə mən yadam?
Ucalsın göylərə qoy arzum, nidam!
Niyə qoymurlar ki, duzlüyü dadım?!
«Şirin» yuxudayam, oyanmayıram.

Həqiqət dalınca dolanıram hey,
Yalanlar oduna qalanıram hey,
Qovurlar yalanla, fırlanıram hey,
Cismim yorulsa da, dayanmayıram.

Göstər mənə Həqiqəti, inanım!
Göydə yanan Günəşdimi, Aydımı?!
Həqiqətlə qoy yan-yana dayanım!
Yetiməm, yandırın düz sözün üstə,
Odlanmaz bədənim, mən yanmayıram!

## VƏTƏNİM

Ərənlər diyarı, a qoca yurdum,
Şərqin qapısında bir dünya qurdun!
Günəşin nuruyla zülməti yardın,
Zəkayla qüdrəti qoşa biləndə.

Bir mayak kimisən külli-aləmdə,
Dostların sevinir, hüsnün görəndə,
Səni vəsf etməyə gəlir qələm də,
Uğrundan coşuram, cuşa gələndə.

Üstündə yatmağa qucaq açaydım,
İstinə batmağa ocaq çataydım,
Yağının gözünə bıçaq tutaydım,
Quycaqla şənlənib yaşa dolanda.

*19.09.2009*

## GÜLAĞA TƏNHAYA MƏKTUB

*(Məşhur xeyriyyəçi, el təəssübkeşinə eşq olsun!)*

**G**ülü öz qönçəsindən açar Tanrı,
**Ü**zünə gül rəngini saçar Tanrı,
**L**əçəyin ölçüsünü seçər Tanrı,
**A**ya da, Günəşə də fərman verər!
**Q**arışmaz fərmanına cümlə-cahan.
**A**dəmə Həvvasını verdi pünhan,

**T**əkliyi O veribdi bəndəsinə.
**Ə**lini Rəsul aldı öhdəsinə.
**N**ə qədər kələk gəlsə yağı sənə,
**H**aqq özü söz deyəcək cümləsinə:
**A**llahım çün xəlq edib hər kəsini…

Tanrının öz işidi, yaradıbsa Tənha səni.
Amma sən fəxr elə ki, yaradıb könlüncə səni.
Bircəsən, tək deyilsən, gör nə qədər sevilirsən!
Gözləri yolda qalan körpələri sevindir sən.

Tanrıma şükr edirəm, nə yaxşı ki, sizlər varsız!
Necə qəmli görünər yurdum Gülağa Tənhasız!
Milyonla pul tökülür qumarxana, toyxanada,
Sanki xəzəl yellənir kafelərdə, çayxanada.

Toy evi, ya çay evi tikdirənlər lap en qədər,
Bir göbək göstərənə, hamı bilir, nələr gedir.
Qorxusu yox onların, hərdən qızır – didişirlər.
Beləsi gec anlayır, insanları kim yaradır!

Körpələr evlərinə atılmışlar günahkarmı?
Onlardan üz döndərən naqisin Allahı varmı?
Tez ola, ya gec ola, günahkara nicat varmı?
«Ay ana!» deyənlərin naləsi yerdə qalarmı?

Nə qədər məsum körpə siz kimi insanı sevir,
Deməli, Tanrı özü bizləri imtahan edir.
Beləcə nəsihəti Yer üzünə var Quranın:
«Yaxşılıq eylə ki, sən, savabı gələr Tanrının».

***P.S.*** *Tanrı tək surətini çəkməyə rəssam tapılmaz,*
*Əməlin səcdəlidi, Yetimin sözü danılmaz.*

*04.06.2009*

## BÖLÜŞDÜ

Nə dərdinin dərmanı var, nə təbibi çağıranlar,
Nə yurdunun ormanı var, nə əbədi qoruyanlar,
Nə ordusun sarvanı var, nə səbəbi arayanlar,
Fikir kəsilibdi qənim, düşünməkdən dərdə düşdü.

Nə fələyin kələyidi, nə küləyin hələyidi,
Qovur, tutur, oda salır qarşısına çıxanları.
Çəmən solur, gül qovrulur olanlardan, olacaqdan.
Nə qəzavü-qədərdi bu, danışmaqdan dildən düşdü.

Ha çək-çevir eyləsə də, heç əsəri olmur daha,
Hərdən şeir söyləsə də, xoş xəbəri gəlmir daha,
Çatmır səbri, neyləsə də, iç tutarı qalmır daha,
Çox qınadı qohum, qardaş, barışmadı, birdən düşdü.

Dərd çəkəni usta bilir, fələk çəkir hey sınağa.
Yurd sökənin üstə gəlir, külək tutur toy «qonağa»,
Od tökənə pəsdən gülür, «mələk» batır tay qınağa,
Səbri onu əldən saldı, deyən, əcələ yetişdi.

Lap binadan çox olubdu zarı-zarı ağlayanlar,
Zaman-zaman boğulubdu göyü, yeri lağlayanlar.
Demə tamam yox olubdu, var doğrunu saxlayanlar,
Açammadı sirri Yetim, şübhəsin ellə bölüşdü.

*22.06.2009*

## İNANIN

Unutmasan dərdi, qəmi, kədər səni üstələyər,
Duman sanarsan aləmi, cismin yanar, tüstüləyər,
Qopardığın zümzüməni tutar, nəğmə bəstələyər,
Deyib gülmək yaraşıqdı insanlara, inanın!

Bir sifəti yalan deyir, bir sifəti gerçək,
Bir tərəfin ilan yeyir, bir tərəfin «xərçəng»,
Bir sözüylə «dolan!» deyir, başqasıyla – «əl çək!»
Məhəbbətlə bacarmıram, əlacım yox, inanın!

## ÇƏLƏNG

İki bacı – badam, püstə,
Dayanıb, durub üst-üstə,
Cürətlənib yaxın gəlsən,
Yan süzülər, edər xəstə.

Hərdən-hərdən əsər asta,
Pıçıldayar çox ahəstə,
Bir-birindən uzaq düşsə,
Hey sıxılar imdad istər.

Sanarsan təzə qönçədi,
Boyu kiçik, ürəkcədi.
Görkəmini əks etdirsən,
Tişə gərək dəstə-dəstə.

Üccə günlük aya bənzər,
Hey boylanar, yarın gəzər,
Gec gələndə göz önünə,
Məlul qalar, dözər, dözər.

Yaraşıqdı gül bənizə,
Tərifləmə, gələr gözə,
Layla çalıb əzizləsən,
Gülər səni üzə-üzə.

Pıçıltısı lal, sezilər,
Üzə qoşa xal düzülər,
Əsir düşsən duruşuna,
Olar xəcil, dönər buza.

* * *

Alnındakı qələm qaşlar,
Göylərdən cüt doğulmuşlar.
Əyilsə də yandan-yana,
Aşiqə dözüm bağışlar.

* * *

Göründükcə işıq saçır,
Yanaqları öpür, qaçır.
Silkələnir yorğa-yorğa
Qulaqlarda qızıl sırğa.

* * *

Al yanaqlar - qızıl alma,
Ovsunlayır ilmə-ilmə,
Göz yaşından nəmlənəndə,
Görənlərə rəva bilmə.

* * *

Hörükləri qulac-qulac,
Hər kəsi dərdə salacaq.
Döşəməsən sinən üstə,
Kim bilir kimə qalacaq.

* * *

Kiprikləri ox düzümdə,
Mirasdı Leyli gözündən,
Hər kəlməmdə, hər sözümdə
Oxşayardım mən özüm də.

* * *

Bəyaz sinə üstə gəzər,
Yatar, durar, dərdə dözər,
Məcnun eylər Qeysi, üzər,
Sehr eyləyər, yaxa bəzər.

* * *

Qoşa şəmdi, şöləlÉ™nir,
Sıxılanda giləlÉ™nir.
Aşiqi dərdə salanda,
Gülümsünür, cilvələnir.

* * *

Çöhrəsinə çox rəng vurdum,
Gözəllikdən çələng qurdum,
Cismini röyada gördüm,
Hardan gəldiyin sormadım.

* * *

Qoy hüsnünü gecə çəkim,
Gün doğanda, itir çəkim,
Qorxuram ki, itirərəm,
Səndən gözüm necə çəkim?

*P.S. Söz qoşmağa sözü çatmır,*
*Mürgüləyir gözü, yatmır,*
*Əlindən əlin çəkməyə*
*Yetimin əlləri yatmır.*

*05.09.2009*



## OLANLARIN SONU VARMI?!

Fələk tələni qurdumu,
Talan edirlər yurdumu,
Səsim eşidən vardımı,
Olanların sonu varmı?!

Qınaqlanır haqq deyənlər,
Qandallanır haqq beyinlər,
«Haqlı qalır» haqq yeyənlər,
Olanların sonu varmı?!

Dayandıraq ahı-vayı,
İtirməyək haqqı-sayı,
Düz yaşayaq günü, ayı,
Dünyamızın tayı varmı?!
(Yer kürrəsi bizə darmı?!)

Ay Yetim, bu necə haldı,
Susur gündüz, gecə laldı?!
Haqq yolunda axsa qanın,
Qoy içilsin, lap halaldı!
Olanların sonu varmı?!

*19.10.2009*

## DÜNYA NECƏ OLACAQDIR?!

Təbdən-təbə düşür dünya,
Dalğalanır, daşır dünya,
Tay karlaşır, çaşır dünya,
Dünya necə olacaqdır?!

Əzilənə əl uzatmır,
Yıxılana qolu «çatmır»,
İpə yatmır, sapa yatmır,
Dünya necə olacaqdır?!

Zorqolludan tay çəkinir,
Axır qanı, hey tökülür
Kəndi-şəhəri sökülür,
Dünya necə olacaqdır?!

Hərkələnir yerdən qalxan,
Od ələyir hərdən qalxan,
Qanunlardan yoxdur qorxan,
Dünya necə olacaqdır?!

Ağlı çaşır insanların,
Səbri daşır susanların,
Var-dövləti qucanların
Sonu necə olacaqdır?!

*P.S. Haraylayır Yetim baba:*
*«Çıxsın qəflətdən el, oba!*
*Hərisləri qovaq, qovaq!*
*Hamı desin «Ay mərhaba!»*

*20.10.2009*

## İSTƏYİM

Köçürəm dünyadan, salamat qalın,
Əmanət olasız Uca Tanrıya!
Siz Allah, qəbrimi yurduma alın,
Bir zaman yolunuz düşsə geriyə!

Yurdumdan dərbədər etdilər məni,
Susdura bilmədim qarı düşməni!
Rusun qucağında oturmasaydı,
Nə hünər edərdi dığa erməni!

Bəlkə bu dünyanın çərxi fırlana,
Çevrilib üz tuta yurduma sarı,
Kürək çevirməyin olan-qalana.
Siz daha qaçmayın Vətəndən barı!

Mənsə gedəsiyəm, yazım beləymiş,
Can üstə anladım yurdsuzluq nəymiş!
Kirdarım qalmayıb, sinəm süstləşmiş,
Gözümün üstünə duman-çən çökmüş.

Özüm istəmədən gileylənirəm,
Giley-güzarlardan həm iyrənirəm.
Əzəldən adıma Yetim deyiblər,
Oxuyun fatehə, budur istəyim.

*22.10.2009*

## NİYƏ

Bilmirəm, mələksən, ya cin-şəyətin,
Yolunu üzümə bağladın, niyə?

Dözürdüm, canımı can alan gəlsin,
Yüyürdün yoluna, haqladın, niyə?

Dedilər, göz yaşın dərmanım olar,
Damcılar sinəmə, fərmanım olar,
Bir quru təsəllin amanım olar,
Saç yolub deyəni saxladın, niyə?

Bilirdin, çarəm yox, lap can üstəyəm,
Tıncıxır nəfəsim, yaman xəstəyəm,
Bilmirdim, kimlərdən aman istəyim,
İnadla güc etdin, yoxladın, niyə?

Kiçilir söz boxçam, hey itir kəlməm,
Nədəndir, dərdliylə həmdiləm, bilməm,
Sıyrılır ərişim, arqacım, ilməm,
Xalımı çiyninə «mıxladın» niyə?

Üstümə çiləndi sitir-kafir də,
Olmadın sən razı, yatım qəbirdə,
Qorxmadın diriləm, qayıdım bir də,
Yetimcə saçımı qoxladın, niyə?

*25.10.2009*

## GÜNAHKARAM

Sənin qəbahətin, günahın mənəm,
Ay gözü yollardan doymayan nənəm!
Məni də al apar uçuq qəbrinə,
Gör mənim üzümü, bax nə gündəyəm!

Bir vaxtlar deyirdin, mən də «kişiyəm»,
Həm evin olmuşam, həm də eşiyin,
Bilmədin, düşəcəm «qır qazanına»,
Yanıb-yaxılacam gor əzabına.

Deyərdin, böyüyüb lap ər olmuşam,
Qoluna dəyanət, təpər olmuşam,
Ev-eşik tikdirdim, bağ-bağat saldım,
Görmədin, sökdülər, viranə qaldı.

Yaxşı ki, görmədin müsibətləri,
Haraya qovuldum, harada qaldım.
Əsdi qara yellər, basdı yolları,
Sındırdı belləri, kəsdi qolları.

Pozuldu nizamım, itdi həyatım.
Bilmədim, harada batım, ya yatım.
Qaçhaqaç yarandı bir an içində,
Ütüldü qanadım ümman köçündə.

Tüstüdən, alovdan tutuldu hər yan,
Bağırdı canlılar, qışqırdı insan.
Od, alov yağırdı göydən torpağa,
Adamlar dönürdü əsən yarpağa.

Geriyə qalanı qovub tutdular,
Əl-qolun bağlayıb oda atdılar.
Ana balasını itirdi birdən,
Yıxılıb qalmışdı, tuturdu yerdən.

Unutdum, hardadı soyuq məzarın,
Gələydi, ay ana, mənə azarın!
Bir anlıq boylandım dörd bir tərəfə,
Sandım ki, ilişdim pırtlaq kələfə.

Qaraldı gözlərim, dondu ürəyim,
Kəsildi taqətim, söndü hələyim.
İtirdim gözümdən «Ana məzarın»,
Yanında əkdiyim gülü, gülzarı…

Yaxında uyuyub oğlu, nəvəsi,
Tutarmı qatili ana naləsi?!
Sənin qəbahətin, günahın mənəm,
Nədən sağ qalmışam, yəqin «düşmənəm».

***P.S.*** *Bir ana qəbrini qorumadımsa,*
*Döşündən əmdiyim süd mənə haram!*
*Nə üzüm gəlir ki, mən usanmıram,*
*Ömürlük yanında həm günahkaram!*

*30.10.2009*

## GÜNAHA BATIR

Gözlərin o qədər nəzər çəkəndi,
Bənövşə qarşında boynunu bükür.
Üzünü çevirib gözdən itəndə,
Dərindən ah çəkir, qanlı yaş tökür.

Nə rəngdən yaradıb Yaradan səni:
Sarıdan, yaşıldan, ya aldan səni?
Alıb qaçıraydım aradan səni,
Görəydim, buludlar ağ yağış səpir.

Çoxları dərdindən divanə olur,
Od alır çıraqdan, pərvanə olur,
Köç edir dünyadan, əfsanə olur,
Çəkilir göylərə, yer qarğış tutur.

Çəksinlər qoy məni çarmıxa sənsiz,
Tutulsun ayağım gülmıxa sənsiz,
Çıxım bu dünyadan tay yoxa sənsiz,
Desinlər, qəbirdə bir sərxoş yatır.

Tapılsın saf eşqə, sevgiyə çarə,
Sevənə gözlərin özü işarə.
İtirir dözümün Yetim biçarə,
Məst olur gözündən, günaha batır.

*03.11.2009*

## ATARDIM

Dost-tanışlar, haqsızamsa, siz deyin,
Dar məqamda məndən qaçan dost deyil.
Günah varsa, çubuqlayın, söz deyin,
Dost deyilsə, demək, mənə rast deyil.

Dostum məni şöhrət-şana gətirdi,
Əzizlədi, düz imana yetirdi.
Dost olmasa, çöl-bayırda itərdim,
Ot-ələf tək yol-irizdə «bitərdim».

Qurban olum yaxşı dostun boyuna,
Qurbanlıq tək yollanardım toyuna,
Sevinirəm həm yazına, yayına,
Çağrılmadan harayına yetərdim.

Arzulamaz Yetim dosta fəlakət,
Bilir Xudam, söyləyirəm həqiqət,
Lazım gəlsə, eyləməzdim tərəddüd,
Öz qanımı dost qanına qatardım,
(Dostum desə, özüm oda atardım).

*04.11.2009*

## «QIZLAR» (DAĞISTANDA YER ADI)

Salam olsun görkəminə, düzünə
Yenə gəldim görüşünə, a «Qızlar».
Çiskin-duman həsrət qalsa üzünə,
Baş vurardım örüşünə, a «Qızlar»

Bakirələr qoruyardı yurdunu,
Ər oğullar çölə ova gedəndə.
Söndürməzdi ata yurdun odunu,
Uca tutmuş Qız başını nər qızlar.

«Qızlar yurdu» çağırdılar adını,
Nizamında saxlayardın ordunu,
Tez seçərdin qohumunu, yadını,
Qul olmuşlar duruşuna, a «Qızlar».

Kimlər səni «Kizlyar» deyə çağırdı?
Bilməm, nədən bu söz mənə ağırdı.
«Qızlar» sözün, yəqin, dili tutmayıb,
Düşsün mənim qarğışıma, a «Qızlar».

Bir zamanlar kümələrdə yaşardın,
Yağılarla vuruşmağı bacardın,
Çağrılmamış «qonağa» baş əymədin,
Dözmədilər «yağışına», a «Qızlar».

Qəzəbləndi səndə olan qüdrətə,
Artdı kini, coşdu qəzəb-hiddəti,
Qəsb eylədi baş əyməyən milləti,
Aldı cani ağuşuna, a «Qızlar»!

O günlərdən unutmayır qəzəbin,
Əsirgəmir sənə qarşı əzabın,
Yaşa, yarat, qoy kor olsun «yezidin»,
Məhəl qoyma «çağrışına», a «Qızlar».

Oğulluğa götürmüsən oğlumu,
Al boynuna, xoş niyyətin doğrumu?!
Korlama gəl sən Yetimin uğrunu,
Qərq olasan öpüşümə, a «Qızlar».

*07.11.2009*



## İNANMAYIN Kİ, KÜSÜRƏM

Baş məscidin minbərinə ilk yol tutan bir həbəşin sədası tək
Bağıraraq insanların qulağına bu nidamı söyləyirəm:
«Baxın yerə, baxın göyə, qəlbinizdə qoy yaransın sevgi, istək,
Bu dünyaya hakim olan tək Allaha usanmadan baş əyirəm!».

Beyninizdən qovun kini-küdurəti, təmizlənsin dünya, aləm,
Anamız Yer həm böyükdür, həm də kövrək, qayğısına qalsaq, nə qəm?
Xeyirxahlıq qismət olsun hər kimsəyə, nə qəm-qüssə, nə də ələm,
Xoş niyyətli işdən qabaq səcdə qılır, «Allahu-əkbər» deyirəm.

Sorsan kiməm, nə karəyəm ki, tək Onun hüzurunda müntəzirəm,
Deyərdim ki, Haqqın yolu çətinlikdi, qət etməyə mən dözürəm.
Deməyin, gər qorxmuramsa, nədən hərdən havalanır, həm əsirəm?
Agah olun: bu dünyaya gələn gündən Haqq dünyaya tələsirəm.

Bilir məni tanıyanlar: əqidəmdən heç bir zaman dönməmişəm,
Kimlərinsə qarşısında baş əymədim, haqq yolumdan çönməmişəm,
Var-dövlətçün əl açmadım, yolum zirvə, yaltaqlığa enməmişəm,
Çağırdılar Yetim məni, bu adımdan inanmayın ki, küsürəm».

*10.11.2009*

## KİTABI SEV

Yaransın həvəsin, al, oxu, dostum,
Bu kitab həm mənim, həm də sənindi.
Çalış ki, kitabla ülfətin olsun,
Kitabı sevməsən, işin çətindi.

Kitabdır hər elmin dili, açarı,
Bil, onsuz qolunun yoxdur tutarı.
Tək odur yaradan dövləti-varı,
Kitabı sevənin cismi mətindi.

Elmlər nə qədər pərvəriş etsə,
Kitabla yaranır bilik və istək.
Kitabla əylənsən, kitabı sevsən,
İnan ki, hər işdə dada yetəndi.

Kitab oxumayan, əlbəttə, kordu,
Tək odur insana fərasət verən.
Çoxları kitabdan məsləhət gördü,
Onlardan biri də baba Yetimdi.

*11.11.2009*

## NƏ VAR Kİ

Saz məclisi qura bilsəm yurdumda,
Nəşələnib söz deməyə nə var ki.
Nərə çəkib «Cəngi» çalsa ordum da,
«Qaçma, yağı, döz!» deməyə nə var ki.

O gün olsun «Hücum!» əmri verilsin,
Parıldasın Misri qılınc, sıyrılsın,
Baş bədəndən vuran kimi ayrılsın,
Qır atlara yol verməyə nə var ki.

Uzunburun sarıbaşa yalmanır,
Qılıqlanır, sür-sümüklə dalmınır.
Sarıbaşın qoltuğunda komlanır,
Tülkü kimi qaz yeməyə nə var ki.

Oğul odur öz gücünə inanır,
Şaxta-sazaq nə vecinə, dayanır,
Yetim təkcə haqq seçimə boylanır!
«Altdan» qalxıb göz döyməyə nə var ki.

*14.11.2009*

## SİYƏZƏN

Bir igidin yolu mənə tuş gəldi,
Tanışlıqdan gözlərimə yaş gəldi,
Söz deməyi ruhuma atəş saldı,
Ayrılanda, hər kəsdən alqış gəldi.

Soy adı yox, adı, deyən, Bahadır,
Qarşısında söz söyləmək bahadır,
Görən deyir, zor baladır, ahudur,
Bəxtəvərdi beləsiylə Siyəzən.

Naxışladı obasını, elini,
Baxdı yerə, sığalladı telini:
- Kəndimizə səni qonaq bilimmi? –
Utandırdı dəvətilə, Siyəzən.

- Bir günlüyə qonaq ollam, biləsən:
Yad ayaqlar altındadı Quycağım!
Gəlişimdən sevinəsən, güləsən,
(Dost gələrsə, kaş açılsın qucağın!)
Ehtiyacım var köməyə, Siyəzən!..

…Yuxularda görmədiyim diyardı,
Eşitmişdim, böyləcə bir yer vardı,
Rast gəldinsə, öpüşməmək lap ardı,
Füsunkardı həqiqətən Siyəzən.

Xəzər onun, o, Xəzərin gözəli,
Kim veribsə, adı yaman məzəli.
Mənim yurdum Quycaq olub əzəli,
Yetişməyir əlim, nədən, Siyəzən?

Mərd oğullar burda məskən salıbdı,
Çoxlarının səndə gözü qalıbdı.
Gəl soruşma, başıma nə gəlibdi:
Didərginəm öz elimdən, Siyəzən!

…Çox yaraşır görkəminə söz demək,
Eşitməkdən nə xoş imiş göz görmək!
Borcum olsun məclisində saz döymək,
Gördüm üzün, coşdum birdən, Siyəzən!

Mehribandı oğulların, deyəsən,
Yaraşırsan nağıllara, göyə sən,
Haqqın var ki, hərdən özün öyəsən,
Sevinərdim, Quycağıma gələsən,
Yetimsizdi yurdum, aman Siyəzən!

*15.11.2009*

## …VARMI, YOXDUMU?!

*(Yad diyarda «Qarabağ bülbülləri» mahnısını televizorda dinləməkdən qəmləndim)*

Aşıq qardaş, qulaqları aldatma,
Qarabağda bülbül varmı, yoxdumu?!
Cəhd eyləyib «yatanları» oyatma,
Küsüb bülbül, o, sarlardan qorxdumu?!

Niyə könülləri dağladın, aşıq,
Yandırdın qəlbimi, ağlatdın, aşıq,
Sazının simlərin etdin dolaşıq,
Qarabağda bülbül varmı, yoxdumu?!

«Könlümün novrağı» uçub o yerdən,
İtibdi sorağı, köçüb o yerdən,
Sar qovub bülbülü, qaçıb o yerdən,
Qarabağda bülbül varmı, yoxdumu?!

Sarı bülbül, Xarı bülbül olardı,
Bitərdi Şuşada, sünbül olardı,

Sevgiylə, nəğməylə həmdil olardı,
Qarabağda bülbül varmı, yoxdumu?!
(O yerlərdən soraq verən çoxdumu?!)

Göstər mənə Qubadlını, sevinim,
Cəbrayılı, Zəngilanı, sevinim,
Kəlbəcər yox, yox Laçınım, nə deyim,
Qarabağdan gələn, gedən yoxdumu?!

Füzulini Xocalısız anımmı,
Ağdamımı lap çarəsiz sanımmı,
Xocavəndsiz, Əsgəransız yanımmı,
Xankəndimiz gözümüzə oxdumu?!

Bülbüldümü Dərnəgüldə oxuyan,
Nə bilən var, nə də gəlib yoxlayan,
Qəmginlikdən gəlmir yuxum, yuxlayam,
Qarabağda bülbül varmı, yoxdumu?!

Ata yurdum, xanımanım itibdi,
Tar-mar olub güc karvanım, batıbdı,
Köçür Yetim, tay zamanı yetibdi
Deyilənə inam varmı, yoxdumu?!

*24.11.2009*

## ƏGƏR Kİ…

Sübh tezdən yeməyini bərk etsən,
Günortanın naharını ləng etsən,
Axşamlarsa şam yeməyin tərg etsən.
Yatağında mışıl-mışıl yatarsan.

Nəbada ki, soyuq sudan qaçasan,
Cəhd elə ki, duzlu tərə batasan,
Çalışginən pəhləvana çatasan.
Arxayın ol, şirin yuxu taparsan.

İş görəndə tənbəlliyi rədd elə,
Yaxşı çalış, əfəlliyə sədd elə.
Demirəm ki, sağlığına qəsd elə,
İş qorxarsa, arzulara çatarsan!

Dağ-qayaya dırmanmaqdan çəkinmə,
Nəyə gərək yalvarmağın həkimə?
Gec gedərsən onda yerin təkinə,
Qocalmağın ağır daşın atarsan!

İnsanlara hey deyirsən nəsihət,
Zərəri yox, xeyirlidir nəhayət,
Vallah, Yetim, söyləyirsən həqiqət,
Kaş sözünü əməlinə qatasan!

*20.12.2009*
*Dağıstan*

## DAĞLAR, DAĞLAR

*(Bayatılar)*

Ehey, zirvəsi qarlı,
Ətəyi bar-baharlı,
Məni niyə küsdürdün,
Qalmısan intizarlı?

* * *

A dağ, mənə qar göndər,
Demə yoxdu, var, göndər,
Ya gəl sinəmi soyut,
Ya üstümə sar göndər.

* * *

Ətəyində yataydım,
Çiçəyinə bataydım,
Mənə layla çalmasan,
Əzazilə çataydın.

* * *

Yönüm sənə sarıdı,
Rəngimə bax, sarıdı.
Yaramdan qan axıtdın,
Anam gördü, sarıdı.

* * *

Başın buluda çatsın,
Çiynin doluda yatsın,
Qızılcamı qovmasan,
Sən qızılca tutsun.

* * *

Üzün od tutsun, yansın,
Zirvən çapılsın, yansın,
Mənə əl uzatmırsan,
Gələn yolun bağlansın.

* * *

Yurduma yol bağlama,
Ayaqlarım dağlama,
Gedim yurduma çatım,
Qandallama, saxlama.

* * *

Nə dedim, üz döndərdin,
Yoluma buz göndərdin,
Soldu çəmən-çiçəyim,
Ocağımı söndürdün?!

* * *

Tutsun səni qarğışım,
Boğazına qurğuşun,
Elə qanlar tökmüsən,
Sənlə necə barışım?

*22.12.2009, Kizlyər*



# Yumor səhifəsi

## QEYBƏTÇİLƏR

- Nə yaxşı ki, qələm əhli görmür səni,
Görən kimi ucaldardı haqq səsini.
Nə haqq ilə çox işlərə baş qoşursan,
Yoxsa çaşıb çağırarlar yazar səni!

- Yazı-pozu xəstəlikdi, üzəcəkdi,
Çox cəhd etsən, geci-tezi əzəcəkdi,
Bədniyyətlər aman verməz, sezəcəkdi.
İnanma ki, gül-çiçəklə bəzər səni.

- Çalış düşmə sən qələmin tələsinə,
Xıncımlayıb çölə, düzə səpəcəkdi.
Nöqsan qoyma əməlində, süzəcəkdi,
Addım-addım izlərini gəzir sənin.

- Bəxtərvərdi yazmayanlar, hamı bilir,
Olanlardan lap vecsizdi, xəbərsizdi.
Qəm eyləməz, Yer kürəsi yansa belə,
Susacaq ki, qarışmasın, düşər dilə.

- Gözlülərin gözlərini qapayırlar.
Üzə dursa, divarlara yapayırlar,
Hay salanı zindanlara toplayırlar,
Dinmə, Yetim, axar qanın, bəzər səni.

***P.S.*** *Yavaş-yavaş unudulur Qarabağ da, Qara dağ da,*
*Düşmənimiz məskunlaşır gah bu dağda, gah o dağda,*
*Vec eləmir varlılara, övladları bolluqlarda,*
*Kaş gün gəlsin, axtarsınlar balaların «kolluqlarda».*

*10.01.2009*

# PİŞİK NİYƏ MİYOLDAYIR?

*«Pişik kimi davran ki, işin tez yola düşsün».*
*El məsəli.*

İtlərin günü qara, məzlumlansa, tez qovlanar,
Sümüyə möhtac olur, zəncirlənər, boğazlanar,
Peşəsi qorumaqdı, çobanlara sirdaş olar,
Bilən yox, bəç pişiklər nədən belə miyoldayır?

Tez yola gəldiyindən sığallanır, əzizlənir,
Siçanı tut deyəndə, marıtlayır, həm gizlənir.
Üz-gözü bulaşsa da, yeyir, doyur, təmizlənir,
Bilən yox, bəs pişiklər nədən belə miyoldayır?

İtlərə yal əvəzi sümüklər də bəs eyləyər,
Qoruyar sahibini gecə-gündüz, səs eyləyər,
Təki sən fişlə onu, güləşə həvəs eyləyər,
Deyən yox, bəs pişiklər nədən belə miyoldayır?

Yalmanmaq pişik işi, qucaqlarda mürgüləyər,
Soyuqda yox duruşu, bucaqlarda xor-xor deyər,
«Ver yeyim, ört yatım»dı, iti görcək miyoldayır.
Quyruğun bassan əgər, işə düşər sərt dişləri.
(İsti yer, isti ocaq – yaltaqların yataq yeri).

Azdan az, çoxdan da çox qane edir Alabaşı,
Öz halal zəhmətilə yaşayır dostu, qardaşı,
Qurdlardan yox qorxusu, hökmən gətirər duruşu,
İstəməz pişiklərlə ömiür sürsün yan-yanaşı.

İt kimi yaşamaqdan xoşlanmayır Məstan pişik.
Nə iti azmış onun, orda-burda çəksin keşik.
İtlərə tay deyildir, boy-buxunu olur kiçik,
Bilən yox, bəs pişiklər nədən belə miyoldayır?

*28.05.2009*

## QAYĞIMA QALMAYINIZ

Bu nə cənnət-cəhənnəm qovğasıdı, salmısınız,
Kim sizi «qəyyum» edib, «qayğımıza» qalmısınız?
Pul üçün dartışırsız, tam adətkar olmusunuz,
A molla, ay seyidcan, bir azacıq insaf edin,
Tanrının qanununa əməl edin, siz də gedin.

Xoxlayıb insanları gecə-gündüz qorxuzursuz,
Ciblərin boşaltmağa əsəblərini pozursuz,
Kim bilir, yazdığınız «dualarda» nə yazırsız?
A molla, ay seyidcan, bir azacıq insaf edin,
Tanrının qanununa əməl edin, siz də gedin.

Kasıbdı, ya varlıdı, sizlər üçün nə fərqi var,
Hamını bir «ölçürsüz», ərşininiz eyləmir ar,
Yalvarıb-yaxarsaq da, giley-güzar eyləmir kar.
A molla, ay seyidcan, göyə baxın, insaf edin,
Tanrının qanununa tabe olun, siz də gedin.

Qəbirlik torpaq üçün yer pulunu hesabla, ver,
Qəbirçi nə istəsə, cəhl eləmə, üzüsulu ver,
Kəfənə, ya namaza deyiləni örtülü ver,
Ehsana pulun yoxsa, göydən asıl, ya yerə gir!
(Vallah, bu sayaq üçün adam heç ölmək istəmir).

***P.S.*** *Mollanın, ya seyidin yazılmamış «qanunu» var,*
*Onlardan pay istəyən məmurların diplomu var,*
*Beləcə «qanun» qoyan insanları tutsun azar!*
*Bu nə cənnət-cəhənnəm qovğasıdı, salmayınız!*
*Ölənə rəhmət düşər, ondan da «pay» almayınız!*
*İstəməz Yetim bunu, qayğısına qalmayınız!*

*31.05.2009*

## BU NECƏ MƏNZƏRƏDİ?!

**(***Dağıstandan bir görüntü)*

*«Bu necə yerdi, oğul, məni bura alıb atdın,*
*Elə bil bazardaydım, lap ucuzca alıb satdın?!»*

Qəfildən günəş çıxsa, çöl-çəməni yaman qarsır,
Küləyi qalxan kimi, hər tərəfi duman basır.
Qapqara rəngli tozu insanları kor eyləyir,
Bürüyür dağı, düzü, eyvanları tor eyləyir.

Buludlar bir andaca qarışdırır göy üzünü,
Qoymayır göz açmağa, hey fırlanır yol uzunu.
Süfrəmə bal, yağ qoysan, yesəm qarnım harınlanır,
Gurlayır qulaqlarım, əsəblərim tarımlanır.

Kiminin maşını var, bütün yollar dardı ona,
Yanından keçən olsa, ötüşməmək ardı ona.
Elə cür «kişilər» var, küçələrdə səkkiz yazır,
Qadını acıqlanır kişisindən, şəksiz, azır.

Sənəti bazarlarda alver olur qadınların,
Adam lap yazıq deyir, günü qaradır onların.
Cürbəcür məscidi var, əzançının sayı boldu,
Bəzisi namaz qılır, sanır ki, Tanrıya quldu.

Ayrıca alver edir mollalar da orda, burda,
İstəsə utanmadan əzançını qoyar darda.
Üzləri saqqallıdı kişilərin, qapqaradı,
Səbirsiz böyüyürlər oğlanı da, qızları da.

Ən kiçik sözdən belə özlərindən tez çıxırlar,
«Vur, gəldim!» deyiləndə bir-birinə biz soxurlar.
Sanki bir xiyarçaqdı, əl toxunsa, su çiləyir,
Toxumu göz çıxardır, üz-gözünü zəhərləyir.

Başları gic eyləyən tüstülərdən xoşlanırlar,
Elə buna görədi: yaş ötməmiş yaşlanırlar,
Tütünə, tənbəkiyə od vururlar, odlanırlar,
Ətrafı zəhərləyir, küçələrdə aldanırlar.

Bu nə aləm, bu nə millət bu yerdə kök salıbdı,
Dərdi çox, çarəsi yox, düz yolçuya yük olubdu.
Meyvəli bağları az, başqa yerdən «sovqat» gəlir,
O qədər dərmanlıdı, yeyənlər ikiqat qalır.

Öz dili var olsa da, öyrənilmir məktəblərdə,
Sakini çox azalıb dağ kəndlərdə-kəsəklərdə.
Haraya göz gəzdirsən qamışlıqdı, çiyənlikdi,
Bataqlıq gəzsən əgər, bol görərsən, cəngəllikdi.

Bir sözlə, burda hər şey «nəzarətdə, diqqətdədi»,
Günahı bu yerlərdə bəylik (!) edən «sovetdədi»!
Sənə nə düşüb, Yetim, «özgəsini» ağlayırsan,
Gileyin-güzarınla öz səsini korlayırsan?!

*06.06.2009*

## ARI VƏ AĞCAQANAD

- Nədəndir sizlərə insandan hörmət? –
Sualın cavabın tapmıram, dəhşət!
Sizin də bizim tək uçmağınız var,
Bizim də sizin tək sancmağımız var.
Biz sancsaq, vururlar, ləkəmiz qalır,
Sizin iynənizdən hamı həzz alır! -
Ağcaqanad heyrətləndi arıya,
Uçdu, qondu yaxındakı barıya.
- Bayram olar, dost gələrsə həyətə,
Düşmən gəlsə, qurban gedər zülmətə,
Babalardan əmanətdi nəsihət.
Unutmusan deyiləni sən, əlbət.
**P.S**. (El sözünə Yetim olubdur dəstək).

*05.06.2009*

## GƏLMƏDİM

*(Əvvəl övladından imtina edib, sonradan «peşman» olan anaya)*

İncik düşdüm, rəngim saraldı, soldu,
Dağ-düzəndən əsən rüzgar sovuldu,
Nübarındım, gözgörəti qovuldum,
Susub getdin, çağırsam da, gəlmədin.

Duman-çənin get-gəlinə tuş oldum,
İtdim gözdən, sanki bir qarğış oldum,
Hay vermədin, qolazlanmış daş oldum,
Gec «çağıırdın», barışına gəlmədim.

Dost-tanışlar dil tökdülər, sınmadım,
Susdu ürək, batdı sinəm, dinmədim,
Dava-dərman yetidtdilər, anmadım,
Yoxluğunun təlaşına gəlmədim.

Halal etmə mənə «ana südünü»,
Eşitmədim «öyüdünü, andını»,
İtirsəm də sənsiz ağzım dadını,
Tuş gəlsəm də qarğışına, gəlmədim.

Tək sən deyil, mən fələkdən küsmüşəm:
Saldı məni yurd-yuvadan dərbədər.
Gizlətmirəm, həsrətindən əsmişəm,
«Sorağına», «görüşünə» gəlmədim.

Xilas yoxdu talehimin əlindən,
Düşməyirəm böyük, kiçik dilindən,
Son nəfəsdə Xudam tutsun qolumdan,
Yetim oldum, «analıykən», gəlmədim.

## ŞEYTANLİBAS

Danışanı səs-küy salıb çaşdırır,
Tarımlayır əsəblərin, coşdurur,
Nifaq salır ortalığa, baş durur,
Lənət sənə, şeytanlibas, rədd ol, get!

Xoşniyyətli görməyiblər cismini,
Nifrət deyir, kim eşitsə ismini,
Kəsdirəcək bir gün nahaqq üstünü,
Lənət sənə, şeytanlibas, rədd ol, get!

Mayan çürük, insanlığın yox sənin,
Yalan-yanlış küsdürürsən kimsəni.
Ay utanmaz, vəkil tutub kim səni?
Lənət sənə, şeytanlibas, rədd ol, get!

Donuz kimi baş soxursan hər yerə,
İstəməzdim, kimsə səni dindirə.
Miras qaldın, döndün yaman andıra,
Düşsün canın bir gün yanan təndirə!

*P.S. Qaşqabaqlı insan görsə, sevinər,*
*Altdan-altdan hırıldayar, hey gülər,*
*Boğazlamaq istər, Yetim, düşünər,*
*Lap bağırar: «Şeytanlibas, rədd ol, get!»*

*17.09.2009*

## DUSTAQLAR

- Necəsən, a dostum zülmət komada,
Nədən titrəyirsən bura düşəli?
Görmədim mən səni dərddə, qovğada,
Sürərdin gününü kefli, nəşəli.

Yamanca qaçırsan küncə-bucağa,
Günahın nədir ki, düşdün bu çağa? –
Siçandan soruşdu pəsdən kəsəyən.
- Peşəmiz bir olmuş, özün bilirsən,
Sən məndən güclüsən, etiraf edim,
Birlikdə tələyə düşmüşük indi. –
Göz yaşı axıtdı, hönkürdü siçan,
Söylədi: - Yamanca dəyişdi dövran.
Kef-damaq içində ömür sürürdük,
Cələni, tələni biz nə bilirdik.
İnsanlar bizlərdən nələr çəkirdi,
Biz talan edirdik, onlar əkirdi.
Tarlaya, bostana zəhər tökürdü,
Çarənin yolunu tapa bilmirdi.
Dəyişdi zəmanə, yaman gün çatdı,
Söndü günəşimiz, ayımız batdı.
Tapıldı, nəhayət, çarələr indi,
Yaşamaq bizimçün daha çətindi.
Düşmüşük tələyə, işimiz fəna,
Bir yol tapmayırıq, gedək hayana?
Hər yana çəkilib bəndlər, bərələr,
İnanma, bizlərə aman verərlər:
Kimlərsə becərir barı-bəhəri,
Biz isə qənimik əzəldən bəri!
Yetişdik tələyə tamahımızdan,
Cəza alacağıq, yəqin, bir azdan.
Bizə nicat yoxdur insan əlindən,
Gərəkdir çəkilək onun yolundan!

***P.S***. *«Çatladar bir zaman tamahın daşı,*
*Tamahdan atırlar dostu, qardaşı».*
*Çox çəkmiş bu işdə Yetimin başı,*
*Xoşlamaz tamahı, dava-dalaşı.*

*31.10.2009*

## MƏRDİMAZAR

Çapıb taladığın azarım olsun,
Oda qaladığın bezarım olsun,
Alışsın yaylağın, gülzarın solsun,
Çəkəydim çarmıxa, ay mərdimazar.

Güvəncin kaş sənə qənim olaydı,
Kədərin olaydı, qəmin olaydı,
Aldığın yaradan ünün qalaydı,
Çıxaydın tay yoxa, ay mərdimazar.

Görəydim sonunu, sorağını mən,
Alaydım gönünü, papağını mən,
Od vurub yandıram oylağını mən,
Düşəydin qaçağa, ay mərdimazar.

İstərəm tez səni qarğışım tutsun,
Qazdığın qəbirdə sirdaşın yatsın,
Tutulsun ulduzun, günəşin batsın,
Yox olsun «fatehən», ay mərdimazar.

Çoxları əlindən zinhara gəlib,
Üz tutub dağlara, avara qalıb,
Dərdimi ağlamaq dildara qalıb,
Dözmür Yetim daha, ay mərdimazar.

*18.11.2009*




# Uşaqlar üçün

## BAHARIN İLK XƏBƏRÇİSİ

Quyruğu var haça, haça,
Libası dar, alapaça,
Yuva qurar uca-uca,
Oxuduğu tap-tapmaca.

O, baharın carçısıdı,
Uçuşu od parçasıdı,
Cücülərin ovçusudu,
İnsanların arzusudu.

Qıyıb heç kəs vurmaz onu,
Qıvxırtıyla yormaz onu,
İncə səsi bir zümzümə,
Hey səslənər öz-özünə.

Əti yeyilməzdir onun,
Cismi söyülməzdir onun,
Mələklərin sevimlisi,
Baharın ilk xəbərçisi.

Yuvasına etibarlı,
Özü kiçik, dağ vüqarlı,
Yetimin sevdiyi quşdur,
Ovlanılmaz, qaranquşdu.



## KƏPƏNƏK

Dolaşarlar çiçək-çiçək,
Qanadları ləçək-ləçək,
Qaçsa qışda, yaz gələcək,
Çəmənləri bəzəyəcək.

Onsuz heç bir çəmən olmaz,
Hər çiçəyə sullat salmaz,
Topladığı şirələrdən
Xortumunda izi qalmaz.

Çiçək-çiçək uçasıdı,
Dəcəllərdən qaçasıdı,
Gül-çiçəyi araşdırar,
Küs edəni barışdırar.

## NƏNƏ VƏ NƏVƏ

Nənəmə bax, nənəmə,
Oxşadır özün mənə.
Çəliyini yellədir,
Yüyürür göy çəmənə.
İməkləyir uşaq tək,
Səslənir: «Əppək, əppək!»
Qızışdırır o, məni,
dolandırır çəməni…
Yaşıl çəmən – göy xalı
yatıb üstə qalmalı!.
Nənəm deyir, dəcələm,
Uzandırır ot üstə,
«layla» çalır ki, mənə,
uyuyaraq dincəlim.
Gözlərimi yumuram,

Ondan nağıl umuram.
Dərindən nəfəs alır,
Nağlını başlayır:
«Uzaq-uzaq diyarda
Əzazil bir şah vardı.
Dili acı, gözü qan,
Sanardın vəhşi aslan.
Tutduğun kəsir, biçir.
Ləzzətlə qanın içir.
İnsanlar zülm əlindən
Düşdü didərgin eldən.
Pənah etdi dağlara,
Həsrət qaldı bağlara…
Bağ-bağatlar qurudu,
Sürüləri gün vurdu.
Zəmi yandı, kül oldu,
Şah işi müşkül oldu.
Kəndlər viranə qaldı,
Qurdlar şahlığa doldu.
Saray döndü zindana,
Bayquş qondu eyvana…
Şah üz qoydu yollara,
Car çəkdi obalara,
Yalvar-yaxr eylədi,
«günahkaram!» - söylədi.
İnandılar qocalar.
Tüstüləndi bacalar,
Açıldı yol-bərəyə,
Hamı döndü geriyə.
Ellər razı qalmışdı.
Bu əhvalat olmuşdu…»
«- Dəcəllik nəyə lazım,
Ay mənim iki gözüm.
Qoy sevsinlər üzünü,

Əməlini, sözünü,
Sevinsin atan, anan,
Ay nənə sənə qurban!»
Rəvan baxdı, düşündü,
Əməlindən daşındı.
Qucaqladı nənəni,
Nənə öpdü nəvəni.

***P.S***. *Göz qoyurdu uzaqdan*
*Yetim baba bayaqdan,*
*Baxıb gülümsünürdü,*
*Ürəkdən sevinirdi.*

*23.10.2009*



# Nəsr səhifəsi

## NƏ GÜNAHI VAR TELLİ SAZIN?

***(hekayə)***

- Gəl anamın gəlini ol, sevgilim!
- Anan sənə layla desin, mən gülüm.
- Yol gedərəm sənlə hər an, öz gülüm!
- Gül başına sənin kimi bülbülün!
- Saçlarının biri mənim sünbülüm.
- Sənə qarğış etməyə gəlmir dilim.
- Səndən ayrı dolanmaq mənə zülum!
- Çox yalvarma, sənə yoxumdur könlüm!
- Ay insafsız, sözlərimə gəl inan!
- Yalan sözə kim inanar, Qəhrəman?
- Lap yaraşır bu ad sənə, a Tərlan!
- Keç yolumdan, səndən yar olmaz, oğlan.
- Yalvaranın naləsi yerdə qalmaz!
- Yalvarana göz ağartsam, pis olmaz, - deyib Tərlan Qəhrəmanın yanından sivişdi, gülə-gülə evlərinə sarı qaçdı. - Qafiyə tutmaqda yarışırdılar öz aralarında.

Tərlanın arxaya boylanmadan əda ilə nazlanması, məktəbli çantasını qucağında atıb-tutması Qəhrəmanı dəli-divanə edirdi. Sanki təbiət onları bu kənddə xüsusi şövqlə yaratmışdı: qarayanız, qarasaç, gülərüz, hələ indidən deyib-gülməyi əldə bayraq edən, zarafatdan həzz alan, eyni boybuxunlu, görkəmindən hamını heyran edən iki gəncin davranışı bir-birinə ünvanlanmışdı.

Qəhrəman kəndin aşağısında, Tərlan - yuxarısında yaşayırdı. Onuncu sinifdə oxuyurdular. Yox, yox, sinif onlarsız çox soyuq görünürdü. Birisi təsadüfən dərsə gəlməsəydi, o birisinin üzü gülməz, qaşqabaqlı görünərdi. Əyləşdikləri partalar da təsadüfən eyni məsafədə qoyulmuşdu: hər tərəfdən dörd parta. Qəhrəmanın Tərlana baxan yönü günəşə doğru idi. Yolda-irizdə onların bir-biriylə deyişməsindən, zarafatlaşmasından çox az adam xəbərdar idi. Dərs zamanı ciddi davranar, heç kimin diqqətini pozmazdılar. Ədəbiy-

yatdan dərs deyən ağsaçlı Gülşən müəllimə gəncləri diqqətli, mərifətli olmağa öyrədərdi. Təkcə onun nəzərindən qaçmamışdı Qəhrəmanla Tərlanın münasibətləri. Şagirdlərin hamısı onunçün əziz olsa da, qəlbində bu iki gəncin fərqindəydi: özünün cavanlığını xatırladırdılar.

Tərlangilin evi dağın döşündə, yuxarıda yerləşdiyindən nəinki günəş onu Qəhrəmandan tez «salamlayırdı», hətta sısqalıqdan şirvana çevrilən yağış da, zirvəni çalmalayan duman-çən də. Amma hər ikisi eyvana çıxanda, uzaqdan olsa da, bir-birini görür, salamlayırdı.

Qoltuğundakı kitablardan fərəhlənən Qəhrəman quzuları, çəpicləri haylayıb yamaclarda otarmağa aparanda, Tərlan qız-gəlinlə comalaqlaşıb sənəyinin şəlləyindən artıq qalan çatının ucunu fırlada-fırlada kəhrizə yollanırdı. Ev işlərində anasına köməyini əsirgəməyən Tərlan dərslərini də unutmazdı. Dəqiq fənlərdən çətinliyə düşəndə, Təranə müəllimədən kömək istəyəcəyini bəhanə edib Qəhrəmanın yolunu gözləyərdi. Bir-birindən nigarançılığa dözməyən, Tanrının dərgahından yaranmış bu sevgililər elə bilirdilər ki, «dəvə pambığa girəndə, heç kəs onu görmür». Bəs el gözündən yayınmaqmı olar! Bir dəfə anası Tərlandan nigarançılığını ərinə bildirmək istəyəndə, Əsəd gülümsündü.

- Ay Gülü, ay pir olmşun qızı, özündən bəri baxsana. Sən deyildinmi yanımdan keçəndə, atmacalarıma dilini çıxarırdın? Cavandılar, də… Uşağı indidən gözümçıxdıya salma, görək.

- Nə bilim, ay Əsəd, elə işlərin qorxulusu cavanlıqdan başlanmır?

- Ot kökü üstə bitər, qızımız başımızı alçaltmaz, inanıram.

- Təki sən deyən olsun.

- Yadındamı, dərsdən qayıdanda, oxuyardıq: «Mən deyən oldu, ay gülüm, sən deyən olmaz!» Balalarımızdan narahatlığa dəyməz, axı biz də onlarçün yaşayırıq.

- Sən lap ağ eləyirsən, ey, Əsəd, tam özbaşınalıq da yaramaz axı… «Ailə sürətlə şütüyən maşına bənzəyir, azacıq diqqətsiz olsan, qəzaya uğrayarsan», - öyrədirdi Ağakərim müəllim fəlsəfədən mühazirə oxuyanda.

- Doğrudu. Bu da var ki, indi Məşədi İbad zəmanəsi deyil. Dünən Qəhrəmanın yanımdan keçəndə necə nəzakətlə salamlaşdığını görəndə, özümün sevən vaxtımı xatırladım. Şükürlər olsun ki, cavanlığımızdan hamı ağızdolusuyla danışır. İkimiz də ali təhsilliyik, övladlarımız, başımızın üstündə damımız, yeməyə çörəyimiz var. İnsan üçün bundan gözəl nə ola bilər?! Minnətsiz həyat! Vahidlə Elladanın oğlundan bizə zərər gəlməz, biz dostuq axı. Ürəyini buz kimi saxla. Bir əqidənin sahibiyik: pislikdən uzaq ol! Babalar belə deməyibmi?

- Avazın yaxşı gəlir, oxuduğun Quran olsa. Sənin Vahidin evindən niyə perik düşüb, bilirsənmi?

- Xəbərim yoxdu, sən nəsə bilirsən?

- Bax elə xoruzun da quyruğu burdan görünür, dəə…

- Nə xoruz, nə quyruq, açıq danışsana.

- Düz sözdən çoxunun xoşu gəlmir. Özünü doğru bilirsənsə, buna sübut lazımdı. «Qoy səni tərifləsinlər, sən özünü yox». Bunu hörmətli professorumuz Məmməd Qocayev demirdimi?

- Deyəsən, sandığında qatıaçılmamış xəbərlər var. Elədirsə, yağdır, gəlsin.

- Vahid hərdənbir Elladaya xəyanət edirdi, amma Ellada uşaqlara görə bunu ört-basdır edirdi ki, bəlkə hər şey yoluna düşər. Alınmadı. O da ərinə xəyanətin nəylə qurtaracağını anlatdı. Rüsvay olacağından qorxan Vahid, ayağısürüşkənlikdə ad çıxarmış Gülxarın əməl-felindən qaçmaq üçün üz tutdu əsgərliyə. Sonu nəylə qurtardı?

- Yaxşı tarzənsən, mizrabı hansı simə vurduğun bəlli oldu. «Keçən sözü vurma üzə, olan oldu, keçən keçdi». Gələcəyə açıq gözlə baxsaq, yaxşı olar, elə deyilmi, Gülzarım mənim?

- Odur ki, ayağını yorğanına tən uzat. Sonrakı peşmançılıq fayda verməz, hörmətli müəllim, - dedi və səhər naharı üçün hazırlığa yollandı.

- Sən süfrə açmağa gedirsən, bəs mən?

- Yaxşı müəllimsənsə, köməkçim ol.

- Olaram, olaram, lap o yana da gedərəm, mənim Gülzarım! – dedi və arvadını bərk-bərk qucaqlayıb öpdü.

- Ə, ətin tökülməsin, uşaqlar həyətdə oynaşırlar, bizi görərlər, özünü ələ al, ayıbdı.

- Özgəsini öpmürəm ki, halalca arvadım deyilsən?

- Nə olsun, hər şeyin öz məqamı, öz yeri var, dəə…

- Məqamı gələndə, özümü saxlaya bilmirəm, ey, Gülüm! – Əsəd Gülzarı yenidən qucaqlayanda, kiçik oğlu Rəvan onları görüb qışqırdı.

- Ata, anamı niyə döyürsən, nə pis iş görüb?

- Yox, yox, əstəğfurillah, döymürəm, ey, kürəyini sığallayıram. Deyir ki, quluncu var, deyəsən, soyuqlayıb.

- Soyuqlayar, dəə, gecə mən çişə çıxanda, pəncərədən gördüm ki, yorğanı üstündən düşüb. İstədim örtüm, sən öskürdün, mən də tez öz otağıma qaçdım ki, gözünüzə görünməyim. Axı tez-tez çişə getdiyim xoşuna gəlmir.

- Sən niyə üst-başını isladırsan ki, sonradan süzənək olursan, mən də acıqlanıram?

- …

- Ata, səni də cəzalandırıblar, üst-başını bulaşdıranda?

- Əlbəttə. Heç bilirsən, atam məni nəylə kötəkləyirdi? Şallaqla! Qonşu uşaqlarıyla «Lığ göl»də çimməyə getmişdim. Şahin üzə-üzə gölün ortasına çatanda, işdən qayıdan atası gördü, sahilə çıxarıb o ki var əzişdirdi.

- Niyə?

- Şahin geri qayıdanda, yorula bilərdi və suda boğulardı. Atam da məni şallaqladı ki, o yerlərə üzükməyim, məni çox sevirdi axı.

- Mən «Lığ göl»də çimmirəm, haa! Şırışda çimirəm.

- Ey, atasının gül balası, atanın qolundan tut, haydı süfrəyə, yoxsa işə gecikər, kötəkləyərlər. – Arvadının səsini eşidib ona sarı çevriləndə, Gülzar ağzını büzüb, gözlərini ağartdı. Əsəd də arvadını cavabsız qoymadı: dodaqlarını sıxdı, dilini çıxartdı. İkisi də şaqqanaq çalıb yollandılar səhər naharına.

Otağın tən ortasında qoyulmuş masanın üstündə açılmış süfrədə sıralanmış nəlbəkilərdəki armudu stəkanlardan qıvrıla-qıvrıla tavana doğru buxarlanan pürrəngi çayın ətiri, kiçik nimçələrə qo-

yulmuş qaymağın, təzəcə tutulmuş pendirin görkəmi, ərik, əncir, moruq mürəbbələrinin, isti fətirin bihuşedici iyi adamı məst etsə də, gümrahlandırır, sevinə-sevinə işə getməyə güc verirdi.

Naharın ən ləzzətli vaxtında Əsədi, elə bil, qıdıqladılar.

- Qızım, ağlıma bir fikir gəlib: istəyirəm səni kiçik imtahana çəkim, olarmı?

Çay qaşığını mürəbbəylə doldurub ağzına aparmaq istəyən Gülzarın rəngi qaçdı, üzü bozardı, loxma boğazında ilişdi, çeçədi. İstədi etiraz etsin ki, belə lazım deyil. Əsəd ona göz vurub, üzünü qızına tutdu.

- Ata, bizim rus dili müəllimimizin atalar sözündən, zərb məsəlindən yamanca xoşu gəlir.

- Yadında qalanı varsa, birini deyərsənmi? Amma çalış, orginalda olsun, yaxşımı?

- Koqda ya yem, qlux i nem.

- Podçinyayus besprekoslovno, ne budu meşat. Vinovat, izvini papu. – Ərinin belə yola yaxınlığından xoşlanan Gülzarın üzünü bəzəyən təbəssümdən hamı gülümsündü. Yeməyini atasından tez qurtaran Tərlan ciddi halda atasına baxdı.

- Konçil delo – qulyay smelo! Tak, na çyom mı ostanovilis? Ya vas sluşayu, doroqoy papulya.

- Ne «papulya», a «papa», doroqaya doçenka.

- Vı pravı, ne budu portit yazık.

- Tak-to luçşe. Vidiş li, v çyom delo? Menya interesuet vot takoy vopros…

- Sualınızı ana dilində deyə bilərsinizmi, əgər mümkünsə? – Tərlanın belə ciddi danışmasından atası xoşlanırdı, yağ kimi yayılırdı canına.

- Qızım, bildiyimizə görə, soğan, sarımsaq, istiot yeyiləndə, adamın ağzı «yanır». – Əsəd ağzını geniş açdı, «hoox!» etdi, gözlərini yumdu, əlilə yellətdi. – Niyə onları bişirəndə, təkcə istiot acılığını saxlayır? Soğanı soyanda, doğrayanda, adamın gözləri giçişir, yaşarır, amma bu hal sarımsaqda, istiotda alınmır?

- Başqa sualınız varsa, nərildədin ki, hamısına birdən ətraflı cavab alasınız.

- Sualların sayı sonsuzdu, cavablarınsa – məhduddu. Bir sualıma da cavab almaq istərdim, olarmı?

- Buyurun, sizi dinləyirəm, - sanki müstəntiq qarşısındaydı Tərlan.

- Aydındır ki, biz oksigenlə nəfəs alırıq, bəs xaric etdiyimiz qazlar hansılarıdı, onlardan yananı varmı? Hələlik bu qədər. Mümkünsə, qoyulmuş suallara qısaca cavab verin. – Əsəd gözlərini qızından ayırmırdı, gülümsünürdü.

- Çalışaram, cavablarım qaneeidici olsun.

- Çox məmnun olardım, izninizlə!

Ata-bala qucaqlaşıb güləndə, Gülzar özünü saxlaya bilməyib, doluxsundu. Sevincindən gözləri yaşardı, qab-qacağı yığışdırmadan yan otağa keçdi ki, «imtahan prosesinə» mane olmasın.

- Əvvəla, onu deyim ki, verilən suallara cavablarım dərsliklərin və Rəfail müəllimin öyrətdikləri əsasında olacaq.

Bütün canlılarda olduğu kimi, insanlar da qəbul etdikləri qida maddələrini mədə-bağırsaq sistemində həzm-rabitədən keçirir. Bu işdə əsas rolu olan vasitələrdən biri də öd kisəsindən ayrılan şirədir. Ürək-damar sisteminin fəaliyyətini qan dövranı tənzimləyir. Qanın hazırlanmasında isə qaraciyər və ağciyərin rolu əvəzsizdir. Belə ki, xarici aləmdən ağız və burun boşluğu vasitəsilə qəbul etdiyimiz havanın təxminən 90 faizini oksigen təşkil edir. O, qana keçir, oradakı fermentləri oksidləşdirir. Bu zaman yaranan karbon qazı xaricə ötürülür. Mədə-bağırsağın divarlarındakı milyonlarla əmici tellər vasitəsilə qida maddələri mübadiləyə uğrayır, ən lazımlı hissəsi uzun yol qət edib qana sorulur. Qalan maddə qalıqlarının çürüməsi zamanı qeyri-qazlar yaranır, mədənin aşağı borusundan düz bağırsağa keçir. Bax bu $SO_2$ deyilən qaz toplusu, lazım gəlsə, yanmağa məruz qala bilər.

Soğan, sarımsaq, istiotun tərkibində qlükozidlər deyilən spesifik qoxulu üzvi maddə var. Soğanın, sarımsağın və istiotun xarici örtüyü dağıdıldıqda, yüngül uçucu maddə ətrafa yayılaraq qoxu yaradır. İstiotun tərkibindəki qlükozidlər yüksək temperatura davamlı olduğundan, bişiriləndə belə acılığını saxlayır. Soğandakı qlükozidlər çox uçucu olduğundan dərhal buxarlanır, göz, burun, boğaz qı-

cıqlanır, çünki bu üzvlərdəki daimi nəmişliklə reaksiyaya girir. Onu doğramazdan qabaq suda islatmaq məsləhətdir ki, narahatlıq yaranmasın. Sarımsağın tərkibində «fritonsid» adlanan maddə sağlamlıq üçün vacib əhəmiyyətə malikdir.

- Bərəkalla, qızım, məni əməllicə başa saldın, daha sözüm yoxdu.

- Cavabım çox qısa oldu, gərək bağışlayasan.

- Elə buna görə də təşəkürlər.

- Dəyməz.

- Dəysə, dəyər, dəyməz, kal yeyərik, - deyəndə ata-bala bir-birini qucaqlayıb gülüşdülər.

… Buraxılış imtahanlarıyla əlaqədar məktəbdə təntənəli yığıncaq keçirilirdi. Kəndin sayseçmə adamlarından da dəvət etmişdi bu işdə xüsusi səriştəsi olan məktəb direktoru Osman Mirzəyev. Çıxışına təbriklə başlayan ağsaqqal uzun-uzadı nitq söyləməkdən vaz keçdi.

- Elə bilirəm ki, məclisimizə təşrif buyuran kənd fəallarının da fikrini ifadə edərdim, əgər desəm: builki məzunların imtahan nəticələri bizi həqiqətən sevindirdi. Onların aldıqları, bəli, səhv etmirəm, bilavasitə bilik səviyyəyəsinə görə aldıqları qiymətlər hamımızın ürəyincədir. İnanırıq ki, qocaman riyaziyyatçı İmanqulu müəllimin bu ilki məzunlara məmnuniyyətlə yazdığı «yaxşı, əla» qiymətlər ali məktəblərə qəbul vaxtı özlərini hökmən doğruldacaq, hərçənd çoxumuz onu bilik qiymətləndirməkdə xəsis kimi tanıyırıq, – deyəndə razılıq sədaları hamının ürəyincə oldu.

- Eşq olsun İmanqulu müəllimə! Sübut edəcəyik ki, əsl müəllim məhz beləcə işləməlidir, - yerbəyerdən dilləndilər. Kolxoz sədri ovçu Ələkbərlinin çıxışı isə adamları ayağa qaldırdı.

- Əziz balalar, idarə heyəti və öz adımdan sizə minnətdaram. Oxumaqla yanaşı təsərrüfatımıza köməyinizi əsirgəməmisiniz. Yaxşı bilirsiniz ki, qazandığımız uğurlar elimizin firavanlığı üçündür. İnanıram: yaxşı elm adamı, mütəxəssis kimi kəndimizin adını uca tutacaq, şərəf gətirəkəcəksiniz. Bayramınız münasibətilə kolxoz idarə heyəti məktəbimizə maddi kömək göstərməyə hazırdı,

həmişəki kimi. Şənliyiniz təqdirəlayiqdi. Ən yaxşı şənlik ali məktəblərə qəbuldan sonra olacaq. Hamınıza uğurlar arzulayıram!

Gecədən xeyli keçsə də, şənlik sədaları Qobulu kəndini ağuşunda əzizləyirdi. Bir dəstə gənc gecəni gündüzə qatan, səsindən həzz aldığımız Şırşırın dişləri göynədən buz kimi suyundan sərinlənir, qayalardan yayılan həzin mehdən həvəslənir, oxuyurdu.

Hörüklərin dal gərdəndə oynaşır.
Səni görən həvəslənir, hey coşur,
Camalına səcdə qılır, söz qoşur.
Qara qaşlım, qara gözlüm, hardasan?

* * *

Dağ havası, bağ heyvası talandı,
Gözəllərdə nazı-qəmzə olandı.
Nə dedim ki, yanaqların allandı,
Qara qaşlım, qara gözlüm, hardasan?

* * *

Qaşlarını həkk etməyə tişəm yox.
Hələ gəncəm, sənətim yox, peşəm yox,
Əkiləcək bağ-bağatım, meşəm çox.
Uzaq durma, mənə sarı yeri, gəl,
Sonsuz yolu birgə gedək, hardasan?

Aydınlıqdan, havanın sərinliyindən həvəslənib qoyun-davarı yaylıma yellədən Qəhrəman ulduzların bərq vurmasından gözlərini ayırmır, yan-yörəyə boylanır, yalmana-yalmana ora-bura tullanan Pələşin qulaqlarından tutur, başını sığallayır, gələcək planları haqda kiminləsə bölüşmək üçün həmsöhbətini axtarır, öz-özünü sual-cavab edirdi. «Görəsən, Tərlanı Bakıya oxumağa göndərəndə, mənimlə eyni vaqonda getməsinə razılıq veriləcəkmi? Əsəd kişinin məndən xoşu gəlirmi? Kaş Tərlanla əhdimizə pəl vuran olmasın, yoxsa vəziyyətdən necə çıxa bilərəm? Təki Tərlan məni xar etməsin, qalanlarıyla keçinmək olar. Nənəm demişkən: «Ay mənimlə

olsun, ulduzun gözünə barmağım». İkimiz də qəbul imtahanlarından üzüağ çıxsaydıq! Görəcəklər, analar necə oğullar doğur. And olsun…» İstədi çayı keçməmiş «bərəkalla» desin, utandı. Birdən Pələş nəyisə duyub qulaqlarını şəklədi, yerə sığındı, «mırr!» eləyib irəliyə cumdu. Heyvanlar hürküşüb pərən-pərən düşdü.

- Al gəldi, haa! Ay gözünə dönüm, tut, tut! – Quzulardan biri bəyirəndə, Qəhrəman işin nə yerdə olduğunu anladı. Ora-bura qaçışan heyvanları güc-bəlayla topladı, istədi geri qayıtsın. Anladı ki, pusquda dayanmış yırtıcıyla boğuşan Pələş sahibinin haylamasına məhəl qoymur, tutduğunu buraxmaq istəmir, Qəhrəmanın səsindən ürəklənir, canidildən əlləşir. Nəhayət, zingildəyə-zingildəyə geri qayıdan Pələş çağırılmamış «qonağın» dalınca boylanır, gah da ləhləyə-ləhləyə sahibinin «əmrini» gözləyirdi.

- Gedək, Pələş, lənət mərdimazara, bu gün bizimki gətirmədi, - peşmançılıqla evə qayıtdı.

Günün qızmarında naxırı bulaq başında qanadlarını nəhəng qartal kimi gərmiş qoca çinarın kölgəsindəki mağala gətirən Bəhlil kişinin çəhlimdə tapdığı yaralı quzunu eşşəyinin üstünə atdığı xurcunda gətirdiyini eşidəndə, Qəhrəman yamanca pərt oldu. İndi başa düşdü ki, Pələş niyə hey zingildəyir, geriyə dartınır, narazılıqla hürürmüş. Demə, «gileylənirmiş». «Hanı iradən, ay dil pəhləvanı?!»

- Hörmətli sərnişinlər, xahiş olunur, yerlərinizdə əyləşin! Bələdçilər, yolasalanları vaqonlardan kənarlaşdırın! Sərnişinlər, əşyalarınızı və sənədlərinizi bir daha yoxlamağı unutmayın! Bakıya yola düşən sərnişin qatarının tərpənməsinə üç dəqiqə qalır.

- Qəhrəman, imtahanları qurtaran kimi bizi xəbərdar elə! Çalış, üzüağ qayıdasan, gözləyəcəyik, haa! – Dostu Xəlil sükanından bərk-bərk yapışdığı mitəfin «Pobeda»nın siqnalını uzun-uzadı səsləndirib dəmir yolla yanaşı uzanan asvalta hücum çəkdi, guya qatarı ötəcəkdi. Qəhrəmandan eşitdiyi şeirdən bir bəndi təkrarlaya-təkrarlaya düzəldi kəndə sarı.

Yollar uzun, məkan yaxın olaydı,
Səmadakı bulud salxım olaydı.
İnanma ki, dostla qorxum olaydı,
Yaxşı dosta canım qurban edərəm.

Torba-dağacığını yerbəyerdən sonra Qəhrəman yol yoldaşlarıyla salamlaşıb oturmuşdu ki, yekəpərin biri əlini onun çiyninə dirəyib boğuq səslə dilləndi:

- A gədə, ayaqlarını altına yığ, yolu kəsmə!

- Buyurun, buyurun, əmi, - süksünündən kifirlik yağan qaraqabağın üzünə baxdı. «Beləsinin tuşuna gəlməyəsən!» - fikirləşdi. Nəfəsini dərib yataq dəsti üçün bələdçinin dalınca yollandı.

Relslərdən qopan «taq-taraq» qulaqlarında səslənsə də, vaqonun bürkülü havasından zəhləsi getsə də, yuxu öz işini görmüşdü. Qəhrəman beşikdəki kimi yüyrənir, yırğalanır, mışıldayırdı.

Artıq səhərə yaxıın Qəhrəman tarçığını almışdı: səhərin alaqaranlığından vaqon boyu o yan bu yana taptarapla qaçışan, çantalarını, yumurta, yaxud da meyvə-tərəvəz dolu cəvərənlərini sürütləyən sərnişinlərin səs-küyündən diksinib ayılmışdı. Gözlərini ovuşdura-ovuşdura üz dəsmalını çiyninə tullayıb gedib-gələnlərə ilişə-ilişə yollandı yuyunmağa. Növbə uzun olsa da, bir təhər sivişib özünü saldı qapısının dəstəyi sınıq tualetə. Ovuclarını suyla doldurub üzünə çırpandan sonra, sərxoş kimi «səkkiz yaza-yaza» yaxınlaşdı zənbillərinə. Tələm-tələsik qurulandı, gözünün üstünə sallanmış saçını o yan-bu yana sığalladı, zənbillərindən yapışıb çıxış qapısına doğru sürütləməyə başladı. Qapını açmaq istəyəndə, pırtlaşıq saçları sifətindən üzüaşağı sallanan axşamkı gombulun xırıldayan səsini başının üstündə hiss etdi.

- A gədə, başqasının işinə burnunu soxma, əzərlər, əlini dinc qoysana!

- Əmi, bir az mədəni davranmaq olmazmı?

- Bu yana çəkil görüm, ə, əmi evinizdə qaldı, mədəniyyətini geri qayıdanda görəcəklər, müəllimliyini sonraya saxla, özüm bilərəm, necə davranmaq lazımdı! Şəhərə təzəcə girirsən, çıxanda görəydim səni. Çüşkənin biri! Beş gün keçməmiş elə «stilyaqa» olacaqsan ki, gəl görəsən.

- Yəqin özünüzdən xəbəriniz yoxdu, ay əmi, oğul-uşağınız da sizdən ibrət götürür. Heyif, yanımda güzgü olsaydı, verərdim, baxardınız cürəpənizə, - dedi və perrondakıların arasında gözdən itdi…

Qəhrəman bilirdi ki, atası Tərlanı bir neçə gün əvvəl Bakıya aparıb. Şəhərdəki əmisi gildə qalacaq, Əhmədlidə. Tərslikdən ünvanını da soruşmamışdı. Şey-şüylərini vağzaldakı «Saxlama kamerasında» yerləşdirdi, üz tutdu imtahan müddətində kirayə üçün mənzil axtarmağa. Xeyli soraqlaşandan sonra Azərbaycan Pedaqoji Dillər İnstitutuna yaxın həyətlərdən birində, qocalıb əldən düşmüş, dişlərinin əksəriyyəti töküldüyündən fışfışla danışan, çəlimsiz, tənha yaşayan erməni qarısının mənzilində sığınmağa razılıq aldı. Birotaqlı mənzilin kiçik mətbəxində (divardan sallanan dülgər əşyalarından bura kiçicik emalatxanaya bənzəyirdi) qoyulmuş, ayaqları əldəyməmişdən yırğalanan köhnə çarpayının üstünə az qala Nuh əyyamından qalmış, görkəmindən cin hürkən, rəngi adamın ətini ürpəşdirən yorğan, hansısa yataqxananın tullantısı olan pambıq döşək, üzlüyünü pasax basmış balınc qoyulmuşdu. Cığıltılı səslə danışan qarı gözlərini Qəhrəmanın üzünə zilləyib mızıldandı.

- Qalmaq iştaşan, pulunu barıbaşdan veracaxşan. Bış-duşunu özin edacaxşan. – Qıraqları sınıq-salxaq vannanı göstərdi. – Şmotkalarını man yuşam, dopolnitelno pul vermalışan. Qazdan, tokdan az işlat, ela şyotçiklara toxunma, ha, montyorı ştraf trebuyut, eşço kakoy, aj ştraşno qavarıt. – Qəhrəmanın ora-bura boylandığını görüb çox ciddi halda dedi: - Ela dokumentdan-zaddan, paşportunu mana vermalışan, dlya vremennoy propişki, aybaşına kimi. Haa, neçadı, doşuna duşuur? «Dar gündə dovşan dərisi də çarığa yarayar», - Xatın nənəsinin dediyi sözlər Qəhrəmanın yadına düşdü.

Qaş qaralırdı. Aclıq, yorğunluq onu əldən salmışdı. Naəlac qalıb qarının «müqaviləsinə» razılıq verdi. Ürəyində kiminsə əvəzinə özünü dansıdı, gileyləndi. «Atam sağ olsaydı, yəqin, məni şəhərə tək buraxmazdı. Dözməlisən, yetim». Axırıncı sözü eşidəndə, həmişə içi didiklənirdi. Özünün qoşub düzəltdiyi, şeir qaydalarından bir qədər uzaq olan yazısı yadına düşdü.

Nədən səni fələk belə yaratdı?
Dost-tanışlar çağırırlar: «Ay yetim!»
Kimlər çəkdi yaxın selə, tor atdı,
Batırdılar, hay saldılar: «Vay yetim!»

Əlinə keçən şor-şoqqaldan evdən qoyulmuş lavaşın arasına basdı, dürməklədi, alayarımçıq qaynatdığı çaydan qulpuqırıq fincana süzdü, bağlamasındakı qənd parçasından üç-dördünü atdı, bir dişi sınıq çəngəllə qarışdırdı və görməmiş kimi ağzını marçıldada-marçıldada əl qatdı yeməyə. İştəhasını öldürdü, paltarını soyunmadan sərildi yuxusunda belə görmədiyi «çarpayının» üstünə. Təzəcə mışıldayırdı ki, özünü həmişə kölgəsində xorxorla yatdığı qoca iydə ağacının altında gördü. Sir-sifətini didişdirən xırda sarı qarışqaları şapşarapla vurub yerə tökürdü ki, Tərlanın səs-küyünü eşitdi.

- «Qəhrəman, ay Qəhrəman, dur ayağa, yer tapmadın ki, qarışqa yuvasının üstünə sərilmisən? Bax, gör üzünü nə hala salıblar? Dur, dur gedək bizə, kimyadan biletlərin suallarına hazırlaşaq, yoxsa Rəfail müəllim bizdən küsər ey!» - Özü də istəmədən üz-gözünü qaşıya-qaşıya şirincə yuxunun cəngindən canını güclə qurtarmağa çalışan Qəhrəman divardan sallanan işıq açarını burdu ki, qolundakı saatına baxsın. İşıqdan hürküb gizlənməyə çalışan bozqara cücüləri görəndə, yerindən sıçradı. Özü də istəmədən var-gücüylə bağırdı:

- Vay dədəm, vay! Bu nədi tökülüb üstümə! Hayqanuş xala, bunlar nədi belə?

- Ara, nə olacax, taxtabıtıdı, daa! Vaa! Gormurşan? Şahar evlarının hanşında olmur ki? Ay aştuvatş, ara ela bağırdın ki, lap qobağım duşacaxdı, bela da olar? Nemnoqo tişe nelzya li? Ara şizin evlarında olmur, taxta bitıdı, daa! Klopı, nu çto iz etoqo? Podumayeş!

- Hayqanuş xala, biz belə şeylər görməmişik. Bunlar səhərə kimi məni didərlər ki! Heç dərman-zad yoxdu bunlara qarşı?

- Ara, a muşalman, gecanın bu çağında na darman tapım şana? İntereşnıy veş qovoriş, ee, toje mne! Vay aştuvatş, turkere li. Naşolşa mne qore na qolovu! – sözlərinin bir neçəsini başa düşməsə də, Hayqanuşun donquldanmasına məhəl qoymadan qaşına-qaşına özünü verdi asvaltın kənarındakı işıq dirəyinin yanına.

- Ara, poşluşay, militşiya uvidit, zaberyot tebya beşşledno, ponimayeş? Zaxodi domoy. Vaa! Şon dığa, li!

- Mən kimə mane oluram ki, tutsunlar, Hayqanuş xala?

- Yeşli uvidyat, şpraşivat ne ştanut, pover mne!

- Yox, yox, bu lənətə gəlmişlər məni dəli edərlər, səhəri burda keçirərəm, sonrasına baxarıq.

- Ara, a muşluman, ela şabax duşar, darman alarıx, otağı dezinfekşiya edərıx, yaxşı olar li. Dali muşlimanşan ki, varşan, - səsinin ahəngini bir az alçaldan Hayqanuş deyinə-deyinə qapını örtdü. Qəhrəman kolluqdan tapdığı daş parçasının üstündə çöməlib gözlərini döyməyə başladı. Xeyli gözləyəndən sonra hiss etdi ki, dizlərini bərk qucaqladığından ayaqları keyləşib. Qalxıb əl-qolunu, ayaqlarını silkələdi ki, gözlərini qıcıqlandıran səhər yuxusundan canını qurtarsın. Elə bu vaxt bir qədər aralıdan ona göz qoyan, əyninə milis paltarı geymiş, əllərində rezin dəyənək yellədən, qollarına qırmızı parçadan zolaq bağlamış iki nəfərin yaxınlaşdığını gördü. Yadına düşdü: yəqin, Hayqanuşun dediyi milislərdi. İstədi qaçıb evə girsin, amma gec idi: milislər onu haqlamışdı.

- Ey, dayan, yoxsa işin pis olar! – milislər bağırdılar. Qollarını arxaya burub qaranlığa tərəf sürütlədilər. Qəhrəman gücü gəldikcə «Hayqanuş xala!» - deyə çığırdı. Gecə köynəyində qapıdan boylanan Hayqanuş mırtlaya-mırtlaya, acıqlı səslə dilləndi:

- Ya je tebya preduprejdala, şon dığa, po ulitşe patruli xodyat! Ey, Rapiqdjan, otpuştite yeqo, on moy kvartirant, klopov boitşya, vişel na vozdux. Rayonşkiy, ne znayet qorodşkix poryadkov. Otpuştite, pojoaluşta!

- Ee, axçı, susura li, vaa! Toje mne!

- Hayqanuş xala, gedib yerində yata bilmirsən? Gözlü çıxmısan, qoymursan işimizi görək! Axşamdan bəri fırlanırıq, əlimizə keçənə də sən şərik çıxırsan! Madam belə oldu, qoy əlini cibinə salsın, boş getməyək. Yamanca çaysızlamışıq!

- Ara, Qaxramanşan, naşan, day im «tryoşku!» Ne to tebe je ploxo budet!

- «Tryoşka» nədi, Hayqanuş xala?

- Əə, bura bax, xalan da qələt eləyir, sən də! Çox çərənləmə, yoxsa! - əlindəkini az qala Qəhrəmanın təpəsinə endirmək istəyən yekəqarın hirsləndi.

- Uç, uç manat ver, qoy getşinlar ozlarına, li. Tarşlık elama, haa, pojaleyeş! – İşin nəylə qurtaracağından ehtiyatlanan Qəhrəman köksünü ötürdü, sıvıldı. Cib dəftərçəsinin arasından bir əzinik üçlük götürüb uzatdı marıqda dayanmış pişik kimi gözləyən milis serjantına. Bir yerə baxdı, bir göyə, könülsüz-könülsüz üz tutdu Hayqanuşun rəva bildiyi yatağına. «Köpək qızının bir dərisi qalıb, bir sümüyü. Elə bil xortlayıb cəhənnəmdən qaçıb. Barı cavanına rast gələydim». Deyinə-deyinə büzüşdü.

- A muşulman, şahara qalıp, ey, lampanı yanıqlı qoy, lojiş poştel. – dilinin altında nəsə donquldandı…

Bütün şəhəri ağuşuna alan günəşin şəfəqləri axşamkı zülməti harasa qovalamışdı. Dünənkinə oxşamırdı Hayqanuşun görkəmi. Səhər günəşinin qırmızımtıl şüaları Qəhrəmanın gözlərində şölələnsə də, yuxudan ayılmaq istəmirdi. Xeyli qurcalandıqdan sonra qalxdı. O ki var gərnəşdi, quluncunu şıqqıldatdı, qaşınan yerlərini sürtə-sürtə çıxdı küçəyə: cürbəcür maşınlar aşağı-yuxarı şütüyür, nəriltiləri adamları səksədə saxlayırdı.

- Ara, bax aşağıdakı mağazaya gedarşan, manım adıma verarşan, bax bu pulu alşın, qoca kişi var li, deyarşan: «protiv klopov». Darmanı al, gatır mana, lava? Şan qayıdarşan, çay hazır olar haa. Zavtrak ela. O maşcıt var, haa, yanında parkdı. Get, uçebnikları oxuyarşan. Man nemnoqo yar-yaxaş edaram ki, axşam şan rahat qalaşan, haşkanımeş?

Hayqanuşun «yar-yaxaş» yox, «yır-yığış» deməli olduğunu üzünə tutmadı, utandı. Kiçik alış-verişdən qayıdan kimi anasının qoyduğu kərə yağ, şor-pendir, mürəbbə bankalarını zənbildən götürüb Hayqanuşa verdi ki, soyuducuda yerləşdirsin. Kənd sovqatını görəndə, qarının üzü gülürdü, altdan-altdan marıdırdı.

- Buyurun, siz də dürməkləyin kənd pendirindən.

- A matdağım, tak priyatno paxnet, çto vryad li uderjuş, pax-pax! – İri krujkaya tökdüyü qaynar çaya şəkər tozu töküb qarışdıran Hayqanuşun əlindəki dürməyi isladıb damağıyla kəvələməsi Qəhrəmanın gözündən yayınmadı.

* * *

Yavaş-yavaş erməni qarısının mənzilində kirayənişinliyə öyrəşdi. Bir neçə gündən sonra əvvəlki cındır yorğan-döşək nisbətən babatlarıyla əvəzləndi. Adamı dalayan cücülər yoxa çıxırdı. Yemək-içməyi Hayqanuş özü hazırlayırdı, pulunu ödətdirsə də. Arabir gələn kiçik kənd sovqatlarını görəndə, Hayqanuşun üzü gülür, hərdən xəlvətcə dediyi «şon dığa» söz birləşməsini «şınok», «matdağımla» əvəzləyirdi.

İlk imtahandan «əla almışam!» xəbərini eşidəndə, Hayqanuş da «sevincini» gizlədə bilməyib qımışdı.

- Vaa, molodetş, bax haa, ela şan manım da hoşuna galdın, li! Qoçax oğlana oxşadın, haa! – Danışığındakı əyri-üyrü sözlərə öyrəşirdi Hayqanuşun. «Qanana bir sim də bəs edər», - düşünürdü rayonlu balası. Azərbaycanca səlis danışmasını qarıya başa salmaq istəmirdi. «Qocalıb, əldən düşüb, innən belə ona nəyisə başa salmaq çox çətin olar. Bir ayağı burda, o biri – gordadı. Hayı gedib, vayı qalıb. Bu gün-sabah üstünü torpaqlayacaqlar, nəyə gərək. Beləsi bəlkə heç öz dilində də yönlü danışa bilmir. Amma mən çalışacağam ki, onların da dilini öyrənim. Yadımdadı, Əhməd müəllim deyərdi: «Neçə dil bilsən, o qədər də adam sayılarsan».

Qəbul imtahanlarından yaxşı çıxdı Qəhrəman. «Bildirişi» alıb Hayqanuşun yanına gələndə, qanadı olsaydı, uçardı lap buludların yanına. Yaxınlıqdakı mağazadan bir dəstə gül almışdı ki, sevincini Hayqanuşa çatdırsın.

- Ha matdağım, ela man şana pozdravit edaram, li! Lava, qalşın manım boynunda.

- Eybi yox, Hayqanuş xala, səndən qabaq məni təbrik edən oldu, lap öpüşdük də, özü də ürəkdən!

- Hopdu! Haa? Kim oldu o adam, şon dığa li?

- Onu deməzlər, sirdi, Hayqanuş xala. Getdim ee! – Əl atdı kitablarla dolu cüt qulplu qara zənbilə.

- Ara, bunu otmeçat nado li, ponimayeş? Hara qaçarşan, talaşma, vaa!

- Ora, ora, vağzala, ordan da anamın yanına, kəndə! Qayıdanda hesablaşarıq, yaxşımı? – Hayqanuşun rəngi tutuldu, bilmədi nə desin. Bu vəziyyəti Qəhrəman da gördü. – Bax bu pulları da götürün, sizə çatmalıdı. Sonrası Allah Kərimdi. – Belə deməsəydi, Hayqanuş az qala yıxılacaqdı: «Köpək oğlu pul verməmiş qaçır, haa?» Qırmızı onluqları alıb cibindən çıxartdığı qara dəri pul kisəsinə yerləşdirən kimi, başladı yalmanmağa.

- Ela man şani oğlum kimi baxaram, ey, matdağım. Qayıdanda noxuddan, abrikoşdan, arexdan da gatirarşan, haa? Privet peredaş mame, lava?

- Lava, lava, Hayqanuş xala, arxayın ol…

«Bildirişi» alana kimi Qəhrəmanla Tərlan cəmi üç dəfə görüşmüşdülər: «Ərənlər üç deyib». Şərtləri beləydi. Qatara bilet alıb Səməd Vurğun bağındakı oturacaqlardan birində özünə yer seçdi. Üzünü dənizdən gələn xəzriyə tutub gözlərini yumdu, xəyallara qanad çaldı. «İndi rahat nəfəs almaq olar». Təzəcə xumarlanırdı ki, çiynindən iki əl onun gözlərini tutdu, pıçıltıyla dilləndi, lap qulaqlarının dibində.

- Kim olduğumu deməsən, ömürlük küsərəm.

- Bu əllərin yumşaqlığını, hərarətini tanımamaq olarmı, Tərlanım mənim! «Mən küssəm də, eybi yoxdu, küsmə məndən…» - ardını deməyə imkan verilmədi əl sahibindən.

- İki könül bir olsa, kimlər buna güc eylər? – Hər ikisi qəhqəhəylə qucaqlaşdı, sanki həndəvərdən keçənləri görmürdülər. «Bülbül oxur, gül gülür». Bir-birini sınayırmış kimi uzun-uzadı gözləşdilər.

- Yadındamı, buraxılış imtahanlarına həsr olunmuş gecədə Səyyarə müəllimə çıxışını hansı sözlərlə bitirdi? Öz kitabından götürmüşdü.

Sevənlərin məhəbbəti vardısa,
İki könül bir-birinə yardısa
Bu dünyanın var-dövləti yalandı.
Həyat bir yol, cığırları qalandı.

- Belələri olmasa, yaşamaq, doğrudan da, mənasız olardı. Bəlkə bu sözləri deyən adam özünü nəzərdə tuturmuş?

- Bəlkə bizlərə işarə vururmuş?! Həyatda yaxşı iz qoyanlar hökmən sevilməlidirlər.

- Elədirsə, nəyi gözləyirik? «Sevmək, qurub-yaratmaq!» Şüarımız belə olsun.

- Düz amala nə deyəsən? Getdik!

- Hara?

- Qatara.

- Nə vaxt?

- Elə bu saat.

- Heyif!

- Niyə?

- Mən kəndə üç-dörd gün sonra gedəcəyəm. Bəzi şeylər almalıyıq.

- Təəssüf! Elə istərdim ki, həmişə birlikdə olaq.

- Hər şey özümüzdən asılı deyil?

- Belə də olur, gərək dözəsən, əks halda… ayrı əlac qalmır ki.

- Hər çətinliyə əncam var, ölümdən başqa.

- Bəlkə də. – Könülsüz halda Qəhrəman Tərlanın əlini sıxdı, ümid dolu gözlərini süzüb aralandı.

- Eyy, cavan oğlan, - mehribanlıqla gözlərinin içinə zillədi baxışlarını, - nə dedim ki, xətrinə dəydi?

- Heç, elə belə, - üzünü gizlətmək istədi.

- Yox, yox, gözümə bir təhər görünürsən! Bir dayanıb gözlərimə dik bax! – sinəsini onun sinəsinə sıxdı. – Bax, belə. Yoxsa, - əllərini Qəhrəmanın çiyninə qoydu, gülümsündü. – İnam olmayan yerdə, hansı qələbədən söz gedə bilər?

- Bütün aləm mənim olar, sən yanımda olanda.

- Məni özündən uzaq görməyəcəksən, inan sözlərimə. Səninçün hər şeyə hazıram, lap… - təbəssüm hər ikisini oxşadı.

- Sözmü?

- Sözdən də üstün!

(Belə olanda, yaşamağa dəyməzmi, oxucu?!)

«Quuu! Quuq!» səsini ətrafa yayan qatar yavaş-yavaş fışıltısını artırır, şəhəri özündən kənarlaşdırır, yükünü bir aləmdən başqasına çatdırmaq üçün bütün gücünü göstərməkdən ötrü kəhildəyirdi. Qəhrəman yerini rahatlamaq istəyirdi ki, çiyninə kiminsə toxunduğunu hiss edib geriyə qanrıldı.

- Həə, necəsən, qəhrəman oğlan, işlərin nə yerdə qalıb?

- Mənim adımı da, özümü də Qəhrəman deyə çağırırlar, adımı hardan tanıyırsınız?

- Nədənsə oxşatdım.

- Sizə nə lazımdı, əmi? – Qarşısındakının üzünə diqqətlə baxanda, istədi qımışsın, alınmadı, duruxdu. «Ehee, bu köpək oğlu yenə qarşıma çıxdı ki! Zəhləm getmişin birisi», - öz-özünə deyindi.

- Tanımadın, cavan oğlan, şəhərə gələndə də mənim vaqonumda gəlmədin?

- Həə, tanıdım, tanıdım. – Könsülsüz dilləndi: «İlanın zəhləsi yarpızdan gedər, yarpız da onun yuvasının ağzında bitər, də» - fikirləşdi.

-Deyəsən, qəbula gəlmişdin, həə? Nooldu, baldan-zaddan toplaya bildin?

- Bal da topladım, hələ üstəlik, doşab da, – ürəkləndi.

- Yekə-yekə danışma, balası, tez əzilərsən. Cüpərənə inanmağım gəlmir, nədənsə. Məktəbinizdə boksla-zadla məşğul olmusanmı? – ehtiyatla yapışdı Qəhrəmanın dirsəyindən.

- Qızıl da balaca görünür, amma çox qiymətlidi, - öyündü, istəməsə də.

- Paatonnan, uşaqdakı danışığa baax! Ədə, elə sənin kimiləridi, dəə, şəhərə dolu gəlir, qayıdanda kıx tutmuş toyuq kimi pipiyi sallaq qayıdır. Çox görmüşəm, özündən sökmə görək. Sən dedin, mən də eləmədim tənbəllik, lap əməlli başlı inandım haa! – Həmsöhbətinin nəyə işarə etdiyini anlayan Qəhrəman əl atdı döş cibindəki pasportuna. Qəbul haqda «Bildirişi» tutdu pəzəvəngin üzünə.

- Baa, doğrudan, haa! Deyəsən pətəyən dolu imiş. – Höccələyə-höccələyə oxuyandan sonra çökdü yanındakı oturacağın üstünə. – Mənimkinə özü ağırlıqda pul tökdüm, yaxına qoymadılar, əclaf-

lar, - donduqlandı qaratoppuş bələdçi. – Adam da tapmışdım, las çıxdı, bəxtimdən.

- Yəqin, oxuyan deyilmiş «tifiliniz». – Axırıncı sözü lap istehzayla səsləndirdi Qəhrəman.

- Haqlısan, bacıoğlu, düz sözə nə deyəsən? Eşşək balası kimi anqırır, «kitab» sözünü eşidəndə, köpək oğlunun balası. Gecə-gündüz ləçərlərin dalınca sülənir, suçkalardan ayrılmır.

- Elədirsə, heç qulaqburması-zad da kömək eləmir? – söhbətə bir az da «duz qatmağa» çalışdı.

- Ho-ho! Əlimi qaldıran kimi, analı-balalı xoruzlanıb atılırlar üstümə, qalıram odlana-odlana. Tüstüm tərəmdən çıxır. Gücüm ona çatır ki, cibimdəkiləri tula payı kimi qabaqlarına qolazlayıb qapıdan çıxıram. Qalmaqalın ucbatından çox vaxt evdə gecələmirəm də. Ayda-ildə bir dəfə evdə yan-yana yatmaq istəyəndə, anası əfiyə dönüb fısıldayır, gözlərini bərəldib dişlərini elə şaqqıldadır ki, gəl görəsən. İndi beləsiylə dolan görüm, necə olur. Əlacım kəsilir, yorğanımı götürüb yollanıram kuxnaya.

Pəzəvəng elə gileylənirdi ki, az qala hönkürəcəkdi. Ətrafdakıların ona təəccüblə qulaq kəsildiyindən xəbəri yox idi. Başını sinəsinə sallayıb yerə baxır, dişlərini qıcayırdı.

- Qaçıb qurtara da bilmirəm: sistemdəki çərləmiş qardaşıyla hədələyir. Qalmışam canhacan.

«Qəzavü-qədərdən» gileylənən bələdçiyə diqqətlə baxan yaşlı kişi dözmədi.

- Ay oğul, eşitməmisən, «Ağası gülüm olanın, başına külüm olar». «Özü yıxılan ağlamaz». «Qonağına bax, atın ver, atına bax – otun».

- Bunu necə qanım, ağsaqqal, bəlkə bir az aydın danışasan?

- Gecdi, bala, çox uduzmusan. «Gəlini gərdəkdə, küçüyü örtükdə». Oğul atasına baxar, daa. Qırxında öyrənən, gorunda çalar. Oğlunun yeri, bilirsən, haradı?

Qocanın «dərsindən» bir təməsik anlamayan bələdçi toyda xarabçılıq edənə oxşayırdı. Yanındakıları ora-bura itələyib aradan çıxdı…

* * *

«Çaylar quruyar, dağlar uçar, zaman axarından qalmaz» deyənlər, əlbəttə, haqlıymış. Nə göy yerə çatar, nə yer – göyə. Hər kəsin öz yazısı var. Qəhrəmanla Tərlanın həyatı kimi: əhdlərinə xələl gətirmədilər. Ali təhsil alıb doğma obalarına qayıtdılar, ailə qurdular, gözaydınlığı qazandılar, övlad sahibi oldular. Həyatlarından hamı ağızdolusu danışır, bəh-bəh deyirdi.

Hərdən Qəhrəman radio-televiziyada eşitdiyi verilişlərə – tamaşalara biganə qala bilmirdi: maraqlısına uşaq kimi sevinir, qəmlisindən kədərlənirdi. Çox vaxt lap hönkür-hönkür ağladığını görməsinlər deyə köhnəcə taxtının üstünə uzanır, üzünü gizlədir, səsini salırdı içinə. Uşaq evlərindən, çarpayıya düçar olanlardan söhbət gedəndə, bəzən küçəyə çıxır, hirsini soyutmaq üçün bərkdən-bərkdən «Heç utanmırsınızmı, insanlar!» deyə bağırmaq istəyirdi. Elə bu zaman lap uşaqlıqdan ona ünvanlanan ifadə yadına düşürdü: «Ay yetim, dilini dinc qoy, yoxsa!».

… Təzəcə dil açırdı ki, onu «Ay yetim!» deyə çağırmağa başladılar. Əvvəllər mənasını anlamadığı bu xitaba öyrəşirdi yavaş-yavaş.

Beşinci sinfə gedirdi, bir dəfə anasından soruşdu:

- Niyə mənə «yetim» deyirlər? – Anası gözlənilməz sualdan özünü itirdi, bir anlığa susdu, utana-utana pıçıldadı:

- Yox, bala, sən yetim deyilsən, atan davaya gedib, könüllü…

Kənddəki yeddiillik məktəbi bitirdi, qonşu kənddə orta məktəbi başa vurdu, əsgərlikdən qayıtdı, institutda müəllimliyi öyrəndi, məktəbdə işləyirdi. Az-çox hörməti onu başqalarından fərqləndirirdi, amma hələ də ona «yetim» deyirdilər. Nələr gəlməyib onun başına bu məktəb həyatında.

1973-cü ildə müəllifləri professor M.T.Tağıyevlə erməni Dəlləkyan (Respublika Maarif Nazirliyində müfəttiş işləyirdi) olan «Rus dili» kitabında (X sinif) ikincinin «yazdığı» «Tabesiz mürəkkəb cümlə bölməsindəki kobud səhvləri aşkar etdiyinə görə az qala şəxsi işinə yazılmaq şərtilə şiddətli töhmət alacaqdı… Yaxşı ki, birinci müəllif köməyinə gəldi.

Beşinci sinifdə ixtisasından dərs deyirdi. Mövzunun adı «Mənim ailəm» idi. Konkret suallara cavab verilməliydi.

Talehə adlı qız hamıdan qabaq cavab vermək istədi.

- Adım Talehə, familiyam Fərzəndiyevə, atamın adı…

Qız kəkələdi, özünü itirdi, gözlənilmədən hönkürdü.

Uşaqlar çaş-baş qaldılar, bir-birinə baxdılar. Vəziyyətdən çıxmaq üçün dərsin mövzusunu başqa səmtə yönəltməyə çalışsa da, alınmadı: Talehəni sakitləşdirə bilmədi. Zəngdən qabaq sinfi tərk etdi. Növbəti gün bu vəziyyət yenə təkrar oldu: Talehəni sakitləşdirə bilmədi. Nə edəcəyini bilmirdi. Kimsə köməyinə gəlmədi. Fasilələrdə də uşaqlardan, onların suallarından yayınırdı, amma baş tutmurdu.

- Müəllim, Talehə niyə ağlayır, ona kim nə deyib?

- Mən ona dörd əvəzinə üç yazmışam deyə məni görəndə ağlayır. (Yalan danışdığını bilsələr də, üzünə vurmadılar). Üçüncü dəfə sinfə girən kimi Talehəni səslədi.

- Sənin adın Talehə, familiyan Fərzəndiyeva, ananın adı Süsənbər, atanın adı Fazildir. Bunu yaxşıca yadında saxla, ömürlük!

Hamı birdən susdu, heç nə soruşmadı.

Talehənin valideynləri ayrılmış, təzədən başqa ailə qurmuşdular. O isə dayısının evində kiçik qardaşı ilə nənəsinə sıxılır, ögeyliklə böyüyürdü. Səkkizinci sinfi bitirdikdən iki il sonra ərə getdi. Bir neçə ildən sonra iki uşaqla başqa ər evinə köçdü (Anası üç dəfə boşanıb ərə getmişdi). Belə taleli insanlara oxşamasınlar deyə hərdən yuxarı sinif şagirdlərinə «söz – götürənin, yer – oturanın, çörək – yeməyi bacaranındır» atalar məsləhətini anlatmağı sanırdı.

İmtahanlar qurtarmışdı. Bir gün məktəb həmkarlar komitəsinin sədri onun da turist kimi Brestə ekskursiyaya gedəcəyini bildirdi. Hay-küylü məktəb həyatından azacıq aralanıb tanımadığı yerlərə səyahətinə sevinirdi…

* * *

- Cavan oğlan, ay cavan oğlan, məni də götürün, deyəsən Brestə doğru gedirsiniz.

Ağsaqqal, əlində çəlik, qarayanız bir kişi avtobusa tərəf gələn sürücüyə yaxınlaşdı.

- Əmican, inciməyin, ixtiyarım yoxdur, maşın ekskursiyaçılar üçündür.

- Oğul, şəhərə yaxınlaşanda, düşərəm, bayaqdan gözləyirəm. Bu zəhrimar hava o qədər istidir ki, lap əldən düşmüşəm. Avtobus da elə bil qeybə çəkilib, gəlmir ki gəlmir.

- Dedim ki, olmaz.

- Ay oğul, yüküm-zadım da yoxdur, tək bir nəfəri bu çöllükdə qoymayacaqsan ki!

- Yox, əmican, inciməyin, yol vərəqəmdə cəmi on səkkiz sərnişin yazılıb. Səni çox istəyirəm, özümü səndən də artıq, - dedi və qımışdı.

- Sənə nə deyim, sarıbaş köpək oğlu, insafın yol verirsə, get!

Qoca uzaqlaşanda, Qəhrəman dilləndi:

- Saşacan, heç nə olmaz. Bəzən cəsarət də lazımdır. Qocanı incitmə, onunçün yer düzəldərik, qoy gəlib əyləşsin.

Saşa arxada əyləşənlərin də üzündə razılıq hiss etdi.

- Yaxşı, siz deyən olsun, ancaq...

- Narahat olma, bir təhər ötüşərik. – Sürücü qocanın dalınca qaçdı.

- Əmican, mən nainsaf deyiləm, qanun yol vermir, nə edə bilərəm? – Sürücü üzürxahlıq edib qocanın qolundan yapışdı.

- Qanun, qanun! Elə həmin qanun özü deyir ki, adamlara hörmət et. Yəqin, bilirsiniz:

«Gəncliyə hər zaman açıqdır yollar,
Hər yanda qocaya bizdə hörmət var...»

Qoca təbəssüm dolu gözlərini qıyaraq tanış mahnının bir bəndini zümzümə etdi. Bu hamını maraqlandırdı.

- Əgər mənə görə sizi cəzalandırsalar, bu da qanunauyğundur, - deyəndə hamı gülüşdü. Qoca bir az fikirləşirmiş kimi susdu və yenidən sözə başladı.

- Bəlkə milis bizi heç görmədi. Hər halda elə edərik ki, nə şiş yansın, nə kabab. – Bu sözləri astadan dedi, sərnişinlərə baxdı və göz vurdu.

Maşın yolun üstünə şığırmış kimi çöllərə nərə çəkdi.

- Xeyir ola, ay uşaqlar, hara belə üz tutmusunuz?

- Ekskursiyaya gedirik. Brestə. – Brest sözünü eşitcək, qoca səksəndi. Azacıq sükutdan sonra yenə sözə başladı.

- Hm... Brest, Brest, çox baha başa gələn şəhər! Nə qədər qurbanlar... – Qoca harasa çox uzaqlara baxır, arabir qara gözlərini qıyır, sanki nəyisə dumanlı havada seçməyə çalışırdı. Ortaya çökmüş sükut «mənəm-mənəm» deyirdi.

- Əmi, deyəsən siz Brestdənsiniz, indi necə, şəhəri düzəldiblərmi. Deyilənə görə, faşistlər orada daşı-daş üstə qoymayıblar?

- Eh, oğul, Bresti güllənin dolu kimi töküldüyü vaxt görən adam indi gözlərinə çətinliklə inana bilər. İndi, indi «tamam başqa həyat, başqa büsat mən görürəm».

Yolçu gülümsündü. Hərdənbir mənalı söz işlətməsi, azərbaycansayağı zümzüməsi hamını maraqlandırırdı. Qəhrəman düşündü: «Bizim azərbaycanlı olduğumuzu qoca anlayıb, ona görə də qəsdən belə zümzümə edir, bizdə özünə qarşı maraq oyadır». Onun sözlərindən xoşhal olur, maşının küknar meşəsindən ilan kimi şütüyüb ucsuz-bucaqsız yaşıl düzənliyə necə çıxdığını belə hiss etmirdi.

...Qocaların söhbətindən lap uşaqlıqdan doymurdu Qəhrəman. Gecədən xeyli keçməsinə baxmayaraq anası cəhrə əyirər, hisi az qala ərşə dirənən qara çırağın zəif işartısında nağıl danışar, oğlunu özünə həmsöhbət edərdi. Anasının incə səsindən xumarlanıb şirin yuxuya qaçar, mışıl-mışıl səslənərdi. Yumağın, yaxud dükçənin qəflətən ayağına toxunmasından diksinər, oyanar, əsnəyər, gözlərini ovuşdurardı. Anası onun qara, qıvrım saçlarını oxşar, başını dizinin üstə qoyar, keçmişdən danışar, ya da uzun-uzadı bayatı deyərdi.

Xumar gözün qarası,
Yatma, ceyran balası.
Ananı təkcə qoyma,
Anan qadan alası.

Gecələr uzun olar,
Xəzanı həzin olar,
Şirin yuxu yatanda,
Ləzzəti dərin olar.

Ay doğar aydın olar,
Şirin su çaydan olar,
Gülüş səsin gələndə
Bilirəm toydan olar.

Xumar-xumar yatasan,
Qaşlarını çatasan,
Uzun ömür sürəsən,
Hər arzuna çatasan.
Gül-çiçəklər içində
Dərin yuxu tapasan.

Ay oğul, gülşən oğul,
Hər günü elşən oğul,
Anan səni böyütsün,
Sən böyü, Elcan oğul,
Nağılım şirin noğul…

İndi avtobusun Qəhrəmanı o yan - bu yana atıb-tutması, yoxuşu çıxanda yaralı pəhləvan kimi «inildəməsi» ona uşaqlıq illərini xatırladırdı. Maşının səsboğanından, ətrafa yayılan qara tüstü burnunu qıcıqlandıranda, yadına tarix müəllimi Osman Mirzəyevin bir vaxtlar qeyzlə danışdığı bir əhvalat düşdü:

1941-1945-ci illərdəki Böyük Vətən müharibəsində hər yüz sovet tankının yetmiş beşinin işlətdiyi yanacağı Azərbaycan neftçiləri istehsal edirdilər. Təyyarələrin işlətdiyi benzinin səksən faizini Azərbaycanımız ödəyirdi. Qız-gəlinlərin toxuduğu yun əlcək, corabın az qala yarısını bizimkilər göndərirdi. Tank və toplardan atılan dəhşətli mərmilərin əksəriyyəti bizim zavodlarda düzəldilirdi. Hə-

lə məşhur «katyuşaları» demirəm. Bakıdakı orta məktəblərin, tibb ocaqlarının ən çoxu hərbi qospitalların ixtiyarına verilmişdi. Elə buna görə Hitler var qüvvəsilə Bakını ələ keçirməyə çalışırdı. «Hər şey Vətən üçün, qələbə naminə!» şüarını bayraq etmiş, gecəsini gündüzünə çevirmişdi xalqımız, min bir əzaba qatılırdı. Belə vaxtlarda nankor qonşularımız bəs nə edirdilər?! Bunu bəlkə heç Allah da bilmirmiş! Qəhrəman şəhərlər arasında Bakımızın adı çəkilmir, bu vicandansızlıq deyilmi?! ..

* * *

- Yox, ay oğul, indiki Brest bir aləmdir, gedərsiniz, görərsiniz!

- Əmi, görünür, Bresti tanıyırsınız, dava vaxtı siz də orada vuruşmusunuzmu? – Qoca susdu. Maşın dayandı.

- Ay uşaqlar, gəlsəniz, bir balaca dincələk, orada, bax o palıdın altında. Bu kiçik gölün ayrı ləzzəti var. Çox səfalı yerdi, deyilmi? «Yaşıl meşə, isti günəş, soyuq su!» «Eh, varam kənd həyatına!».

Sürücü maşından yerə tullandı:

- Bax belə şeydən heç kəs qaçmaz, - deyə qoca da gülümsündü, gözünü qıydı və bizdən qabaq düşdü, başladı soyunmağa.

- Hə, necədi, suyu sərindirmi? – kimsə soruşdu.

- Gözəl sudu, tez soyunun. – Sürücü uşaq şıltaqlığıyla suya tullandı. Qəhrəman da soyundu, fikri isə on doqquzuncu sərnişində idi.

Qoca astaca soyunur, ehtiyatla tərpənirdi. Köynəyini çıxaranda, sol qolunda azərbaycanca yazılmış bu sözlər onu lap çaşdırmışdı: «Unutmaram Ana yurdu, qopsa tufan, əssə külək, kəssə çovğun!» Bir qədər aşağıda, biləyində «Həbibov N.G.» «Bəlkə bu… ola bilməz, axı biz onun «qara kağızını (xəbərini)» almışdıq. Bu nə möcüzədir, İlahi! Yox, məni qara basır… Eh, məgər eyni familiyadan iki adam ola bilməz? Yaxşı, elə isə bəs «N.G.?». Bəlkə Nüsrət deyil, Nərimandır?» - Qəhrəman həyəcanlanır, nə edəcəyini bilmirdi. Ürəyi elə döyünürdü ki, az qala dəli kimi «Ata!» deyə bağıracaqdı. «Axı anam deyirdi ki, atamın da saçları qıvrım, gözləri qara idi. «Ax, kaş anam burada olaydı. Görəsən o, qocanı tanıyardımı?» - düşündü.

Qəflətən gözləri qaraldı, başı gicəlləndi, gizli qüvvə onu silkələdi, ətraf başına dolandı…

Gözünü açanda, yanında ağ xalat geymiş qız, qoca, eynəkli kişi həkimi gördü. Az keçmədi, yoldaşları da otağa doluşdular. Hamının üzündə həyəcan, hamı narahat idi. Başını qaldırıb yan-yörəyə boylananda, qocanı görmədi. Güclə danışırdı.

- Hanı… ha…, o hara getdi? Qoca…

Zəiflik yenə onu üstələdi. Həkimin «Əsəb gərginliyidir» sözlərini güclə eşitdi…

Xəstəxanada qoca haqda heç nə eşidə bilmədi. Ekskursiya vaxtı qurtarırdı. Brest qalasını gəzir, sovet adamlarının hitlerçilərlə necə vuruşduqlarını xəyalında canlandırırdı. Divarların birində «Unutmaram Ana yurdu, qopsa tufan, əssə külək, kəssə çovğun!» sözlərinin həkk olunduğunu gördükdə, on doqquzuncu sərnişin yenidən yadına düşdü. Bir az aralıda isə:

«Eşit, Ana Vətən, unutma məni,
Düşməni qoymaram tapdasın səni!
Həbibov N.G.
Kirilov J.V»

sözlərini oxuyanda, qocanı hökmən axtaracağına and içdi…

* * *

«Can» deyib «can» eşidilən ailədə gözlənilmədən ağlagəlməz söhbətlər başlandı. Lənətə gələydi bu ekskursiyanı ki, yağla bal kimi qaynayıb-qarışmış ailənin isti aşına soyuq su calandı, aləmi qatdı bir-birinə. «Əli vur, Vəli vur, Məmmədəli sən də vur» çaxnaşması yarandı. İndi gəl yağı baldan ayır görüm. Bir neçə günlük çəkmiş Brest ekskursiyasından qayıdan Qəhrəmanın gözünə yuxu gəlmirdi. Tanınmaz hala düşmüşdü, özünə rahatlıq tapa bilmirdi. «Necə olub ki, şad-şalayın yaşayan ailədə giley-güzar yaranıb? Atam anamdan niyə üz döndərib?» Çalışdı ki, anasını sorğu-sualdan Tərlan duyuq düşməsin, alınmadı.

- Sirrini dostuna aç ki, köməyi olsun, - gileyləndi Tərlan. «Örtülü bazar dostluğu pozar». Xəlvəti iş görmə ki, uduzarıq.

- Ay oğul, atana gözün üstə qaşın var da deməmişəm, Tanrı şahiddi. Yanında heç bir qəbahətim olmayıb. «Aydan arı, gündən duru olmuşam». Kimdən istəsən, soruşa bilərsən. Kiçicik söhbətdən sonra öy-öy quşu kimi yuvasını tərk eddi. Günah özündə oldu. Bir də, ay oğul, olan olub, innən belə nəyi dəyişə bilərik. Davadan neçə il ötüb. Atanın «qara kağızının» da harda itbata düşdüyü yadımda deyil. Nəyə lazımdı bu sorğu-suallar? Kim bu fikri beyninə salıbsa, lənətə gəlsin! Evimizə qanqaralığı salma, gül kimi ailə başçısısan. Başqaları kimi sən də başını sal aşağı, yaşa. Nə çoxdu qəzavü-qədərə düşənlər. Tök ətəyindən daşları yerə, qarış camaata, köhnə palan içi tökmə.

Ellada özü dediyini özü eşitdi. Tərlan qalmışdı əndişədə: bilmirdi nə desin, kimə desin. «Tanrı mənəm, yağmaram», - deyib durmuşdu Qəhrəman.

- Heç nə eşitmək istəmirəm, atamı tapmalıyam, vəssalam. – Dünyaya təzəcə göz açmış Elnarının da üzündən öpüb düşdü yola, «Bakı-Moskva-Minsk-Brest» marşrutuyla.

Getməmişdən «Bakı Baş Hərbi Arxivlər İdarəsindən» arayış da almışdı: «Həbibov Nüsrət Gəray oğlu 1941-ci ildə Qobulu sovetliyindən müharibəyə yollanıb… İlk döyüşə Brest şəhəri yaxınlığında başlayıb». Düşündü ki, Moskvada Müdafiə Nazirliyinə ərizəylə müraciət etsin. Sonradan fikrini dəyişdi: bu çox vaxt aparacaq. «Yarı özün gör, özüylə danış, ev yıxar ara sözü». Yay tətili qurtarır, ev-eşikdə hamı narahatdı. «Ürəyimə damıb ki, atamı elə birbaşa Brest Hərbi komissarlığında axtarım. Atam haqda ordan nəsə öyrənə bilərəm». Belə də oldu. «Sıravi əsgər Həbibov N.G. döyüşdə aldığı ağır yaradan kontuziya keçirmiş, çarəsiz bilinib, Qrodno şəhər səyyar hərbi hospitalının sərəncamına göndərilib. 1941».

Yollandı Qrodnoya. Burdan aldığı arayışda yazılmışdı: «…koma vəziyyətində Lida şəhər xəstəxanasına müalicəyə göndərilib…». Çox çək-çevirdən sonra inanılması şübhə doğuran «kələfin ucu» Qəhrəmanı yenidən Qrodnoya, sonra isə Dyatlov şəhərinə yolladı. «Öldü var, döndü yox», - deyib «Qardaş qəbirstanlığındakı» xatirə-siyahını da oxudu. Əlləri hər yerdən üzüldü…

* * *

Axşam çuxasını darta-darta ətrafı zülmətə salırdı. Naümid qalmış Qəhrəman veyil-veyil addımlayır, yad diyarda ötüb-keçənlərə məhəl qoymur, inadkarlığına görə gileylənirdi. «Sən də ol yanındakılardan biri, qarış camaata, köhnə palan içi tökmə», - anasının məzəmmətləri yadına düşdü. «Məni əcəl girələyir yoxsa!» Yan-yörəyə baxmadan yolu keçmək istəyirdi ki, maşının dəhşətli siqnalı təkərlərin şarıltısına qarışdı, güclü zərbədən huşunu itirdi.

Başına gələnlərdən şəhər xəstəxanasına şahid kimi gələnlərdən eşitdi. Əynində ağ xələt, başında qırmızı haşiyəli papağı olan orta yaşlı kişi əlindəki qovluğu dizinin üstündə rahatlayıb nəsə yazırdı. Dizindən aşağısı bərk-bərk sarınsa da, küt ağrı hiss olunurdu. Sarışın saçlı həkim qadın Qəhrəmanın üzünü sığallayır, dilə tutur, nəyisə öyrənməkdə qırmızıpapaqlıya yardım etməyə çalışırdı. Qollarından, sağ çanağından duyduğu ağrıdan huşunu itirməmək üçün dodaqlarını gəmirir, sakitləşə bilmirdi Qəhrəman…

Bir neçə gündən sonra vəziyyəti nisbətən yüngülləşən Qəhrəmandan gəlişinin məqsədini öyrənən milis mayoru gətirdiyi kiçik bağlamanı ona verdi. Üz-gözündən çox mehriban görünən qadını göstərib əlavə etdi:

- Hesab et ki, Stasya Duqliç sənin ögey anandı. Atanın uzun müddət müalicəsində əməyini əsirgəməyib. Özü dul qadın olsa da, iki ciyərparasıyla Nüsrət Gərayoğlunu doğmalaşdıra bilib.

- Çox təəssüflənirik ki, bu yaxınlarda Nüsrəti həmişəlik itirdik. Təsadüfi görüşünü unuda bilmir, heç kimlə kəlmə kəsmirdi. Mübtəla olduğu dəhşətli xəstəlik, nəhayət, qalib gəldi. Bax bu şəkili həmişə yatmazdan qabaq öpər, sinəsində gəzdirərdi. Bəlkə tanıya bilərsən?

Qəzet parçasına bükülmüş kiçik uşaq şəkilindən baxan məsum gözləri Qəhrəman tanıya bilməzdimi?!

*08-19.05.2009*

## QADALININ QADALARI

***(povest)***

- Səni görüm gün vursun, a belə heyvan, dəstəni yığıb başına hara üz tutmusan? Bu goru çatlamışın oğlu elə indicə gətirmədi sizi örüşdən? Bıy başıma xeyir, qoyun ki, qoyun. Qarnı doysa da, gözü doymur qızdırmaya tutulmuşun.

- Noolub, aaz, yenə qapı-bacanı götürüb başına səs-küyün? Səhərin gözü deşilməmişdən ağzına gələni qolazlayırsan yan-yörəyə? Nə sənin səsin kəsilir, nə də çil anacın. Baax, o da həyətdə o yan-bu yana qaçır, dinsimək bilmədən qağanaqlayır. Sən bilən nə axtarır? Səhər hindən çıxanda qışqırır: «Qaq-qaq-qaq, yumurtaladım ağappaq, inanmırsan, dur gəl bax!» Yumurtlamağına, yumurtladı. Bu onun yediyi dənin haqqıdı, anlayıram. Daha nə istəyir axı? Bir yumurtadan ötrü gözümü də çıxartmayajax ki! Gedib kol-kosda, kül-küllükdə niyə eşələnmir? Yoox, nəsə başqa istəyi var. Səncə, istəyi nədi çil anacın? Bəlkə cücə axtarır, hə?

- Kişi, belə şeylərdən başım çıxmır. Mənim işim ev-eşikdi, uşaq-böyükdü, yır-yığış, biş-düş, yedirtmək, geyindirmək, nehrəni çalxamaqdı. Deyinməyim odur ki, qoyunların da özün kimi bir azca yatıb dincəlmirlər. Sağına gəldi, balalarını əmizdirdi, ya Allah deyib dağa-daşa qaçışır. Sən fağıra yazıqları gəlmir, ey, bunu deyirəm.

- Arvad, sən dedin, mən də inandım? Görünməyən hərəkətdi, vallah. Sən mənim qayğıma qalırsan? Ay-hay! Ölmüşdü Babaş. Sürünü ağıla doldurmağa hövsələn çatmır. Əlinə keçənnən düzürsən süfrəyə, başlayırsan əsnəməyə. Yəni ki, gecədən xeyli keçib, ey! Ay dili qafil. Uşaqlar bayaqdan kiriyiblər, yuxu bişirirlər mışhamış. Elə çil anacın da qarnının dərdi çil xoruz deyilmi? Quqquldamağın eşidən kimi, özün vurur kol-kosa ki, guya qorxur. Sən də yaxşı bilirsən! Qara qızın qarnının dərdi varmış. Belə deyil? Ay səni qara batasan, mən də Pələşnən axtarmağa gedim.

- Oxumamış mollasan ey, Babaş İbişov. Heç nəyi saxlamadın. Açdın sandığı, tökdün pambığı. Bir kəlmə dedim, peşman elədin.

Heç sözüm yoxdu sənə. Belə görürəm, mənnən qaçırsan! Yeri-yeri, qoyunların düşdü erkəcin felinə, düzüldülər Selliyə sarı. Qurda-quşa tuş gəlməsinlər barı. Yaxşıca sözümü ağzımda qoydun. «Əlbət evə gələrsən, gör sənə mən neylərəm!»

Bacıxanım əlindəki çömçəni fırlada-fırlada Babaşı hədələyirmiş kimi yollandı çatmadan asılmış nehrənin yanına.

Sarıtəpə kümbəzinin dalından boylanan günəş qızılı saçlarını səpələyib yal-yamacı, kol-kos basmış düzənliyi təzəcə bəzəyirdi ki, Bacıxanım uşaqlarını səslədi yuyunub daransınlar: məktəbə getməyə az qalıb. Rəşid, Bəşir, Rəna tələm-tələsik geyindilər, üz tutdular yaxınlıqdakı tut ağacına mıxlanmış əl-üzyuyana sarı. Süfrəyə yığışanda, Bacıxanım hiss etdi ki, Mübariz kəndi ikiyə bölmüş yalın kənarı boyu əkilmiş cavan çinarlara doğru boylanır. Evin ilk uşağı olduğundan o biri uşaqlardan fərqləndirirdilər. Onun nimdaşlatdığı pal-paltarı, ayaqqabıları növbəylə Rəşid, sonra da Bəşir geyinirdilər. Kiçik qardaşlar ürəklərində gileylənirdilər: haçan Mübarizi əsgər aparacaqlar ki, onlar da sevinə-sevinə təzə paltarda öyünəcəklər, kimlərəsə özlərini göstərəcəklər.

- Ay Rəşid, atam bizi niyə gözümçıxdıya salıb, hey gileylənir ki, dərslərimizdən axsamayaq. Heç özündən bəri baxmır: vur-tut yeddincini qurtarıb, amma kənddə çoxları ona paxıllıqdan çatlayır. Gözü-könlü tox, kimsəyə boyn əti olmayıb. Beşindən geri qalsa da, on beşindən irəlidədi.

- Sən belə şeylərə burnunu dürtmə, qəqəni, əzişdirər haa… Atamızın ali təhsili olmasa da, çoxları onunla hesablaşır. Ağlıbaşında kişidi, babam deyərdi, unutmusan? Zarafat deyil ey, beş bacının bir qardaşı olub, üstəlik də anadan yetim qalıb. Rizvan babamıza da azar-bezar göz verib, işıq verməyib…

- Burda nə pıçıldaşırsınız, ey, yediniz-içdiniz, haydı dərslərinizə. Geciksəniz, özünüzdən küsün! Baxın böyük qardaşınıza, ibrət götürün. İnşallah, bu il onuncunu bitirib Bakıya – inistuta gedəjək. Onda gərək atanıza daha çox siz kömək edəsiniz. Zarafat deyil, ee. Kolxoz işi bir yannan, ev də başqa yannan.

- Nənə, ay nənə…

- Əə, sənə deməmişəm, «nənə» atanın, ya da ananın anasına deyərlər? – Rəşid Bəşirin sözünü kəsdi.

- Hə, hə, ana, ay ana, neçə sinif oxumusan?

- Nə bilim, ay bala. İtlerdi nədi, gözləri çıxsın, davanı başladı, mən də başqaları kimi məktəbi yarımçıq qoyub biçində-başaqda, pambıqda anama köməkçi oldum, bildim ki, oxumaq nə deməkdi? Babanızı dava yoxa çıxartdı, heç gördüm deyən olmadı. Onunla gedənlərdən az adam qayıtdı sınıq-salxaq halda. Lənətə gəlsin dava salanları. Heç bildik ki, əməlli-başlı oxumaq necə olur?

- Deyirəm axı, niyə «institut» əvəzinə «inistud» deyirsən.

- İndikilər xoşbaxtdılar ki, işıqlı məktəblərdə oxuyurlar. İradiyo, telfun, kinov gördülər. Belə şeylər yuxumuza da girməzdi, desəydilər də. Yaxşı, bəsdi səfimi düzəltdiniz, atanızın işdən gələn vaxtıdı, kişini dilxor eləmiyin. Səfər müəllim bayaqdan zəngi döyür ki, gejikmiyəsiniz. Gedim görüm Şanxanım xalan gildə nə var, nə yox. Axşam yuxumu yamanca qarışdırmışam: alız-uluz mənnən əl çəkmiyib. Xeyirə qənşər olaydı təki.

- Minayəyə də salam deyərsən, yaxşımı? – qapıdan çıxanda Mübariz dilləndi.

- Yaxşı, yaxşı, bilirəm haralara barmaq uzadırsan, ay bicəngənin biri, - Bacıxanım qara, çatmaqaş gözlərini süzdürdü, gülümsündü, ətəyinin ucunu tumanbağına ilişdirib gözdən itdi.

Mübariz Bacıxanımın birinci ərindən idi. Həsrət Bacıxanımla toyundan bir neçə gün sonra yaylaqda qar uçqununun qurbanı olmuşdu. Mübariz dünyaya gələndə, çox gəlin onu öz südüylə mayalandırmışdı: Bacıxanımın döşləri şiş görünsə də, südü yox idi, qalmışdı uşaqlı qadınlara möhtac. Erkən yetim qalsa da, olmuşlardan xəbərsiz idi.

Qonum-qonşu onu atıb-tutar, «Babaşın ilki» deyə çağırırdı. Babaş Bacıxanımı Həsrətdən qabaq gözaltı eləmişdi, amma Həsrət arxalı olduğundan iki ayağını bir başmağa dirəyib dayanmışdı:

- Qırxdı, biri kəmdi, ölləm, öldürrəm, Bacıxanımı mən alajam. – Zor qollu olan atasının sözünü yerə salmadılar: el-obada oğrubaşı kimi tanınan Qaraxan dustaqxanaya düşəndən bir neçə ay sonra kəfin-dəfin oldu.

Babaşın Həsrətdən qabaq Bacıxanımla görüşməsindən heç kəsin xəbəri yox idi. Toy gecəsinin səhəri Bacıxanımın «qızlıq» mələfəsini görsünlər deyə ortaya çıxarılması ara qarılarının arasında sirr qaldı: «bəzək-düzək» etdilər ki, Bacıxanım aydan arı, gündən duru imiş. İşin doğrusunu çoxları bilmədi.

- Az, az, deyirlər, Babaş Bacıxanımı qaçırdıb! – xəbəri ildırım kimi yayıldı kəndə.

- Booy, gədənin qudurmuşluğuna bax ey, belə də hərəkət olar? «Çoban ayıq olanda, sürüyə qurd yaxınlaşa bilməz» deyənlər haqlıymış. «Çoban yatdı, sürü batdı». Barı bədbəxt Həsrətin ilini gözləyəydi dəə. Zalım oğlu başını itirib ey! Quduzlaşmağı görürsünüzmü? – deyinirdi qarılar.

Deyilənlərə soyuqqanlıqla baxırdı Babaş. Bir müddət yanından keçənlər ağızlarına su alsalar da, yavaş-yavaş «su axarına düşürdü». «Döymə qapımı, döyərlər qapını» deyənlərin də sayı çoxalırdı. Artıq dodaqbüzənlərin də «kilidlənmiş» dilləri açılırdı. İlk vaxtlar Bacıxanım darvazadan bayıra boylanmaqdan da qorxurdu.

Kəhrizdən sənəkləri doldurub eşşəyin belinə aşırdar, gecə qaranlığında Babaş gətirərdi evinə. Özü evdə olmayanda, zəncirdən buraxılsa, atlını atdan salan Qurdağzını həyətə buraxardı ki, kimsə üzükməsin, yoxsa…

Çoxları Babaşı qaraqabaq, «qurd ürəyi yeyən» kimi tanıyırdı. Vurduğu çomaqdan sağ qalanları ömürlük şikəst görürdülər. Əlqərəz, günlər keçir, ara sakitləşirdi. İlk «sabahın xeyir, ay qonşu!» deyən Şanxanımın əri, briqadir köməkçisi Azay kişi olmuşdu.

- Olan olub, keçən keçib, innən belə nəyi geri qaytaracaqsan, ay Babaş, özünü çox da adamlardan qaçaq tutma. Çalış qaynayıb qarışasan, təkbaşınalıqdan xeyir gəlməz. Adamların ağzını yuma bilməzsən. Kəndin xeyiri-şəri var. «Palazı bürün, elnən sürün» deyiblər. Camaatın adət-ənənəsinə toxunmusan, incitmisən könülləri, küsdürmüsən. «Dağ yerindən tərpənmirsə, sən dağa yaxınlaş», - deyib Həzrəti peyğəmbərimiz. Hərçənd ki, sənin peyğəmbər olmağına inanmıram. Lap çoban kimi hərəkət etmisən.

- Azay dayı, çoban olanda, noolar, onun kişiliyi olmur? Məni alçaldanda, heç kəs ona «gözün üstə qaşın var» demədi, ədalətə,

insafa, mürvətə səsləmədi. Məni hamınız gücsüz sandınız. Təklikdə qalmışdım. Dinmədim. Hesab etdiniz ki, arxasız köpəyi qurd basar. Sizi qınamıram: dibi-dəhnədən aləm belə yaranıb. Od vurub evləri yandıranın qolunu burub susduran az, lap az olub. «Mənə dəyməyənlə nə işim» deyilib. Növbə onun evinə çatanda, qaçıb dırmaşıb damın üstünə, haray-həşir salıb, kömək istəyib. Onda artıq gec olub. «Xar vurulub, xırman sovrulub». Axı belə olmamalıydı!

- Bilirəm, bacı oğlu, gileyin haqlıdı. Sənə pislik edəni sən yox, el cəzalandırmalıydı.

- Sən dediyin elin sükutunu pozan tapılmadı, tək Onnan başqa. Haqqı, ədaləti O yaratdı, gözünüz ki, gördü olanları. Məni bağışlayana canım qurbandı, əgər haqlıyamsa. – Azay dinmədi. – Deyəsən, sözlü adama oxşayırsan. Səni bura kim göndərib, bilmək olarmı?

- Sözlü deyəndə ki, doğru dedin. Kolxoz sədrinin yanına getməliyik. Amma bəri başdan deyirəm: o, səninlə mənim kimi danışmayacaq. Ağlını başına yığ. Deyiləni eşitsən, yaxşı olar. Usub qağanı hamı ağızdan pərtöv tanıyır. Səfehləsə, fikir vermə, özünü eşitməzliyə vur, öz xeyirin üçün. «Bir şirinin xatirinə, beş acını yeyərlər».

- Az-çox yaşamışam, söz altında qalmamışam. Günahım olmasa, «bir deyənə beş deyəjəm. Məni də yaxşı tanıyırsan. Deyilənə görə, atam da beləymiş.

- Sən gəl çox da söz güləşdirmə. Lazımsız yerə özündən çıxma, peşman olarsan. O ki qaldı Usub qağanın söyüşkənliyinə, onu da çox qınamaq olmur. Təsərrüfatı ona tapşıranlar haqlıdılar. Belə etməsə, şiş də yanar, kabab da. Yaşımın altmışını yola salıram. Mənim də başım az çəkməyib. Mənim də cırtqozluğum olub. Usub qağa mənnən də yaşlıdı. Çoxdan sədr işləyir…

- Sənin, sənin haa! İnanmağım gəlmir. Səni hamıdan çox başıaşağı deyirlər. Suyu üfürməsən, içmirsən. Niyə özünə qara yaxırsan?

- Sənə bir hekayət danışajam. Uzun müddət mən fermada buzov otaran olmuşam. Bacarığıma «bərəkallah» deyiləndə, fərəhlənirdim. Bir dəfə atamdan bərk incimişdim: çox ayaq basırdı qonum-qonşu arvadlarının dalınca. Yoldaşlarımdan utanırdım. Evdən

qaçmalı oldum. Heç kimi eşitmək istəmirdim. Payızın sərtliyi, qışın qulunsalanlığından xəbər verirdi. Usub kişi məni yanına çağırtdı ki, dil-tov edib, yola gətirsin. Nə qədər xahiş etdi, fermaya qayıtmaq istəmədim. «Bax, əməkgününü ikiqat artırıram, təptəzə bürük, çəkmə, papaq verirəm». Dediyimdən dönmədim. Birdən yerindən sıçradı, dəli kimi bağırdı, söyə-söyə məni saldı təpiyinin altına. «Ədə, ləçərin balası, bağırsaqlarını …dən yerə tökəcəyəm! Məni də başa düş dəə!» - Əhvalat raykoma çatdı. Camaat sədrdən üz döndərmişdi. «Rədd olsun, vəssalam!» İclas çağrıldı. «Söyüşkəndi!» deyə bağırırdılar.

- Yaxşı, ay oğul, sədrin sözünü niyə yerə salırsan? Bəlkə səbəbini deyəsən? – raykom mehribancasına soruşdu.

- İstəmirəm, istəmirəm, istəmirəm! – gücüm gəldikcə bağırdım.

- Bəlkə tələbini deyəsən? – yenə sakitcə soruşdu.

- Əl çəkin mənnən! Heç bir tələbim yoxdu, işləmək istəmirəm, vəssalam! – bayaqkınnan da bərk çığırdım.

- Niyə, ədə, köpək oğlu, qoçuluq edirsən?! – Hirsli-hirsli irəli yeridi ki, qolumdan tutsun.

- Yoldaş Ağalarov, vallah mən də bax belə tərslik edəni söyürəm. – Usub qağa girdi raykomla mənim aramıza. Zaldakılardan qımıldanan olmadı. Səhərisi gün heç kəsə baxmadan getdim fermaya, buzovları hohalayıb yollandım örüşə. Belə-belə işlər, bacıoğlu. Tərslikdən xeyir gəlməz. Hər halda, çağırırlarsa, get…

* * *

Mübarizlə Minayəni bir-birinin kölgəsi adlandırırdılar: biri o birinin ayaq izlərini təkrarlayırdı. İkisinin də göbəyini hadıx Hamayıl kəsmişdi. Hansını görsə, eyni sözləri təkrarlayırdı: «Göbəyini kəsdiyim uşaq sözümdən çıxmamalıdı, haa! Mənim şirin-şəkər balam». Hamayılın göz vurması xalauşaqlarının canına yağ kimi yayılırdı. Hərdən bu «göbək dostları» qəsdən Hamayılın qənşərinə çıxardılar ki, onları güldürsün. Bu Hamayılın da ürəyincə idi. Dost-tanışlar deyəndə ki, «aaz, uşaqların üzünün suyunu tökmə, ayıbdı axı», Hamayıl xoşlana-xoşlana mızıldanırdı:

- Booy, başımaa xeyir, nə vaxtdan bəri könlü xoşlatmaq qəbahət sayılır? Onsuz da bir qız bir oğlanındı dayna. Bunların göbəyi göydə kəsilib, ey!

- Aaz, yaxşı, yaxşı, dilinə qurd düşsün, sözünə söz tapmaq olmur. Yüz adam da gəlsə, sənin arxanı yerə qoya bilməz, dediyindən dönmürsən.

- Niyə, bajı, bəs o uşaqları küllükdən tapmışam? Kimi istəsəm, o da məni yıxa bilər. Ağlına qusum, a beləsi.

- Üzünü gor görsün, ay Hamayıl, tay belə də yox, dəə! Barı uşaqların yanında belə abırsız danışma, dayna, ayıbdı.

- Uşaq hər şeyi uşaqlıqdan bilməlidi, ey, boyunuza qamış tutum, böyüyəndə gec olur. Eşidin, qulaqlarınızda sırğa olsun. Məktəbdə hər şeyi öyrətmirlər ki. Dünyanın əsas işdəhlərini elə mənim kimilərinnən öyrənirlər, daa. Bu gün-sabah bu uşaq bildiklərinizin hərəsi bir evin sahabı olajaqlar. Gör-götür ayamıdı. Gərək indidən bütün him-cimləri anlasınlar axı. Özləri ev olanda, kimin ata-anası yanınca gedir ki, hər şeyi başa sala?

- Tay saa heç sözüm yoxdu, vallah. Hardan desəm, ordan bağlayırsan. Dəyirmanın boğazınnan salsalar, unnuxdan diri çıxarsan. Bir işdən başım çıxmır ki, çıxmır.

- Başın çıxar ey, çiyinlərin qoysa. De görüm, nə işdi ki, başın çıxmır? Deyən, bərk dormuzlanıb, dayna.

- Onu deyirəm ki, bax sən hər işdə belə pərgarsan, bəs niyə Novruz qağanın xoşuna gəlmirsən? Elə hey orda-burda gileylənir ki, Hamayıldan qaçıb qurtara bilmirəm.

- İkinizi də bir yerə soxum, tapışasınız. Çay aşağı axasınız, çay yuxarı əlimyandıda axtarım. O da sən ağıldadı, dayna. Minnəti olsun ki, mənim kimisiynən bir xeyrada yal yeyir. Qalmışdı küldə-küllükdə, heç kim bəyənmirdi. Yazığım gəldi, yetimdi deynən. Çəkdim kölgəmə, adam elədim, saldım kişilərin ortasına. Getsin bir çörək yesin, birini də Allahyolu versin. Cındırından cin ürkürdü, dayna. Yəqin, qanmazlıqdan gileylənir. Can onun, cəhənnəm Tanrının. Ərim olsa da, ağrım onun ürəyinə. Daz daznan yatdı, daz da daza şıllaq atdı? Bax sən niyə onnan maa xəbər gətirirsən? Dərədə it də çox şey yeyər, amma adamların yanında danışmaz. Deyəsən,

ərimə gözün düşüb, həə? Vermərəm, sən öləsən, gücnən tapışmışıq, qırsaqqız olub yapışmışıq. Kim nə deyir, desin. Hər nə deyirsə, maa qabuldu, niyə ki, uşaxlarımın atasıdı. Ərsiz arvada çoxları susuyar. Barmağınızı qatlayın ki, kimsəynən adım çıxıb.

- Dediyin nədi, nəyə işarə edirsən?

- Dediyim odu ki, özünüzdən bəri baxın. Dəvə girər pambığa, deyər görən yoxdu. İşdəhlərinizdən yaxşı xəbərdaram.

- Nə işdəh, ay Hamayıl?

- Kölgənizdən də qorxursunuz, üçün ki, diliniz gödəkdi yanımda. Sizdən dartıb yerə saldıqlarımın sayını da itirmisiniz. Özünüzü çeşni sayırsınız? Dilinizi soxun lap…! Ləkəli adamın gözü başqasında ləkə axtarar.

- Üzün qara olsun, ay Hamayıl. Elə əsdin-coşdun, silkələdin ki, ağacın başında toxumluğa bir alma da qalmadı.

- Sizə belə lazımdı. Neyliyənin qabağına neyləməsən, deyər, qorxdu. Ölmüşdü Hamayıl, söz altda qala. Bir özünüzdən deyəndə, beş də mənnən deyin ki, hesabımız düz olsun.

* * *

…Axşamın şələ-şəlpəsi kəndi bürüməkdə idi. Uzaqdan çəkmələrini şappur-şuppurla sürütləyən Novruzun hənirtisi Hamayılın cəhlini dayandırdı.

- Deyəsən, yamanca yorulmusan haa! Az qala çiynindəkini paçanın arasına qoyub, çal eşşəyi minən kimi «toş-toş» deyəssən. Bir az da gec gəlsən, qaçajaxdım dalınca. İşi nə qədər qovalasan, səndən qaçmır ey, ay başımın ağası. Əldən düşsən, əllidən də qalarsan. Torba-dağarcığını ver, götürüm. Lap dıncıxırsan, özünü niyə bu qədər əldən salırsan? Bu qolxozu təkcə saa tapşırıblar? Qulağıma qurğuşun! Başına bir iş gəlsə, sənnən qabaq ölərəm, - dedi, düşdü Novruzun yanına şaxlana-şaxlana.

- Neynim ey, səhərdən ha çalışıram, kələsərimizi suvarıb qurtara bilmirəm. Cərgələrin arasınnan keçmək olmur. Şax-şəvəl basıb. Andura qalmış tənəklərin zoğları dolaşır boynuma-boğazıma, aralanmaq istəmirlər.

- Bıy başıma xeyir, deməli, becərməni yerli-yerində aparmamısan, ey, ay Novruz. Birqədir Musa demiyib ki, barsız qol-qanadı doğrayanda, məhsul bol olur?

- Səhər elə tələsdirdin, budama qayçısını yadımdan çıxarıb evdə qoymuşam.

- Gözün ayağının altını görür ki? Mən olmasam, səni çoxdan qurd-quş yemişdi. Qayçını sənə vermədim əlimnən? Başın qarışıb patavalarına, qalıb həyətdə. Andıra qalmışı bərəyənin ağzındakı daşın üstünə qoyub getmisən.

- Qızaa, deyirəm axı, şooqəribi əlimə almışdım ki, cibimə qoyum, düşüb qalıb həyətdə.

- Görürsən, mən olmasam, özünü batırarsan.

- Nolajaydı, dalmcan gətirərdin, dayna. Qoşalaşıb birlikdə çalışardıq bağda da. Bizi görənlərin bağırrarı çatlardı.

- Evdə-eşikdə dalınnan əl çəkmədiyim yetmir, hələ bağa da gəlim, Novruz?

- Vallah, sən yanımda olanda, qollarıma güj gəlir, alışıb yanıram. İstiyirəm turaxtır olub, yer şumlayım, - tutdu Hamayılın qollarından.

- Yavaş, yavaş, deyəsən, fırın lap yolun içində qalxıb! Özünü cırıb dağıtma görək. Qolumu burax, güləşməyimiz qalsın axşama. Get əl-üzünü yu, mən də gedim uşaxların dalıncan. Odur, ey, qaça-qaça yamacdan yenirlər. İndi soruşajam, onlar dərslərindən yaxşı oxuyublar, yoxsa birqədir Musanın uşaxları? Ətin kəsərəm, əgər dediyim olmasa. Demişəm, haa, gərək bizim evdən də ya müəllim, ya da doxtur çıxsın. Bəziləri bizi gözümçıxdıya salırlar ki, kasıbıx. Cücəni payızda sayallar. Görərik, analar nejə oğullar doğur. Mənə də hadıx Hamayıl deyərlər. Allahın izniynən, dediyim dedik olajax. Sinəsinə döyənnərə göstərəjəm ki, hər şey tərbiyədən asılıdı.

- Nədi, yenə, ay Hamayıl, nə əl qatmısan canına, yolu-irizi götürmüsən başına? Fısqırtın yolun tozanağın qaldırıb. Kimi güləşməyə çağırırsan? Bayaqdan fikir verirəm: heç kəs sənə gözün üstə qaşın var deyə bilməz, ürəyini buz kimi saxla, - kolxoz sədri Usub yeridi Hamayılın lap çənəsinin altına. Başladı altdan yuxarı boylanmağa. İstədi əlini qoysun onun çiyninə.

- Əlini özündə saxla! Mənə toxunanı elə çalaram, ömürlük sağalmaz! Gözünü aç, adamını tanı! Demiyin ki, qadındı, tez sıvılır. Hamınızın dabbaqda gönünüzə bələdəm. Yüzünüz yığılsa, kürəyimi yerə vura bilməzsiniz.

- Vallah, doğru deyirsən. Dilin varsa, dilçəyin də var. Bilmirəm, necə olub ki, belə çətin qoz Novruza qismət olub? Məəttəl qalmalı işdi.

- Belə işlərdən hamının başı çıxmaz, sədr. Çiyinlərdə oturmuş başların da içində dişə dəyər bir şey olmalıdı, ya yox? Gərək biləsən: qarşındakı kişidi, ya dişi. Siz dediyiniz dişilərin arasındakı diş sındıranlardan kənar qaçsan, başın salamat olar, heylə deyil?

- Heylədi, heylədi. Səni bildiyincən çəkəsən, ay Hamayıl. Çoxlarının dalına boş vedrə bağlayarsan. Dad sənin kimisinin caynağınnan! – Kolxoz sədri gileylənə-gileylənə düşdü gəldiyi yolun ağına.

- Yeri, yeri! Eninə oturum, boyunu ağlayım. Adını kişi qoymusan. Gündə bir qapıda burnunun suyunu axıdırsan, amma bilmirsən ki, sən başqasının çardağına dırmaşanda, arvadın yatdığı çardaq boş qalmır. Arvadın sənnən geri qalmır, kül başına. Yerə soxum sənin kimisini. Başın papaq görüb ki? – Ədə hey, burdan gəlin görüm, niyə dərsdən belə gec qayıdırsınız? Yenə iməjiliyə getmişdiniz?

- İməciliyə aparmışdılar bütün yuxarı sinif uşaqlarını, - oğlu Namaz bikef-bikef dilləndi.

- Dizlərinə sarı su yensin arvadların. Orda-burda şellənməkdən başları aynıyır ki, işi-gücü yaddan çıxarmıyalar. İkisi bir yerə düşdü, erkək at kimi kişnəşillər, abırlı-başlı dolanmırlar haa. Axşam düşən kimi, gözləri axır. Yuxuya getdilər, xorultusunnan qulaq tutulur. Dan yeri ağaranda, ərləri dürtməliyir ki, bəlkə gərnəşə-gərnəşə durub bayıra qaçsınlar. Hı deyib özlərinə gəlincə, görürlər ki, gün qalxıb günortanın kəlləsinə. Əsnəşə-əsnəşə, yırğalana-yırğalana çatırlar sahəyə. Elə buna görə də alaq-ulaq basır hər yeri. Üz tutullar Usub qağalarının yanına yalvarmağa: amanın günüdü, uşaqları tökün pambıq sahəsinə. O da dişlərin ağarda-ağarda Səfərin üstünü kəsdirir: «raykomun tapşırığıdı». Ağzı nədi eşitməsin! Yuxarı-

dan düyməni basallar, atasını yandırarlar. Belə olur ki, balıq başdan iylənir, dayna.

- Nənə, ay nənə, sabah məktəbdə tədbir keçiriləcək.

- Nə, nə? Tədbir nədi, bala?

- Direktorumuz dedi ki, 1 May bayramı münasibətilə konsert keçirəcəyik. Gərək hamı hazırlaşsın. Rayondan da gələn olacaq. Elə etməliyik ki, üzümüzə söz gəlməsin.

- Nağayrassız ki?

- Şeir deyəcəyik, nağıl danışacağıq, teatr göstərəcəyik. Deyişmələr, oyunlar da olacaq. Hələ nəğmə, mahnı da oxuyacağıq, ey!

- Bəs zurrna-balaman, tar-kaman, nağara da olajax?

- Əlbəttə, olacaq. Rayon mədəniyyət evindən gələcəklər.

- Yaxşı, yaxşı, səni konsertinin canı, tez ol gedək evə. Bizi gözləməkdən atanın gözlərinin kökü saraldı, yəqin. Kül başıma, başım necə qarışdı ey. Bu gün mənə noolub belə, yumulmuşum heç aranı kəsmir ki, kəsmir. İrağ olsun, hansı dili ağzında kömürə dönmüş səhər-səhər qabağıma çıxdı?..

* * *

Danışanların səslərindən kim olduqlarını anlamaq olardı.

- Minayə, bir-birimizin arzusunu bilirik, cikinə-bikinə bələdik, gizli saxladığımız sirrimiz də ki, yoxdu. Elə deyilmi?

- Əlbəttə, nə demək istəyirsən? Buna səbəb yaratmışam ki?

- Yox, yox, elə olsa, hansı dostluqdan danışa bilərik? Amma, məsəl var, deyərlər: «Dostluq həqiqi olsa, sınaqdan qalib çıxmalıdı».

- Şübhələnirsənsə, dəlil olmalıdı. Səmimiliyimi sübut etmək üçün, özümə qəsd etsəm, inanarsanmı?

- Bu yola əl atmağına razı olsam, hamının lənətinə tuş gələrəm. Bilənlər bizi qınamazlar ki?

- Bəs nədən məni imtahana çəkirsən?

- Şair yaxşı deyib: «Haqlısan, gözəlim, çəkdim imtahana səni, bəxtəvər anadır, gətirib cahana səni».

- Bəsdi, bəsdi, belə də imtahan olar birdən birə? Bunu hardan ağlına saldın? Bəlkə aramızı vurmaq istəyirlər? Belədirsə, hansı

dostluqdan dəm vururuq? Düz on ildi birlikdə yol gedirik, hələ də bir-birimizi tanıya bilməmişik? Belə də dostluq olar?

- Yaxşı, yaxşı, çalışaram bir də belə zarafat etməyim.

- Zarafatın axırı küsməyə gətirər, bəzən lap qısqanclığa qədər gedər. Qısqanclıq yıxmayan evi, fələk də dağıda bilməz. Yadındamı Şekspirin «Otellosu»?

- İstəməzdim, sən Dezdemona olasan, mən də Otello. Tanrı bizi beləsindən qorusun. Sabah-birisi gün həyatımızda ilk ciddi imtahan günlərimiz başlanır. Gərək indidən elə hazırlaşaq ki, pərt olmayaq. İrəlidə isə çox sınaqlarımız olacaq. Yaxşı çalışsaq, büdrəmərik.

- Bax buna mən də razıyam. Yolumuzu yaşıl işıq göstərsin. Qırmızı işıq – bədbəxtliyə işarədi.

- Ağlın nə kəsir: özfəaliyyətdə özümüzü sınaya bilərik?

- Niyə ki, kimdən əskikik?

- Onda irəli.

- Hara?

- Qafiıyə tutmağa. Buyur görək. «Yeri, yeri, mən də gəlim dalınca, dəsmal elə, apar məni yanınca».

- Gözlərim qamaşır, odlanır ürək,
Hər səhər səninlə görüşən zaman.
Sinənə yapışır atlazdan köynək,
Söz qoşur şəninə, ötüşən andan. – Göstər məharətini!

- Bir vuraq ayları, illəri başa,
Dolaşaq bağları, çölləri qoşa,
Gətirək çayları, gölləri cuşa
Yan getsin küləklər, çəkilsin duman. – Necədi?

- Tutmasın fəlakət, nə qarğış bizi,
Saxlayaq əmanət məhəbbəti biz.
Yaşatsın dəyanət, həm alqış bizi,
Görməyək xəyanət, nə lənəti biz! – Amin, ya Rəbbim!

- Qoy qoşa ötüşsün eşqimiz aşkar,
Olmayaq kimsəyə nə ovçu, şikar.
Unutsaq, məhv edər bizləri rüzgar,
Səsləyək ədalət və hörməti biz. - Az da olsa, deyəsən, alınır!

Təki istək olsun. Hərəyə birini də deyəkmi? Axı atalar «üç» deyib.

- Ömür çağlarımız başlanır indi,
Bu yolda büdrəmək ola biləndi.
Atalar, analar yol göstərəndə,
And içək düz yola, sədaqətə biz.

- Bu kəndlər, şəhərlər bizi səsləyir,
Yaşadır qoynunda, özü bəsləyir,
Göz qoyur yoluma, düzü istəyir,
Yol tapaq sevgiyə, məhəbbətə biz.

- Atalar «üç» də deyib, «qaç» da deyib. Amma baxır harda qaçmaq olar. Koroğlu öz dəlilərinə nə deyirdi: «İşki qaldı…»

- Məzən olsun, ay Minayə. Elə arxivlər açdın ki, bilmirəm, nə deyim. Hələ dodaqlarımızın südü qurumayıb, indidən qoçaqlıqdan dəm vururuq. Koroğlu belə dedi, Babək belə buyurdu! Yaxşısı budur, bugünkü məşqimizi burdaca dayandıraq, yollanaq xalaların qazanının yanına. Burnuma ləzzətli şorba iyi gəldi. «Acından qarnım girdovoy kimi fit çalır».

- Sənin bu qarınquluğundan olmaz, haa. Heç yadımdan çıxmır: anamın bişirdiyi kələm şorbası sənə elə toy tutdu ki, «hoox, hoox! Uff, uff!» deyə-deyə süfrədən qaçdın eyvana. Noolmuşdu, elə acıxmışdın? Heç olmasa qaşığı ağzına aparmazdan qabaq üfləyəydin. Elə hortuldatdın, qaldıq baxa-baxa, bilmədik gülək, yoxsa…

- Hərdən məni elə yerdə sorğu-sual edirsən, özümü unuduram. Lap imtahan götürənə oxşayırsan. Dərs deyəcəyin uşaqların vay halına, əfərdasın kəsərsən.

- Yox, kötəkləmək qaldı Nikolay Palkinin zamanında. İndi dediyini əsaslandırmaq lazımdır ki, inansınlar.

- Bəzən inanmaq istəməyəni cəzalandırmaq da lazım gəlir, axı. Yadındamı A.Makarenkonun dedikləri: «Məqsədə çatmaq üçün bütün vasitələrə əl atmaq lazımdı». (Dlya dostijeniya tseli vse sredstva xoroşi).

- Nə deyirsən, de, mən cəzanın tərəfdarı deyiləm. Bu kobudluqdu.

- «Ölünü öz xoşuna qoysan, kəfəni batırar». Buna görə də çoxlu pambıq lazım olur. Unutma.

- …

- Ulularımızın dediklərini sırğa kimi qulaqlarımızda gəzdirməliyik.

- Yamanca məsləhətçi olmusan son zamanlar. Baxır hansı məsləhət daha ağlabatandı. Axı bir «reallıq» da var. «Araz axır, gözün baxır» da deyirlər.

- Hər axara bel bağlama. Üzdə dayaz görünən, həqiqətdə dərin ola bilər. «Hər şey ehtiyatdan asılıdı», - babam deyərdi.

- Babaların dediyilə çox da oynama, maşın keçər, piyada qalarıq toz-torpağın içində. Əlini qaldır ki, görən olsun. Görürsən bizə sarı gələn «Pobedanı»? Tozu qaldırıb ərşə. Canı yanmış bərk tələsir, deyəsən.

- İstəmirəm, o, bizi götürsün.

- Niyə?

- O, Usubun maşınıdı.

- Maraqlıdı: səhrada ulaq görürsən, erkək, yoxsa dişiliyin axtarırsan. Bax, dayandı yanımızda.

- Ey, uşaqlar, əyləşin, gedək. Yolunuz uzaqdı, - sürücü göz vurdu.

- Ehtiyac yoxdu, təşəkkür edirik.

- Həə? Başa düşdüm. Doğrusu, sizə piyada getmək daha sərfəlidi, deyiləsi sözünüz çoxdu, axı. Hello! – dedi və maşını nərildədib tozanaqlatdı. Bir müddət Mübariz də, Minayə də dinmədilər.

- Səni başa düşdüm, qısqanmaqda haqlısan. Amma bil ki, yüz onun kimisi dəyməz Babaş əminin bir ağarmış tükünə. Dediyimin

şahidi olacaqsan, mütləq. Hamı bilir ki, mal-dövlət gəldi-gedərdi, həmişəlik qalansa insanlıqdı, kişilikdi. Bax, bildiyimə görə, hadıx Hamayıla heç kəs gözünün ucuyla da baxmaqdan çəkinir. Adlı-sanlı nəsildən çıxmış qadın olsa da, istədiyini seçib. Özü də çox razıdı ailəsinnən. İşindən də şikayətçisi yoxdu.

- Yaxşı, gəlsənə söhbəti başqa səmtə yönəldək?

- Necə bəyəm?

- Sənnən xəlvəti yazdığım şeirdən bir-iki bənd oxumaq olarmı?

- Əlbəttə. Amma xəlvət niyə? Belədirsə, daha deyəsi sözüm qalmır, vallah. Məgər mənə inamını itirəcəyimə şərait yaratmışam?

- Yoox, tək mənim inamım azdı, gərək həmişə, hər yerdə müqabillik olsun. «Dostluq öz yerində: hesabda düzgünlük gərəkdi». Bunu da mənim babam deyib.

- Oxu görüm, nə yazmısan.

- Milçəyə də qısqanıram, yapışıbdı çiyninə,
Lənət olsun köynəyinə, sarılıbdı əyninə.
Kaş girməsin yad fikirlər beyninə.
Ətirə də qısqanıram, öpür bəyaz sinəni.

Külək necə cürət edib oxşar qara telini?
Kəmər niyə insafsızdı, qucaqlayıb belini?
Çiçəklərin həddi yoxdu, bəzəyiblər əlini.
Saf sevgimə «yox» dediyin dodaqların qurusun!

Sənə sarı hey uzanır sol qolum,
Bağlı qalsın, açılmasın qoy yolum,
Özgəsinə könül versəm, lal qalım,
Taleh bizi birləşdirsin, qorusun.

- Hesab etmə ki, bu sözlər təkcə sənin ürəyindən gələnlərdi. Axırıncı bəndi mənim qəlbimdən köçürmüsən, buna şübhəm yoxdu. Mən necə edim ki, inanasan. Sənin qarşındakı qız özünü oda atar, yada satılmaz. Gəl bu söhbəti saxlayaq toy gecəmizə qədər,

davamını onda danışarıq. Onda görərsən, mən kiməm. İndi isə qəbul imtahanlarına hazırlaşmaqdan başqa heç nə barədə düşünmək istəmirəm. «Cücəni payızda sayarlar», - deyənə rəhmət olsun. Danışdıqmı? Sözümə sadiqəm: durmuşam qarşında. Necə istəyirsən, eləcə davran mənimlə! Al canımı, sənin olsun. Tanrıdan başqa şahidimiz olmayacaq. Buyur! – deyəndə uzaqdakı dağın başına yığışmış buludu gözlənilmədən yaran şimşək vahimə yaratdı. Bu görüntüdən xalauşaqlarının yanaqları gah ağardı, gah da allanmağa başladı. Bir-birlərinə elə sıxıldılar ki, qabırğalarının xırtıltısı aydınca eşidildi…

* * *

Mübarizlə Minayəni Qarayazıdan Bakıya aparan sərnişin qatarı var gücüylə təkərlərini yeri qucaqlayan polad relslərin kəsiyinə çırpır, acığını çıxırmış kimi «taqtaraqla» mənzil başına tələsirdi. Bir vaqonda Babaşla Mübariz, başqasında Şanxanımla Minayə. Stansiyada bilet alanda, ha çalışdılar ki, xalauşaqları bir kupedə yerləşsinlər, biletsatan Ovçu kişi and-aman edib inandırmışdı:

- Ay canım-gözüm, mən də istərdim siz dediyiniz olsun. Vallah, simi-vallah, mümkün deyil. Sizdən qabaq bilet alanlardan qalan yerləri sizə verirəm. Heç narahat olmayın, qonşu vaqonda olsanız da, Bakıya eyni vaxtda çataasınız. Düşəndə, yenə tapışaassınız, inanın. Bakı hamını gülərüz qarşılayır, arxayın olun. Mənnən də salam-dua çatdırın qoca Bakımıza, minnətdar olaram. Bax bu sənəti mənə verən də Bakı olub. kəhkəşanlar şəhəri. «Gündüzü əlvan, gecəsi çirağban» Bakım mənim…

* * *

Xalauşaqlarını kirayədə yerbəyer edəndən sonra, Babaşla Şanxanımın narahatlıqları birə-beş olmuşdu.

- Nə deyirsən, de, pambıqla odu bir yerdə saxlamaq hünər istəyir, vallah, dördgöz olmalıyıq innən belə. Noolsun ki, qohumuq. Gözümüzə yuxu getməməlidi. Sərvaxtlıq, bir də sərvaxtlıq. Cavanların beyni həmişə qan-qan deyir! Düz demirəm, Şanxanım bacı?

- Düz deyirsən, qardaş, düz deyirsən. Kaş balalarımız başımızı alçaltmayaydı. Şeytana lənət, həmişə mərdimazarlığa çalışır. Görək noolur. Bir şeydən də qorxuram, ey! Sizinki deyir ki, incinar olmaq istiyir, bizimki – müəllim.

- Bax buna xoşum gəlmədi, haa! Çalışaq, sizinki-bizimki deməyək. Axı hər ikisi bizə dağlar qədər əzizdi. Onları boya-başa çatdırmaq üçün kirpiklərimizlə od götürmüşük. Həsrət qalmışıq gün işığına. Alnımızdan sızan tər bizi vaxtımızdan tez qocaldıb.

- Vallah, bunu da doğru deyirsən. Düz sözə nə deyəsən? Bəlkə elə bəzi işlərdən gec baş çıxardığımıza görə bizi kişilərdən dərin basdırırlar? Haqlısan.

- Az qala ömrümü-günümü bu kənddə keçirmişəm, adamları da azdan-çoxdan tanıyıram, amma yenə də məəttəl qalmışam: bəzilərini tanımaq çox çətindi. Elə bil hər gün üzlərini dəyişirlər, burdan vurub, ordan çıxmaqda pərgardılar. Payız küləyi kimi küncdə-bucaqda dolanırlar. Oğurluqda tutursan, doğru kimi görünməyə çalışırlar. Görürsənmi Kəbirəni?

- Demə, demə. Onu görüm, balalarından yana qırx ərşin quyunun dibinə quylansın, tapılmasın. Dililə ilanı yuvasınnan çıxardar. Beləsinin üzünü gor görsün. Çox evləri xaraba qoyajax. Heç yaxına qoyulası deyil ləçəri. Abırsız danışdığıma görə üzüm ayağının altına.

- Nə təhər dil töklübsə, yazıq Novruzun qardaşı oğlu Salehi iki-üç gündə Samirəyə elçi göndərməyə razı salıb. Bu yaxınlarda toyları olajax.

- Hansı Samirəni deyirsən, ay Babaş qardaş?

- Kəbirənin qardaşı qızını deyirəm, dayna. İşi elə qurub-quraşdırıb ki, elə bil qız ayaq üstəymiş, Salehdən ötrü sinəsini cırırmış.

- Bıy, bıy, üzün yansın belə qız! Ağzım əyilsin, əgər onu Salehə qıysam. Get-qayıt olsun onu, gözü-başı qaynaşır qancığın balasının. Dilim-ağzım qurusun, bəlkə bir qələti-zadı varmış. Nə desən, onnan çıxar.

- Nə bilmək olar. Bunlara etibar var? Yelbeyinlik gələndə, bu küçüklər oğlanları kölgədə qoyarlar.

- Sən Allah belə demə, ağzıma daşlar. Bəd işlərdən uzaq olsun balalarımız. Gözüm su içmir belə yeti-yüyütdən. Ay doğar, el görər, ey, belə deyiblər dərvi-qədimdən.

- Həə, bunu da yaxşı deyiblər: «Danışıq dananı qurda verər». Deyəsən, çatmışıq. Söhbətimiz elə uzun çəkdi ki, yolun qəddin qırdıq. Hazırlaşmaq lazımdı. Odur ey, avtobuslar durub.

- Doğrudan ha, çatmışıq ki! – Şanxanım yumurtası tərs gəlmiş toyuq kimi ora-buranı əlləşdirib, nəyisə axtarırdı. – Hə, tapdım. Səni Allah, geriyə qaytarma əlimi! Bu bodarkanı almışam Bacıxanıma.

- Bodarka nədi, Şanxanım bacı?

- Eee, nə bilim ey, belə deyirlər, dayna. Hə, hə, yadıma düşdü, yadıma düşdü: hədiyyə.

- Nə hədiyyəsi, ay pir olmuşun qızı. Bacıxanımın hədiyyə alan vaxtıdı? Biz evlənəndə də hədiyyə-zad görmədik.

- Yox, ey, elə belə şeydi. O gün dovğanı qarışdıranda, gördüm ki, çömçənin qırağınnan qırılıb düşüb. Bax, dəmirdəndi, özü də deyirlər, paslanan deyil. O da mənə bir sacayaq bağışlayıb. Elə yerinə düşdü ki! Qazanı ocaq daşının üstünə qoyurdum. Həmişə alqışçıyam, vallah. Siz məni gözünüzün üstündə görürsünüz. Qardaşım Tanrıverdi gözlərini yumanda, yastığının yanında siz ər-arvad göz yaşlarınızı gizlədə bilmirdiniz. Bunları unuda bilərikmi? Maşallah, uşaqlarımız da bir-birinə elə isinişiblər ki, yad adam seçə bilməz: kim kimin nəyidi. Bircə onların toy günlərini görsəydim, ölsəm də heyifsiməzdim.

- Rəhmətliyin qızı, ölmək-zad fikirləşmə, onnan aralı dur. Şükürlər olsun Tanrının dərgahına, yaşamalı günlərimiz innən belədi, ey! Təki xata-baladan uzaq olaq!

- Allah ağzınnan eşitsin, ay Babaş qardaş, daha qaranlıqlayır. Məni bərəyənin yanında düşürt, sizə də yaxşı yol. Gedib-qayıtsam, gec olar.

- Nə deyirəm, özün bilən yaxşıdı. Ey, bacı oğlu, - sürücünü səslədi, - o qanadları yola əyilmiş bedananı görürsən, bax orda əyləcini bas, xalanı düşürdək.

- Mənim gözüm üstə, həddim nədi eşitməyim. Baax, bu da dediyiniz bedana. Xalası, əlindəkiləri mənə ver, arxayın düş, tələsmə.

- Qadan ürəyimə, ay oğul, uğurun xeyirli olsun! – Bir az aralanmışdılar ki, sürücü soruşdu:

- Xala nəyindi, əmi?

- Siqə bacı-qardaşıq, bacı oğlu.

- Yüz yaşa, a beləsi. Göz dəyməsin, mehribansınız, haa!

- Di salamat qal. Yolçu yolunda gərək, - deyib Babaş yollandı evinə…

* * *

Salehlə Samirənin toy xəbəri ətraf kəndlərə də çatmışdı. Salehin tələbə dostları da uzaq rayonlardan dəvət almışdılar. Çoxları sevinirdi bu şənliyə. Gözaydınlığına gələnlərin əlindəki xonçalar adamın üzünə gülürdü. O yan-bu yana tələsənlərin arasında Kəbirə quyruq bulasa da, oğlu Əlişin üzü gülmürdü: kipriklərindən sanki əqrəblər sallanırdı. Marığa girmiş canavarı xatırladırdı, şikarını güdürdü. Hərdən kiməsə göz-qaş etsə də, əhəmiyyət verən tapılmırdı. Gecədən xeyli keçsə də, oynayıb-gülənlər səngimək bilmirdi.

«Sən saydığını say, gör fələk nə sayır» fikirləşmişdi Əliş. Samirəyə gizlincə yolladığı məktubda inandırırdı ki, «Saleh xədimdi. Onnan sənə ər olmaz. Evin dalındakı ayaqyolunun yanında gözləyirəm. Ağlını başına yığ, sözümdən çıxsan, səni doğrayacağam. Ya ölüm, ya mən!»

Papaq altında baş verənlərdən Salehin xəbəri yox idi: yoldaşlarıyla atılır-düşür, özünü bəxtəvərlikdə duyurdu. Qəflətən ara qarışdı, məzhəb itdi: toy mağarı yanar ocağa soyuq səpilmişə oxşadı. Saleh ayılanda, iş-işdən keçmişdi: qurd qoyunu aparmışdı.

İnstitutdan qovulmasında Salehi günahkarlandıran Əliş kinini unutmamışdı. Fakültə komsomol təşkitlatının katibi işləyən Saleh döyüldüyündən şikayət verməsə də, Əliş institutdan qovulmaqla həbsdən canını qurtara bilmişdi…

Gəlinlik gecəsini kol-kosluqda keçirən Samirə səhərə yaxın bibisinin «xarabasına» gələndə, nə onun, nə də Əlişin üz-gözündə

salamat yer qalmamışdı, cırmaqlanmaqdan. Samirə gah başına döyür, gah da yambızlarına: «Məni niyə bədbəxt elədin?!»

- Səni qan aparsın, ay beləsi, oğlumu niyə yerə vurdun!» - deyib baş-gözünü yolmaclayan Müxəstəni sakitləşdirmək olmurdu. Başı indicə üzülmüş xoruz kimi o yan-bu yana çırpınır, heç kimi eşitmirdi. – Məni sındıranı Allahım sındırsın, ay camaat! Belə də xainlik olarmı? Bu nə işdi balamı saldılar! Üzün gülməsin, mərdimazar, balam sənə nə pislik edib? Heç məktəbdə oxuyanda da, Kəbirənin oğlu balamdan əl çəkmirdi. «Niyə müəllimlər səni mənə nümunə deyirlər, ay Tappıldağın oğlu?» deyirmiş. Bu qan qusmuş elə uşaqlıqdan kənddə qoçuluq edir. Əlişi qandırıb-yandıran tapılmayacaqmı Qadalıda, ay camaat? Qadalardan canı qurtarmasın balamın şaxını sındıranın!

- Onu yoxa çıxsın, ay Müxəstə bacı, onun əlindən zara gəlmişik. Bu işə razılıq verən qızın da üzü gülməsin. Salehi istəmirdisə, niyə iki ayağını bir başmağa dirədi? Haranın həvə-civəsi dolmuşdu bu ləçərin qoynuna-qoltuğuna? Nə quramaydı, başımıza çatladı? – Müxəstənin qolundan yapışıb evə dartışdıran hadıx Hamayıl gileylənirdi.

Qadalı ölüsüdüşmüşə oxşayırdı. Cavanlar cilov gəmirsələr də, ağsaqqallar bu vurnuxanlara imkan verməməyə çalışırdı, qan tökülməsinin yolunu bağlayırdılar.

- Olan olub, innən belə nəyi düzəldə bilərik? Hər şeyi dözmək aparar, balalarım. «Su sənəyi suda sınar» - deyiblər. Toyu pozan, vaya düşər, görəcəksiniz. Babaş cavanları dilə tutdu. Ürəyində yamanca narahatlıq hiss edirdi. «Birdən… yox, yox. Mənə toxunanın kiçik tikəsini qulağı boyda kəsərəm!» - pıçıldadı. Soyuq gizilti yayılırdı bədəninə…

* * *

Toy günündən neçə ay keçsə də, Saleh Əlişi tapa bilmirdi: yağlı əppək olub yerə girmişdi elə bil. «Alçağı başa salmalıyam! Ya ona verən Allah, ya mənə. Heç olmasa bir dəfə mən də ona göstərməliyəm: belələrinin ucbatından bu kənddə «ala qarğa bala çıxarda bilmir».

Kənddə özünə sığınacaq tapa bilməyən Əliş Masallıdakı əmisi gilə üz tutmuşdu. «Canavar özünə yuvanı kolluqda qurar». Saleh dözür, səbrini basırdı. Adamların yanından keçəndə, «yazığın bəxti gətirmədi» atmacalarına tab gətirə bilmirdi. Elə buna görə də evdəkilərlə danışıb Qubadakı dostunun yanına getməli oldu. Qohum-əqrəbası razı olmasa da, ayrı əlacı qalmamışdı. Qadalı onunçün dözülməz qazamata dönmüşdü.

- Ay oğul, dünyanın üzünü su almayıb ki, belə işlər tək sənin başına gəlibsə, sözüm yoxdu. dəryada gəmisi batana oxşayırsan. Belə olmaz axı. Özünü ələ al. Çıx adamların arasına. De, danış, olanları unutmağa çalış. Cavansan, bu qədər üzülməyə dəyərmi? – gileylənmişdi məktəb direktoru Səfər müəllim. - Pis zürüyətin üzü qara olsun. Məgər biz sizlərə belə dərs keçmişik?

- Təsəllinizə görə minnətdaram, müəllim. Mənimki gətirmədi, yəqin bəxtim beləymiş.

- Yox, ay bala, belə demə. Mənnən sənə əmanət: heç vaxt bəxtindən gileylənmə. «Əyən də Allahdı, düzəldən də», - deyiblər. Küskünlük dərd gətirər. Yadındamı: «Toy-bayramdı bu dünyanın əzabı, ağlı olan ona gətirər tabı». Belə işlərə görə deyilib, ey, vaxtilə.

Bütün təsəllilərə baxmayaraq Saleh ən vacib dəftər-kitablarını yol çantasına qablaşdırdı, ata-anasıyla öpüşdü, «ayağım hara, başım da ora» deyib düşdü yola. Bir ümidi vardı: Qubalı Ağakərəm «yolunu gözləyəcəyəm, gözüm üstə yerin var» demişdi uğursuz toy gecəsində.

* * *

Buludlu hava Babaşı da xırxalamışdı. Dünya başına daralmışdı sanki…

- Yaxşı, ay oğul, fikrin nədi? Sən ki, imtahanlardan kəsilməmisən. Sənin nə günahın var? «İstehsalat təcrübən yoxdu» deyə konqursdu, nədi, ora düşmüsən. Qocalmısan bəyəm? Bu il olmadı, gələn il olar. Canına sağlıq istə. Bir il nəmənədi, kolxozda işləyərsən, əməkgünü toplayarsan, bir də gələrsən imtahana. Odur ey, kəndimizdə nə çoxdu sənin təkiləri. Mısmırığını sallama sarıkərə qoyun kimi. Doğrusunu desəm, mənim vecimə də deyil. Diplomum

yoxdu deyən acından ölürəm? – Birdən dodağını dişlədi. «Heç, hənanın yeridi?» Qaş qayırdığım yerdə, vurub gözünü çıxartdım. Yerə girəsən, ay mənim kimisi. Əvvəlin yaxşı başladım, sonunda lap… batırdım.

Özünü qınaya-qınaya hesabı verdi içəriyə. Naəlac qalıb əl atdı zənbillərə ki, oğlunun qolundan tutub kəndə qayıtsın. Mübariz küt-küt gözünü döyürdü, qımıldanmırdı. Özündə deyildi. «Minayənin yanında dilim yoxdu özümə haqq qazandırım. Kimə görünə bilərəm? «Qız qədər də qeyrətin olmadı» deyəcəklər. Haqlı da olacaqlar. Yaxşısı budur, əlli-ayaqlı itim Qadalıdan. Heç onun da gözünə görünməyim. Qoy necə fikirləşir, elə də bilsin. Kəndə qayıtmaqdan keçdi. Düz deyiblər: çobanın oğlu çoban olmalıdı. Arzularıma «əlvida» deyib gedəcəyəm fəhləliyə. Sonrası Allah kərimdi. Tay-tuşlarıma necə görünə bilərəm?

Babaş ha çək-çevir elədi, oğlunu yola gətirə bilmədi.

Atasını kor-peşman yola salandan sonra, Mübariz düşdü şəhərin küçələrinə. İşdən ötrü sorğu-sual onu lap əldən salmışdı. Dəniz vağzalına yaxın skamyalardan birində əyləşib dincini almağı qərarladı.

Yayın hay-haraylı günlərindən biriydi. Xəzərdən əsən meh Mübarizin sifətinə sallanmış qara saçlarını yellədir, xumarlandırırdı. Dalğaların qoynuna şığıyıb yem dalınca özlərini suya çırpan qağayıların səs-səsə verib uçuşması, irili-xırdalı gəmilərin, qayıqların ləngərlənməsi onun gözlərini yorur, əsnədirdi. Yaxınlıqdan şütüyən maşınların da səs-küylü siqnalları öz təsirini adiləşdirirdi. O yan-bu yana qol-qola gedən, əllərindəki zənbillərini tələsə-tələsə sürütləyən adamların get-gəlinə məhəl qoymayan Mübarizi yuxu karıxdırmışdı. Oturacağın söykənəcəyinə dirsəklənmişdi ki, gözlərini yumdu. Yaxınlıqdakı susatan köşkündən yayılan müğənni qızın «Niyə məndən küsmüsən, sevgilim?» mahnısı qulaqlarını sanki sığallayırdı. Ana laylasını xatırladan kamançanın sızıltısı mışıldayan Mübarizə inanılmaz şirinlik bağışlayırdı.

- Ey, cavan oğlan, zəhmət olmasa, bir az özünüzü yığışdırın, ictimayi yerdəsiniz, evinizdə deyilsiniz! - qarayanız qadın gileyləndi.

Ayaqlarını geniş aralamış, qollarını yanlarından kənar sallamış Mübariz yad səsdən diksindi, gözlərini ovuşdura-ovuşdura dikəldi:

- Bağışlayın, deyəsən, yuxu məni tutub.

- Bu qədər get-gəl olan yerdə yuxuya baş əymək elə də asan iş deyil. Günün bu çağında belə yerlərdə yuxu bişirmək cəsarət tələb edir, qorxmursunuz? – qadın soruşdu.

- Nədən?

- Hər şeydən, hər kəsdən. Azmı hadisələr baş verir? Özünüzü yığışdırın. Bax, milis patrulları gəlir. – Cavan qadının oğlanla söhbəti patrulların, doğrudan da, nəzarətindən yayınmamışdı: öz aralarında guya ki, heç nəyi «görmür», məhəl qoymurdular.

- Mən sənin qolundan yapışsam, dartınma. Qoy elə bilsinlər ki, çoxdan tanışıq, yaxşımı? – yapışdı Mübarizin qolundan.

- Axı biz tanış deyilik? – Mübariz dartındı.

- Ay əfəl, tərslik eləmə, dediyimi elə! Dur ayağa, gedək.

- Hara?

- Guya ki, özümüz üçün gəzinirik, anladınmı? – lap astadan təkrarladı pıçıltısını.

- Məni rahat buraxın, mən sizi tanımıram! Əl çəkin məndən! – az qaldı qışqırsın.

- Ay gicgicə, bu saat milislər səni də, məni də cələkləyəcəklər! Ağlını başına yığ, yoxsa gec olacaq! Yanacağıq! – Qadın onun qolundan yapışıb skamyadan uzaqlaşdırdı. Özü də istəmədən Mübariz yumşaldı. Marıtladıqları cütlükdən bir təməsik anlamayan milis patrulları yönəldilər Xəzərin qulağının dibində ucalan paraşüt qülləsinə doğru.

- Deyəsən, fəndimiz baş tutdu, - qadın sevincək gülümsündü. Saçlarının yarısı kürəyinə, yarısı çiyinlərinə yayılmışdı. Gecə fənərlərindən yayılan işıq sinəsindəki bəzəkli düymələrdə bərq vururdu. Məxməri saplardan toxunmuş koftasından dikəlmiş döşlərin bəzədiyi görkəmi yuxusuzluqdan yarıörtülmüş gözləri belə qıcıqlandıran qarayanız qadının üzü gülürdü.

- Şükürlər olsun, aralana bildik! Bu iyiçillərin əlindən adam lap zara gəlir. Nə anda inanır, nə yalvarmağa. Dediklərini sübuta yetirməkdən ötrü dəridən-qabıqdan çıxırlar. Üzlərini gor görsün!

- Başa düşmürəm, siz nə iş tutursunuz ki, milislər bağışlamır? – qızdırmalı qoyun kimi gözlərini çırpan Mübariz üzünü yanındakından uzaqlaşdırmağa çalışsa da, bacarmadı.

- Necə deyim ki, səni inandıra bilim? Bax elə mənnən başlayaq: kiməm, nəçiyəm, hardan gəlmişəm? Səninçün maraqlıdı? Xeyir, elə deyilmi?

- Xeyir, elə deyil. Əgər kimsəyə dəyib-dolaşmıramsa, niyə məni sorğu-sual etsinlər ki? Görünür, gözləri sizdən su içmir. Nəsə anlaya bilmirəm.

- Burda başa düşülməyəcək nə var ki? İnsanın yaxşı görkəmi ötüb-keçənlərin nəzərindən yayırmır. – Qarayanızın özünü nazlandırması Mübarizi də qıcıqlandırdı. – Oğlanlar «gördüklərindən göz haqqı çıxmaq» istədikləri kimi, qızların da çox vaxt gözləri oğlanlara dikilir.

- Dediyinizdən yenə heç nə anlamadım.

- Bu təəccüblü deyil, davranışınızdan anlamaq olar: siz şəhərli deyilsiniz. Buralara yenicə ayaq basırsınız, eləmi?

- Doğrudu. – Utandığından başını sinəsinə salladı. Birdən qulağında uzun-uzadı «ciii!» səsləndi. Dözməyib qulaqlarını bərkdən sıxdı, gözlərini yumdu.

- Sənə nə oldu: üzünün rəngi qaçdı? – qarayanız soruşdu.

- Heç, elə belə, özüm də bilmirəm, qulaqlarım cingildədi.

- Həə, olan şeydi. Yəqin, yaxınlarından adını tutan oldu. Bəlkə nişanlındı?

- Yox, yox, nişanlım yoxdu. – kəkələdi, amma gizlincə istilikdən yanaqları allandı.

- Ola bilməz ki, bu yaşda heç gözaltın da olmasın, - qarayanız əl çəkmədi.

- …

- Baax, gördünmü? Qızlardan gizlənmək ayıbdı. – sırtıq-sırtıq hırıldadı. – İlin-günün bu vaxtında xeyirdimi, şəhərə gəlmisən?

Elə bu anda yaxınlıqdan keçən oğlanlardan biri yeridi Mübarizin lap çənəsinin altına, hirişə-hirişə göz vurdu.

- Bir az cəsarətli ol, oğlan, qızların sırtıqlardan çox xoşu gəlir, gizlətsələr də. İnan day-dayının sözlərinə. – Bir əlini qoydu si-

nəsinə, digərini söykədi boğazına. – Sən də, xala qızı, yazığın gəlsin qədəşə, çox da sıxçalama haa! – Ehtiyatla qarayanızın sol çiyninə toxundu.

- Əlini saxla özündə, ələ, çüşkənin biri! Ağıl verməyi saxla, lazımın olar. Naxal!

- Vot imenno!

- Yeri, yeri, yaramaz oğlu, yaramaz. Sənin kimiləri deyil, şəhəri murdarlayan!

- Getməsəm, nolasıdı ki?

- Sürükməsən, görərsən, nə olacağını?

- Yox, haa, göstər görüm, nəyə gücün çatır! – yeridi qıza sarı.

- Beləmi?! – qarayanız gözlənilmədən onun qolundan yapışdı, burdu, dalına təpik ilişdirdi və dayanıb gülüşənlərə tərəf qolazladı. – Götürün bu filosofu, yolda başa salarsınız! – qışqırdı ufuldaya-ufuldaya qaçanın dalınca.

- Sənə dedik, axı, yolunla düz get. Yetənə yetib, yetməyənə daş atma. Haçansa çənən əzilər.

Xeyli müddət nə Mübariz, nə də qarayanız dinmədi. Sakitcə sahillə addımlamalı oldular. Birdən Mübarizin yadına düşdü ki, qaş qaralır. Qaranlıq küçələrlə kirayədə qaldıqları ünvana qayıtmaq onunçün çətin olacaq. Qeyri-iradi olaraq qarayanızın əlindən tutub üzürxahlıq etdi:

- Allah xatirinə, məni bağışlayın, getməliyəm. Daha gecdi.

- Nə tez? Axı biz tanış da olmadıq. – həmsöhbət heyifsiləndi.

- Sizcə buna ehtiyac varmı?

- Ehtiyac deyəndə ki… Bəlkə, doğrudan da, tanış olaq?

- …

- Mənim adım Gülbənizdi, bəs sənin? – Hiss etdi ki, «siz» desə daha yaxşı olar. – Sizin adınızı öyrənmək olar?

- Adım… adım Mübarizdi. – üzünü soyuq tər basdı.

- Nə gözəl adınız var! Məncə, bu adı hər adama verməzlər. Haçandan şəhərdəsiniz?

- Bir… bir aya az qalıb. Yəqin, siz şəhəri yaxşı tanıyırsınız. Qəbul imtahanına gəlmişdim, - Gülbənizə baxmadan dilləndi.

- Aha, bəxtiniz gətirməyib, eləmi? Daha bu qədər məyusluq niyə? Hər hansı istəyə asanlıqla nail olmaq, maraqsız görünür.

- Bəxtim deyəndə ki… İmtahanlardan kəsilməmişəm. Konkursa düşdüm. Kəndə qayıtmağa…

- Utanan düşmənin olsun. Bu görü-görkəmi olan adam, doğrudan da, xəcalət çəkməməlidi. Üstəlik də adınız… Mübarizdi. Mübarizə həmişə lazımdı son məqsədə çatmaq üçün. Eşitmiş olarsınız: «Ucuz ətin şorbası dadsız olur». «Kişi odur ki, tənəyə tuş gəlmir», - deyərmiş rəhmətlik babam.

Dili-dodağı təpiyən Mübarizin eynəsi açılırdı.

- Mənim də ən sevmədiyim şey – tənədi. Biz bir-birimizə söz vermişdik: mən mühəndis olacaqdım, o – müəllim… O qəbul oldu, mənsə…

- Anladım, anladım. Deməli, sən ondan utanırsan? – «Ondan» sözünü Gülbəniz xüsusi nidayla deyəndə, Mübariz dilini dişlədi: – «Ay avara, birinin yaınnda başqasından danışmaq tərbiyəsizlikdi», – xatırladı atası Babaşın bir zamanlar dediyi sözləri.

- Bəs nə əcəb rayona qayıtmamısan? Yoxsa orda sənin yolunu gözləyən yoxdu?

- Niyə ki, varımdı: atam, anam, qardaşlarım, bacım…

- Elədirsə, şəhərdə də qalıb işləmək olar, nə eybi var. Hara baxsan, fabrik, zavod… - İstəsən, kömək edə bilərəm.

- …

Söhbətləşə-söhbətləşə onda gördüklər ki, «Şəfəq» kinoteatrının qarşısındadılar.

- O, işığı yanan pəncərə bizimkidi. Yəqin, anam işdən qayıdıb: otaqda işıq yanır. Bayaq rastlaşdığımız yerdə hərdənbir görünürəm, işdən sonra. «Bakı şəhər soyuducu kombinatı»nda baş laborant işləyirəm, şinriyyat sexində. Tanışlığımızdan şikayətim yoxdu.

Gülbəniz Mübarizi başdan-ayağa süzdü, təbəssümünü gizlətmədi. Əl tutub ayrıldılar. Səsi yaxınlıqdakı kafedən gələn müğənni özünü yeyib-tökürdü:

«Sizə qurban olum, a qarlı dağlar,
Nə dedim, sevgilim ayrıldı məndən?»

Nəriman Nərimanov kinoteatrına çatanda, nədənsə Mübariz bikef-bikef köksünü ötürdü: gecənin şaxı sınan çağıydı. İndicə baxdıqları filmin tamaşasından ayrılan adamlar danışa-danışa evlərinə, ya da yaxınlıqdakı parka – gecə gəzintisinə yollanırdılar. Mübarizin görkəmi sərxoşluqdan müvazinətini güclə saxlayana bənzəyirdi: kimsədən kömək istəməsə də, ehtiyacdan sıxılır, vargəl edirdi. Müğənnini əvəz edən masabəyi isə sanki şivən çəkir, ağlayırdı:

Səni məndən ayırmağa cəsarətim, gücüm çatmaz,
Necə ki, zirvələrdə günəş yanar, sönməz, batmaz.
Zirvə gər həddin aşar, küfr söyləyər, lovğalanr.
Tuş gələr al günəşin hiddətinə, alovlanar.

Sən özün gəl deməsən, hüzuruna baş əymərəm,
Üzümə açıq qoysan darvazanı, boş döymərəm,
Haşa məndən deyinmək, küsdürməsən, ağlamaram,
Quruyar dil-dodağım, daşa dönər, yalvarmaram.

Bir kərə rədd eləsən, əlbət mənə bəs eyləyər,
Sonradan yalvarmağa qonum-qonşu küs eyləyər,
Yalvarmaq – həyasızlıq, kənd-kəsəkdə səs eyləyər,
Aşiqə inan, gülüm, dedikləri bəs eyləyər.

* * *

…Babaşı evdə qarşılayanlardan ən çox pərişanı Bacıxanım idi. Mübarizi qoyub gəldiyini görəndə, az qaldı saçlarını yolsun, amma Babaşın onsuz da qanıqaralığından çəkindi. Qaynanasının öyüd-nəsihətləri yadına düşdü. «Kişi evin dirəyidi. Onun yanında elə hərəkət elə ki, içini qurd yeməsin, yoxsa tez sınar. Arvad ərin köməkçisidi. Gördün bikefdi, çalış üzü gülsün. Danışmaq – evdə dedi-qodu yaradar. Nə qədər kasıb da olsa, üzünə vurma, «Allah Kərimdi», de!

- Qadan ürəyimə, ay Babaş, ürəyini sıxma, qəddini əymə, kiminsə bundan üzü gülər. Papağını fırlat, bir də gördün vədə yetişdi. Gələn il bir də gedər, qəbul olar, inşallah, sevincək qarşılarıq. Odur ey, Güləbəstənin oğlu üç ildi gedib-gəlir, heç özünü sındırmır. Handa qala, bizimki kəsilmiyib haa! – Babaşın kefi açıldı.

- Səni mənə qismət eliyən Tanrıya canım qurban, ay arvad. Elə danışdın ki, üstümdən yük götürdün, yüngülləşdim. Loxmadan-tikmədən nəyin varsa, gətir, ajınnan inçələrim dalımca gəlmir.

- Niyə özünü aj qoymusan, ay evi tikilmiş? Heç qalbasadan-zaddan, qanservadan da tapmadın? O böyüklükdə şəhərdə qəhədlik idi? Sənnən görünməyən iş! Uşaqların da gözü yoldadı ki, dədəm şəhərdən gəlir.

- Vallah, acığımdan lap əliboş gəlmişəm.

- Bəs uşağı harda qoydun, a dədəm balası?

- Demə, köpək oğlu tərslikdə bizimkilərə çəkib. «Mən kəndə hansı üznən qayıdım, dədə? Qoy burda qalım: həm işləyim, həm də dərslərimi təkrarlayım. Evə qayıtsam, başım qarışajax qoyun-quzuya, bildiklərim də yadımdan çıxajax». O dedi, mən dedim, razılaşmadı. Mənim də hirsim tutdu. Axırda sıvıldım. İndikilər deyir ki, zamana dəyişib, sizin vaxtınız keçib. Gərək biz də ayaqlaşaq, neyniyək?

- Yaxşı, o dedi, sən də irazılaşdın, bəs onun biş-düşü nə təhər oljax, pal-paltarını kim yuyajax, bunu düşünmədin?

- Yataqxanada qalar, istəsə, xalası qızıynan razılaşallar.

- Kişi, ağlını başına yığ, məhlim onlar ər-arvaddı? Noolsun ki, qohumdular, heç nişanlı da deyillər. Belə də söhbət olar, camaat nə deyər bizə?

- Bir ara ver, ay arvad, qoy gətirdiyin yeməyə əlimi uzadım, dayna!

- Yox, yox, ay Babaş, səni olasan Mübarizin canı, acıqlanma.

- Elə əsib-coşmusan ki, deyəsən, axşam geri qayıdajam.

- Belə də yox, ağrın canıma. Beş-on gün gözlüyərik, görək noolur. Əgər çətinliyə düşsə, sorağı çıxajax, görərsən. Onda başımıza çara qılarıx, yaxşımı? Niyə belə dəymə-düşər olmusan ey, son zamanlar? Dilim qurusun ki, səni hövsələdən çıxartmaq istəmirdim. Bir az dincini al, mən də heyvanları örüşə qovum, səs salmasınlar: kış, kış, oynanızı gecikdirmisiz, a selə-suya dönəsiniz! Ölmədiniz haa!

- Yaxşı, sən yeri, mən də gəlirəm bu saat.

* * *

Fermada Babaşı əlimyandıyla gözləyirdilər: kolxozun ümumi iclasında onu həm baş çoban, həm də müvəqqəti zootexnik seçmişdilər. Əlində diplomu olmasa da, diplomludan geri qalmırdı: malqaranın, qoyun-davarın vaxtında peyvənd olmasından başı çıxırdı. Heyvanların döldən salamat çıxması üçün gözünə yuxu getməzdi…

- Ayaqların mübarək, ay Babaş qardaş, Gülbacının vəziyyəti ağırdı, onnan ötrü gəlmişəm, gör neyniyirsən, - sağıcı Hafizə sağ əlilə yaşamağından yapışmışdı ki, sürüşüb düşməsin.

- Ay Hafiizə bacı, axı mən doğum evində işləmirəm, hadıxlıqdan da elm oxumamışam.

- Sənnən başqa bu dağ-qayanın arasında kimə yükünüm, a dədəm qurban? Yazıq səhərdən əlləşir, suyun-tərin içində boğulur.

- Sən məni başa duşmədin, ey, Gülbacınınkı xəstəxanalıqdı. Ordakı doxturlar daha yaxşı bilirlər, onu necə doğuzdurmaq olar. İynə-dərman da əllərinin altındadı. Məni başım çıxmayan işə yollama. Axşam düşməmiş at arabasına qoyun, sağıcılardan da birini qoşun yanına, qaçın xəstəxanaya. Mən girən kol deyil, vallah.

- Babaş qardaş, mən qaşqa Gülbacını deyirəm ey, keçən dəfə ekiz doğmuşdu haa.

- Necə, necə, qaşqa Gülbacı? Sən inəkdən danışırsan? Ay sənin ağlına cəyən əkim, bayaqdan belə de dayna. Elə bildim sağınçı Gülbacıdan narahatsan. Aaz, bayaqdan məni danışığa tutmusan, mıs-mıs deyincən, Mustafa de dayna! – qışqırdı. – Hardadı?

- Çaxmaqqayanın altında.

- Tez ol, atını dəhlə dalımca, vay sənin evinəcən, arvad ki, arvad.

Babaşın fermaya, gah da Mübarizin dalınca şəhərə gedib-gəlməsi Bacıxanımın hələyini kəsmişdi. Bir neçə dəfə istədi ki, Babaşı dilə tutub kənddə saxladığı heyvanların tərgini qılsın, ürək eləmədi. «Onsuz da işi başınnan aşır fağırın, bu yandan da mənim deyingənliyim onu əldən salar» - deyib dilini dişləmişdi.

- Ay Bacıxanım, bir məsləhətim var: deyirlər ağıl ağıldan ötə olar. Necə bilirsən, heyvanlar səni bezarıdıb. Uşaqların da qoyun-

quzunun dalınca sürünməsi müşkülə dönür. Gəlsənə bu işdən əl götürək, nə deyirsən?

- Qadan alım, ay Babaş, belə olsa, onda kimin qapısına ağartı dalıncan uşax göndərərik? Yox, mən razı deyiləm. Ağartısız, toyuq-cücəsiz ev – xaraba dəyirmana oxşar. Kişinin ki, qapısında toyuq qağanaqlamadı, vay gününə. Deyirsən, qaprativdən, yox, ee, biz də gedib mağazeyinnən alarıq? Zəhləm gedir zənbil götürüb bazara getməkdən. Heyif deyil, istədiyin bostan-tərəvəzi, meyvəni, göy-göyərtini öz həyətindən dərəsən, təzə-təzə. Qurban olum kəndə. Taqhataq maşında bazardan gəlincə, bağarsıqların az qalır ağzından gəlsin. Yüyürüb gilənardan, almadan dərirsən, iki-üç tut qoyursan ağzına, dada gəlir marçıldadanda. Bax bunun ləzzəti adamı işdaha salır.

- Deyirsən, fikrim xoşuna gəlmədi?

- Şükür Allaha, uşaqlarımız böyüyür, bir-birinə hayan olajax. Heyvandı, istədiyin vaxt həm ətdi, həm qazanc. Bu gün-sabah evlənəni, ərə gedəni var, göydəndüşmə kimi karımıza gələjək, narahat olma.

- Tfu-tfu, göz dəyməsin, arvad deyil ey, şah sarayının dirəyidi, - dedi və lap birinci gecəki kimi Bacıxanımı gücü gəldikcə sıxdı sinəsinə.

- Səni canın, yavaş, uşaqlar görər, biyabır olarıx, həvəsini saxla gejiyə.

- Boynum qıldı, qıldan da incədi, nə desən, gözüm üstə. Bir yaxşı müjdəm var, muştuluğumu verməsən, deməręm!

- Qadan canıma, nə istəsən, verəjəm, de görüm nədi?

- Bayaq gələndə, Şanxanım bajını gördüm. O, mənnən qoçaq çıxıb. Bakıya gedibmiş, Minayənin yanına.

- Mübarizdən nə xəbər, genə görmüyüb?

- Görüb, görüb, deyir hərdənbir görüşürlər. Təsadüfən ürcahlaşıblar.

- Sənə qurban olum, ay balam. Görəsən, nə deyiblər bir-birinə?

- Tay orasını soruşmadım. Mən nə qədər gədəni dilə tutsam da, susmaqdan başqa bir şey görmədim, ona nə deyəjək?

- Qızın işdəhlərinə baxırsan, Şanxanımı deyirəm… Bə niyə bizə demiyib gedib-gəldiyinnən? Neçə gündü başımı qaşımağa vaxt tapa bilmirəm bu selə dönmüşlərin əlinnən. Deməli, gedib qızının yanına, mənə demiyib ki, şordan-şoqqadan, pendirdən-qaymaqdan yolluyam. Qoy onu görüm, görər nə toy tutajam. Yavaş-yavaş yadlaşırıx? Hələ ölməmişəm ki, kimlərinsə dilinə düşsün uşaxlarımız, ay, hay! Noolub ki, cavandılar, bəlkə, naz eləyillər? Allah eləməmiş, dalaşmıyıblar haa. Qardaş qardaşla dalaşdı, əbləh də inandı?

- Sən gedib hətərən-pətərən danışıb altlarına papaq atma, haa! «Donuzun koolu şamdaydı, it də qovdu bir yannan» olar. İndiyə kimi aramızdan su da keçmiyib, dolanmışıx, innən beləsinə Allah Kərimdi, yaxşımı?

- Booy, əşi, əşi, mən bir o qədər çaşmışam ki? Arxayın ol…

Mübarizin yeni həyatı evdəkilərin ürəyincə olmasa da, özünün xoşuna gəlirdi: az-çox sərbəst idi: zavodda çilingər köməkçisi işləmək, cürbəcür alətlərlə, dəzgahlarla davranmaqdan sanki zövq alırdı. Nəhəng elektrik motorunun düyməsini basıb nəriltiylə işə düşməsini görəndə, uşaq kimi sevinir, gülürdü. Şəhər kino-teatrlarından bəzisinə Gülbənizlə hərdənbir ayaq açmasından sevinirdi. Axşam çağı Nizami kinoteatrından oynaya-gülə qayıdanda, tələbələrin arasında qoltuğunda kitab bikef-bikef addımlayan Minayəni gördü. Özünü elə itirdi ki, utandığından yer yarılsa, torpağa pərçim olardı. Adamlar, ağaclar, binalar başına dolandı. Gözləri qaraldı, başı gicəlləndi, külək qoparmış ağac kimi çırpıldı səkiyə. Dəhşətdən çığıran Gülbəniz onu qucaqlayıb silkələyirdi. Gördüklərindən qorxmuş bu şəhərli qızı elə bağırdı ki, ətrafdakılar diksindi.

- Siz Allah, qoymayın! Kömək, kömək edin! Buna nə oldu?! Ay camaat, ay qızlar, yapışın bu oğlandan! – Mübariz bir parça ət kimi o yan-bu yana yıxılır, müvazinətini saxlaya bilmirdi. Hərə bir yannan əl uzatsa da, Minayə lam qalmışdı. Onun belə dayanmasından Gülbəniz də heyrətləndi. Səs-küyə yüyürən gənc milis leytenantı yaxınlıqdan şütüyən «Volqa»nı fitə tutdu.

- Yoldaşlar, köməkləşin bu oğlanı qaldıraq maşına! – desə də, Minayə baş verənlərə maddım-maddım baxmaqdaydı. – Niyə dayanmısan, əlini yeyəcək?! – leytenant bağırdı.

- Kimlə gəzməyə gəlibsə, qoy o da əl uzatsın, - kinayəylə dilləndi. – Özü yıxılan, ağlamaz. Görünür, adamları tanımaq çox çətinmiş. «Qoy qoşa ötüşsün eşqimiz aşkar, olmayaq kimsəyə nə ovçu, şikar», - rişxəndlə öz-özünə mızıldandı. – Ovçuya bax, şikara bax! Güvəndiyim dağlar, sizə də qar yağarmış.

- Ey, kimə monoloq söyləyirsən, gic-gicə! – leytenant dözmədi.

- İndi başa düşürəm, niyə hərdən atmacalı danışırdı. – Heç nə olmamış kimi Minayə öz aləmindəydi. Mübariz ağır-ağır nəfəs alırdı.

- Allah, Allah, beləsindən uzaq elə bəndəni! Ay qız, bu oğlanı tanıyırsan? – Gülbənizdən soruşdu leytenant.

- Bizim zavodda işləyir, rayondan gəlib, çilingər köməkçisidi.

- Bəs sən, xanım qız? – üzünü Minayəyə çevirdi.

- Tanıyırdım, innən belə yox! – aralanmaq istəyəndə, rəfiqələri gileyləndi:

- Heç səndən gözləməzdik! Adam dostunu dar ayaqda qoyub qaçar? Eşidənlər nə deyəcəklər?

- Nə istəsələr, onu da deyəcəklər, kimin ağzın bağlamaq olar?

- Pahoo, yoldaş leytenant, baxıram, deyəsən, oğlanın iki adaxlısı varmış. İcazə verin, mən yolumdan qalmayım? Odur ey, oğlan da gözlərini açır. Siz aydınlaşdırmaqda, mənsə… münkünsə.

- Yaxşı, sən azadsan! – leytenant sürücüyə işarə etdi.

Baş verənlərdən agah olmaq istəyənlər deyinə-deyinə, bir-bir, iki-bir aralanırdılar. Mübarizsə maddım-maddım baxır, key qalmışdı. Leytenant onun qoltuğundan yapışıb qaldıranda, Gülbəniz əl dəsmalıyla şalvarının, köynəyinin tozunu çırpdıqca, Minayə kinayəylə tamaşa edirdi. Birdən istədi ki, şəhərli qızının qolundan tutub gücü gəldikcə fırıldatsın küçə boyu: «Nə yoğurdun, nə yapdın, hazırca kökə tapdın, ifritə!» «Yox, belə olmaz, küsənin malın yeyərlər» deyib gülərlər mənə. Yəqin, mən də ehtiyatsızlıqdan bəlgəni vermişəm suya, indi isə ora-bura boylanıram. Yaxın qohum olsaq da, mən ona dilağız da etmədim. Qəbuldan bir il keçib, bir-birimizi aramamışıq» - özünü danlayırdı.

- Ay uşaqlar, deməyin ki, paqonlarımın xatirinə sizi ora-bura çəkişdirirəm. Əsla belə deyil. Dördümüz də, anladığıma görə, həmyaşıdıq, hərçənd qızlar oğlanlardan çoxbilmiş olurlar. Heç bir rəsmiyyətçilik yoxdu, inanın. Necə deyərlər: «Qonşuna bax, özünü oda yax». Bu yaxınlarda mən də gözaltı elmişəm. Belə işlər mənə də dərs olar. Əgər razı olsanız, gedəyin Sahil bağına, oturub söhbətləşərik, hirsimiz-havamız da soyuyar. Təklifimi bəyənsəniz, minnətdar olaram, - yanındakıları süzdü.

- Nə deyirəm, mənə qalsa, yaxşı olardı, - hələ də olanlardan çaş-baş qalan Mübarizlə Minayəyə baxan Gülbənizin üzündə xəfif təbəssüm görünürdü. Yol boyu addımladıqca, onun gözləri qıyılır, intizarla rəngdən-rəngə bürünən üzü gah yaşlılarınkı kimi nuranilәşir, gah da fağırlanırdı.

Çox çəkdi söhbətləri. Özündən başqa heç kəsi Gülbənizin başına gələnlər maraqlandırmadı. Heç bildirmək də istəməzdi, nəyə gərək kimlərinsə ona təskinliyi?

* * *

...Balıqçı gəmisində işləyən Xəlil təzəcə evlənmişdi dəniz səfərinə yollananda. Elə sevinirdi ki, subaylığın daşını atdığına görə. Texniki peşə məktəbini bitirmişdi uşaq evində böyümüş, hamının «Qadalı qızı» deyə çağırdığı Hənifəylə tanış olanda. (Bir zamanlar Xəlilin atası da Qadalıdan qaçıb şəhərdə yaşamaq istəyib, amma uğursuzluğun qurbanı olub). Dənizkənarı parkdan qayıdanda, qarşılaşdığı sərxoşla sözləri çəpləşir Xəlilin. Əlində araq butulkası tutmuş sərxoş ləngərlənə-ləngərlənə yaxınlaşır Xəlilin əlindən yapışıb başını ərinin çiyninə qoymuş Hənifəyə. Əyilib Hənifəni öpmək istəyəndə, qadının zərbəsinə tuş gəlir. Hiddətlənmiş sərxoş əlindəki dolu butulkanı Hənifənin başına vurmaqla asfalta sərilməsi bir olur. Doğum evinə çatdırılsa da, Hənifəni xilas edə bilmirlər.

Nələr çəkmişdi Xəlilin başı doğulan kimi yetimliyin zəhərini içmiş Gülbənizi böyütmək üçün. Fələyin rəhmi gəlmədi hirsindən bağrı çatlayan Xəlilə. Uşaq evindən hamiliyə götürülmüş Gülbəniz Qadalı qızı Hənifənin yadigarıydı.

Acından dizləri qatlansa da, ögey ana Dilrubə süfrəyə yaxın gəlməzdi Gülbənizsiz. Sən demə, Dilrubəni aldadıb qaçmış sürücü də Qadalıdanmış.

Leytenantın hərdən qəhqəhəylə gülməsi, Mübarizin yetim quzu kimi gözlərini döyməsi, Gülbənizi yandırıb yaxırdı. İçin-için hıçqırır, pıçıldayırdı:

Bu necə dərddi mənə fələk verib, çəkməliyəm?
Nə günah eyləmişəm, qəm toxumun əkməliyəm?
Gecə-gündüz çalışıb tikdiyimi sökməliyəm?
Niyə gəldim həyata, cavab nədən tapmayıram?

Baxıram dörd tərəfə, kimsə əkir, kimsə biçir,
Boğulur qəm içində, kimsə çəkir, kimsə itir,
Od tutub alovlanır, tüstülənir, ya ki, keçir,
Baş aça bilməyirəm, sirrə cavab tapmayıram!

Niyə insanları biz dərd içində görməliyik?
Hər yaranmış birisin «kor» biçimdə görməliyik?
Verilən ömrümüzü gor köçündə sürməliyik?
Ay bacım, ay qardaşım, cavab nədən tapmayıram?

Kimi torpaq qazıyır, ah içində ömür sürür,
Kimi yaltaq yaşayır, kef içində ömür sürür,
Yaşayır toy-bayramla, gah sevinir, gah da gülür,
Bilmirəm hara qaçım, cavab tapa bilməyirəm!

- Niyə danışmırsınız, yamanca qəmli görünürsünüz? Bəlkə mənim «özümdən razı» görünməyim sizi dilxor etdi? – leytenant gözlərini yanındakılara zilləmişdi.

- Yoox, niyə ki, hərənin talehi özündən qabaq gəlir dünyaya. – Gülbəniz köksünü ötürdü. – Kim bilirdi ki, tanışlığımız belə olacaq?

- İstəməzdim küskünlüklə ayrılaq, amma nə etməli? Hələlik, dostlar. Bir də görüşsək, kaş belə olmasın. – leytenant Mübarizin əlini sıxdı, qızlara baş əydi, yönəldi vıyıltıyla şütüyən maşınlara sarı.

Otuqduqları yerdən heç kim qımzanmadı: sanki hamı yapışmışdı skamyaya.

Dənizdən gələn xəzri gah Gülbənizin pərişan saçlarını çiyinlərində oynadır, gah Minayənin mavi yaylığını yellədir, Mübarizin hələ də ağarmaqda qalan yanaqlarını sığallayırdı.

- Məni bağışlayın, anamın işdən gələn vaxtıdı, geciksəm, narahat qalacaq. Mən getməliyəm. Ruslar demişkən, «üçüncüsü artıqdı». Hələlik. – günahkar kimi gülümsəməyə çalışsa da, alınmadı. Dayanacağa yan almış trolleybusun dal qapısı örtüləndə, gözücü da olsa Mübarizə baxdı. Kədərlə təəssüf onu üzürdü. Konduktor qadın «vətəndaşlar, bilet almağı unutmayın» deyəndə, Gülbəniz özünü saxlaya bilmədi: gözləri doluxsunmuşdu, ağ bulud topası kimi…

- Qızım, niyə belə qaralmısan, iş yerində hadisə olmayıb ki?

- Yox, anacan, yorğunam, nədənsə ürəyim sıxılır, bağışla, - deyib yollandı yatağına.

- Bəlkə yüngül geyindiyindən soyuqlamısan, hava bu gün dumanlıdı? Bu saat anan sənə pürrəngi, mürəbbəli-limonlu çay gətirsin, içərsən, ağrın-açın çıxar. Gözümün işığı, evimin yaraşığı qızım mənim. Səni qaşqabaqlı görəndə, dünya başıma dolanır. Səni and verirəm atanın ruhuna, nə qədər üzgün olsan da, çalış gülərüz görünəsən! Günəş adamların üzünə güləndə, hamının ruhu sevnir. Qara bulud küskünlük, ağ bulud göz yaşlarını andırır, - Gülbənizin saçlarını sığalladı, alnından öpdü.

Qadalı qızı ha çalışdı ovundursun, könlünü oxşasın, Gülbənizin eynəsi açılmadı ki, açılmadı. Nazik ipək örtüyü çəkdi üzü üstə uzanmış «qızının» kürəyinə, ayaqlarının ucunda otaqdan çıxdı.

«İndi-indi üzüm gülür, sevinirdim, hardan gəldi, - istədi «mərdimazar» desin, dilini dişlədi. – Bəlkə mərdimazar elə özüməm? – düşündü Gülbəniz. Çalışdı yuxulasın, alız-uluz dolanırdı başında.

- Qızım, dur gedək yemək otağına, yaxşıca çay dəmləmişəm. Televizorda tamaşa gedir: «Uşaqlığın son gecəsi», - susdu, amma

tab gətirə bilmədi, söhbəti dəyişmək istədi. – Nədənsə Mübariz görünmür, xeyir ola? – az qala qorxa-qorxa soruşdu. Dilrubə xanım. – Bəlkə… mübahisəniz olub?

- …

- Qızım, onun əlinin dərisi çox cod görünür, deməli, zəhmətkeş ailədəndi. Belə adamlar etibarlı olurlar, anana inan. Hər kiçik sözdən ötrü istədiyin adamı küsdürmə, sonradan barışmaq çətin olar. Nəbadə deyingən olasan, özünü də korlasan. – Gülbəniz susur, danışmaqdan yan keçirdi.

* * *

…Qadalıdan gələn xəbərlər Minayənin kefinə soğan doğramaqdaydı. Əlişlə çənəboğaz olmaqdan zara gəlmiş Samirə bir neçə dəfə özünə qəsd etmək istəyib ki, evə qayıtsın. Qalmaqallar ən çox Əlişin əmisi Hüseynqulunun zəhləsini tökürdü: evə gələn kimi hay-həşir görürdü.

- Bilirsən nə var, evimə xoşniyyətlə gəldin, rədd etmədim, amma sizin dava-dalaşınızdan bezmişəm: ağrımaz başıma duz bağlayıram. Gətirdiyini götür, qayıt evinizə. Evlənən belə qələt eləməz. Kəndin camaatını vurmusan bir-birinə, bununla nə qazandın? Əvvəl-axır pozuluşacaqsınız. Heç bacı-qardaşını fikirləşmisən?

- Əmi, bir qələtdi, eləmişəm, barı sən günahımdan keç!

- Özün qazdığın quyudu. Adam suyunu içdiyi quyuya tüpürməz, oğul! Bu səninçün çox baha olacaq! Hansı üzlə adamlara baxacaqsan? Bilmirdin, hirsin başa ziyanı var? Ağzına qoyduğunu udmazdan qabaq çeynəməliydin. İnanma ki, Qadalılar görüşünə gülçiçəklə çıxarlar. Bu başıboş da sənin yersiz hədə-qorxundan hürküb qaçanda, yıxılıb bataqlığa. Özü yıxılan, ağlamaz!

- İndi mənə məsləhətin nədi? Haranın daşın başıma çırpım?

- Gətirdiyini də götür, başına özün çarə qıl. «Ulusunun sözünə baxmayan, uluya-uluya qalar…»

Bir il ötmüşdü ki, Kəbirə adamların üzünə baxmaqdan qaçırdı. Əliş «suyu süzülə-süzülə» qayıtdı anasının yanına. Səhərə kimi danışıb-dilləşdilər, Samirəni yola gətirdilər ki, gecənin birində Uzaq Sibirdəki qohumlarının yanına getsinlər…

- Yaxşı, de görüm, fikrin nədi? Minayəylə aranızı düzəldə biləcəyikmi? – Bacıxanımla Şanxanım bir-birini sınayırmış kimi Mübarizə baxdılar.

- …

- Bəlkə o bakılı qızıynan him-ciminiz olub, açığını de, biz də bilək. Yoxsa əl çəkən deyilik. Utananın zürüyəti olmaz, ey. – Şanxanım Bacıxanıma göz vurdu.

- …

- Ağzına su almısan, dillən dayna! Birəm-birriyim haqqı səni düzdə qoymarıq. Qohumluğumuzu pozanın gözünə ağ gələr. Sən də mənimkisən, Minayə də. Mərdimazara lənət. Bəlkə elə haray bəri başdan? «Ziyanlığın yarısınnan» deyiblər. – Şanxanım əl çəkmədi.

- Sənə qurban olum, ay xala, necə deyim ki, məni daş-qalaq etməyəsiniz, -Mübariz əllərilə başını tutmuşdu ki, hönkürdü.

- Dərdin ürəyimə, vallah, səni də, Minayəni də incitmək fikrimiz yoxdu. Noolsun ki, bir yerdə böyümüsünüz. Arzunuz, istəyiniz bir olsa da, bəlkə yolunuz ayrıymış, - deyəndə Mübarizin rəngi ağardı. Əlini ağzına tutub hıçqıra-hıçqıra qaçdı həyətə.

- Booy, başıma xeyir, bu nə işdi, düşdük! Elə bil gədənin də, qızın da dilini bağlayıblar! Cadu yazıblar, bəlkə? Daş dillənir, bunlar dillənmir. Nə yardan doyurlar, nə əldən qoyullar. Dərdimizi kimə deyək? Babaş lap dəli olajax, düzünü bilməsək! Nə xəbər aparaq kəndə?..

Mübarizi soyuq tər basırdı Minayəni təsadüfən görəndə. Hər ikisi başını qaldırmadan salamlaşar, ayrılardılar.

- Salam.
- Əleyküm salam.
- Necəsən?
- Sağ ol.
- Kənddən nə xəbər?
- Bilmirəm.
- İşlərin necədi?
- Elə belə. Dərslərini çatdıra bilirsən?
- Pis deyil. Mənə sözün yoxdu?

- Xeyir.
- Salamat qal.
- Sən də.

Beləcə ayrılar, ürəklərindəkiləri bildirməzdilər. Son görüşdən bir ay keçmişdi. Amiak sexində baş vermiş nasazlıqdan sıradan çıxmış sorma qurğusunu işə salanda, qəza baş vermişdi. Sexə yayılmış zəhərli qazdan huşunu itirən Mübarizi təcili yardıma qaldıranda, Gülbəniz üzünü cırmış, saçlarını yolmuşdu qorxusundan.

Musa Nağıyev adına mərkəzi xəstəxanaya taksiylə gələn Gülbənizin harayını görənlər dözməyib üzlərini yana tuturdu.

- Qızım, özünü ələ al! Yaxşı ki, xəstəxanaya tez çatdırıblar, yoxsa kim bilir, nə olarmış. Şükür elə ki, təhlükə sovuşmaqdadı, - yaşlı həkim onu sakitləşdirmək istədi.

- …

- Oğlan sənin nəyindi, bala, özünü bu hala salmısan? – ağ xalatlı qadın Gülbənizin qolundan tutub üzündəki qan ləkələrini təmizləyirdi.

- …

- Cavansan, adam ən ağır dərddə belə əlini üzünə atmaz. Bunu heç qocalara da bağışlamaq olmaz. Sənin nə vədəndi ki?

- …

- Kimin var səninlə? Yanında qalmaq lazımdı.

- …

Xeyli çəkdi alınlarındakı tər damcılarını silə-silə reanimasiya otağından çıxan həkimlərin gülümsəməsi. Gecə səhəri qucaqlamaqdaydı.

- Narahat olma, qızım, xəstənizin yönü bəridi! Bir çörək sən ye, birini dilənçiyə ver. Sabah gələndə, çolpa şorbası gətirə bilərsən. Əti sənin, şorbası onun, yaxşımı? – deyəndə, Gülbəniz istədi qoca həkimin əlini öpsün.

- Bax bunu məsləhət görmürəm, yoxsa günaha bataram.

- Minnətdaram, doktor. Ömrüm boyu unutmayacağam. Çox lütfkarsınız.

- Kiminsə sağ qalmasına Tanrı izn verir, qızım, biz isə Ona quluq.

Hər gün zənbilində buğlana-buğlana gətirdiyi xörəkdən əvvəlcə Gülbəniz dadmasa, Mübariz əl uzatmağa qıymırdı utandığından. Dilrubə xanım cüt qaranquş kimi bir-birinin üzünə baxıb yan-yörəyə boylanan Mübarizlə Gülbənizi görəndə, qanadlana bilsəydi, buludların lap üstünə qalxmaq, yerdəkilərə «Məni görürsünüzmü, insanlar?» deməyə hazır idi.

Xəstəxanada olanda, Mübariz dəfələrlə yuxusunda Minayəni əlində kitab-dəftər dolu çantayla kimsəyə baxmadan addımlayan görmüşdü. Bir dəfə cəsarətlənib «İşlərin necədi, xalaqızı?» - çağıranda, öz səsindən diksinmiş, onun üz-gözünün tərini silən Gülbənizi çarpayısının yanında görmüş, dodaqlarını dişləmişdi. Bütün bunlara Bakılı qızı göz yumur, biruzə vermirdi.

Müalicədən çıxıb əvvəlcə zavoda, yoldaşlarıyla görüşməyə getmək, sonra ilk görüş yerinə yollanmaq istədilər.

- Bir saatlıq da olsa, əvvəlcə bizə getsək, necə olar? – Dilrubə xanım ehtiyatla soruşdu. Gülbəniz anasının boynunu qucaqladı, vaxtından qabaq «qarlanmış» saçlarını sığalladı, üzündən öpmək istəyəndə, «Məni utandırma, qızım, üzümün qırışları xoşuna gəlməz, çünki çox duz toplanıb». – üzürxahlıq etdi. – Kaş… Kaş niyyətiniz hasil olsun, bu mənim ən böyük arzumdu.

«Şəfəq» kinoteatrına çatanda, Gülbənizin ürəyi az qala «pırr» edib uçacaqdı.

- Qoy bu dəfə otağın qapısını Mübariz açsın, - Dilrubə xanım Gülbənizə baxıb gülümsündü.

Mətbəxdəki kiçik stolun üstündə qoyulmuş güldandakı rənbərəng çiçəklərin ətri otağa xoş təravət yayırdı. Üçüncü dəfəydi Mübariz bura qədəm basırdı, həmişəki kimi utanırdı.

- İkiniz də bir az üzüntülü görünürsünüz. Yeməyimiz hazırdı. Bir-iki loxma kəssəniz, məmnun olaram. – Üstünə qalın örtük atılmış qazanın qulpundan yapışanda, «Qoy mən götürüm, ana!» - Gülbəniz özünü atdı irəli.

- Bilmirəm, zəhmətinizin əvəzini qaytara biləcəyimmi? – Mübariz astadan dilləndi.

- Nə zəhmət, oğlum, sən də mənim balam kimisən. Kaş yaxınlarınızın yanında utanmayaq! Gülbənizdən başqa mənim kimim var? Onu xoşbəxt görsəm, sanardım dünya mənimdi.

Dilrubə xanımın sözlərindən bəlli oldu ki, Gülbənizlə Mübariz yaşıddılar.

- Qızımın azacıq yaşlı görünməsinə səbəb səkkizinci sinifdən əməklə məşğul olmasıdı. Bax, bu da onun pasportu, - Mübarizi xəcalət təri haqladı, bilmədi nə desin.

- Ana, bu nəyə lazımdı, Allah xatirinə, məni utandırma! – Gülbəniz məzəmmət etdi…

* * *

İkinci il idi ki, xalauşaqlarının görüşləri get-gedə seyrəlirdi, unudurdular məktəb illərini. Nəsimi rayon hərbi komissarlığından aldığı çağırış vərəqəsini Gülbənizdən gizlətməyə çalışsa da, Minayənin də qulağına çatmışdı. Zavodun mühasibat otağından çıxanda, Gülbənizlə sinə-sinəyə toqquşdular.

- Xeyirdimi, şef səni niyə çağırtdırıb?

- Maaşımı hesablatmaq üçün mühasibatlığa göndərmişdi.

- Nədən ötrü?

- Məni əsgərliyə çağırıblar, - Gülbənizin rəngi tutuldu.

- Gedirsən?

- Əlacım yoxdu.

- Bəs mən?

- Elə bilirsən mənimçün asandı? – ev tapşırığını həll etməmiş şagird kimi başını sinəsinə salladı. – Bir O bilir, nələr çəkdiyimi. – Daha danışmadılar bir müddət. İkisi də buzlu suya düşmüşə oxşayırdı. «Əsgəri xidmət müqəddəs borcdu!» siyasətindən qaçmaq mümkünsüz idi.

- Bəs nə etmək istəyirsən?

- Heç özüm də bilmirəm. Üç gündən sonra qruplara bölüb Biləcərdən yola salacaqlar.

İsti külək adamların əhədini kəssə də, Gülbənizin yanaqları ağarmış, dizləri titrəyirdi.

- Bu nə işdi, başımıza gəldi? Bəxtim məni niyə bu qədər sınağa çəkir? – sızıldadı.

- Yəqin, yazımız beləymiş. Alnımıza yazılandan qaça bilmərik, gülüm! – İlk dəfəydi Mübarizin dilindən səsləndi bu sonuncu söz, bu xitab. Gülbəniz özünü ələ ala bilmədi. İkisi də sarıldı bir-birinin boynuna. Onların öpüşlərinə sığal verən göz yaşları çağrılmamış qonaq kimi hazırda durmuşdu. Hər ikisinin dodaqları xırçıldayır, qanayır, amma dözürdülər. Çiyinlərinə səpələnən dəniz suyunun damcıları paltarlarını islatsa da, bilməzliyə vururdular, ayrlığın acısına necə dözəcəklərini düşünürdülər.

- Bu şarpaşurpun altında özünüzü niyə isladırsınız, ay uşaqlar? – yaxınlıqdan keçən yaşlı milis kapitanı həsəd apardı.

* * *

Mübarizi əsgərliyə yola salmaq üçün gəlmiş Babaş, Bacıxanımla Şanxanım ha çalışdılar şux dayansınlar, bacarmadılar. Ömründə papirosu lənətləsə də, «zəhrimarın» dənələrini bir-birinin oduna qalayırdı.

Bu da xoşlanılmaz anlar: dərindən nəfəsini toplayıb pufuldayan qatar hərəkətə gələndə, Minayənin əlindəki yaylığı alıb başının üstündə yellədən Şanxanımın gözləri taqtaraqla stansiyadan uzaqlaşan vaqonların birinə – Mübarizin də dayandığı vaqonun pəncərəsinə zillənmişdi. Mübarizin əlini sıxan, saçları çiyinlərinə səpələnmiş Gülbənizin əlindəki gül dəstəsini görəndə, Bacıxanım dözmədi.

- Booy, bu kimdi belə, ay qadan alım? – Babaşın əlindən yapışdı. O niyə özünü yeyib-tökür? – Üzünü qatarın dalınca maddım-maddım baxan Minayəyə tutdu. – Aaz, səninləyəm ey! Onu tanıyırsan? Bu ləçər hardan çıxdı?

- Tanıyıram, xala, elə deməyin. O, siz deyənlərdən deyil, - köksünü ötürdü, - yaxşı qızdı.

- Həə?

- Həə.

- Bəs niyə Mübariz bizə heç nə deməyib indiyə kimi? – Şanxanım yaxınlaşdı qızına. Minayə üzünü yana çevirdi.

- …

- Siz Allah, qanqaralığı salmayaq uşağın səfər vaxtı. Hər şeyi dözmək aparar. Almanı atıblar göyə, yerə düşüncən «ya qismət!» deyiblər. – Babaş əlindəkindən bir nəfəs də möhkəm sümürdü, ayağının altına atdı.

* * *

Gülbəniz get-gedə sürətini yeyinləşdirən qatarın dalınca yüyürür, ayaqları perrondakı çala-çuxura düşsə də, yıxılmamağa çalışır, axşamın alaqaranlığında get-gedə kiçilən Mübarizdən, onun yellənən saçlarından gözlərini yayındırmırdı. Çiynindən ağ rəngli şərf sallanmış Gülbənizdən bir an ayrılmaq istəməyən Dilrubə xanım da uzaqlaşan qatara əl edir, gedənlərin salamat qayıtmasını «bütün yaranmışları öz ixtiyarında saxlayan gözəgörünməz Kimsənədən» arzulayırdı.

* * *

Gülbənizin üzüqoylu uzanaraq çarpayıdakı hıçqırtısına dözməyən Dilrubə xanım ona yaxınlaşdı, təzəcə hörülmüş saçlarını sığalladı, söz deməyə aciz qaldı. Belə göz yaşları ona öz uşaqlıq çağlarından tanış idi. «Dərd batmanla gəlir, qayıtması isə müşkülə çevrilir», - fikirləşirdi.

Qəm-qüssəli qəmxarımı qovalayan qövsiqüzeh, qoyma qaçım,
Qəminə qəm qatanı qorxudursan, qərarını qıyma qalsın.
Qəmi qəmlə qurtaranı qılıqladın qova-qova, qoydun qaçdın!
Qəmi qəmə qovuşdurdun, qıyma qalım qovğalarda, qurtarsana? –

oxumuşdu cavanlığında rəfiqəsinin gündəliyində. Bişirdiyi xörəyə, dəmlədiyi çaya əl uzatmadı. Mətbəxbədəki pəncərənin qarşısında dinməzcə oturub şaxə qalxan dalğalarının çoxlarına bəla verdiyi, üzü üzlər görmüş Xəzərin hayqırtısına qulaq asır, gəlimli-gedimli dünyanı qınayırdı.

* * *

…Salehin toyunu məyus edən Əlişdən xəbər yox idi. «Yaxşı ki, canımız qurtardı biqeyrətdən». «İt də getdi, ip də getdi». Beləsinin adı batsa yaxşıdı. Həndəvər kəndlərdə bizi məsxərəyə qoyub, gözümçıxdıya salıblar: «Qadalısınız dayna!» deyirlər».

Salehdən isə az-çox xoş xəbərlər gəlirdi. Axtara-axtara Qubanın Uluslar kəndinə gəlib çıxmışdı Tapdıqla Müxəstə. Kənd sovetinin sədri Qurbanqulu kişi əziz qonaqları kimi qarşıladı onları.

- Sizi bu yerlərdə görməkdən çox sevinirik. Xoş gəlib, səfa gətirmisiniz! Ulusların duz-çörəyi Salehinizin də halalı olsun. Vallah, o gələndən, hamı başına and içir. Ədəb-ərkanlı oğlandı. Maşallah olsun onu böyüdənlərə. Buyurun evimizə. Yoldan gəlmisiniz. Çaydan-çörəkdən «bismillah» edincə, at göndərərəm, gəlsin. Salehdən tam arxayın ola bilərsiniz. Səhər tezdən Ağakərimlə sahələrə çıxıblar. Qayıdan vaxtlarıdı.

- Nə deyirik, ay qardaş! Eviniz abad olsun. Deyir, dağ dağa rast gəlməsə də, adam adama tuş gələr. Tanrı yaxşıları pənahında saxlasın. Yəqin, oğlunuz, bəxtindən yarıyanlardan olsun, başımıza gələnlərdən danışıb. Mərdimazara lənət. Yeganə balamızdı, yurd-yuvasından perikdi.

- «Bütöv naxırın adını bir dana batırar», - deyiblər. «Qurban olum o şərə ki, içində xeyirim ola». Sizə yaxşı müjdəmiz var. Əgər məsləhətimiz tutsa… Bax! Odur, ey, oğullarımız cüt göyərçin kimi gəldilər. Ay maşallah!

- Gör kimləri görürük! Ayağınız sayalı olsun, ay Tapdıq əmi, Müxəstə bibi! Nə yaxşı bizləri sevindirdiniz! Gəlişiniz lap yerinə düşdü. Neçə gündü sağ gözümün üst qapağı titrəyir. Ürəyimə dammışdı gəlişiniz, - dil qəfəsə qoymurdu Ağakərim. Qollarını Tapdıqla Müxəstənin çiynindən çəkmək istəmirdi.

- Ay oğul, bir dayan, qoy Salehlə də görüşsünlər dəə! Görmürsən, kənarda durub səni gözləyir! Yaxın gəl, oğlum, gör kimlər gəlib ey! Bu gün əməllicə sevindik! Buyurun, bu da sizin, yox, yox, həm sizin, həm də bizim oğlumuz. Şükürlər olsun, sağ-salamatdı, -

Qurbanqulu kişi Salehin də, Ağakərimin də üzündən öpdü, qaça-qaça yollandı həyətə.

- Gözümüzün işığı balam, sənnən ötrü burnumuzun ucu göynəyir. Şükür Yaradana, gəldik, görüşdük! Necəsən, qadan ürəyimə?

- Vallah, bilmirəm, nə deyim! Qurbanqulu əmi məni Ağakərimdən uzaq qoymur. Yağ içində böyrək kimi bəsləyir. Özünüz də gördünüz, can qurban etməli adamdı.

- Bibi, ay bibi, zəhmət olmasa, əminin də əlindən tut, bax bura gəl! Bu otaq mənimlə Salehin yataq otağımızdı. Burda isə nahar edirik, bu otaqda əylənirik. Xoşunuza gəlir? Niyə dinmirsən, əmican?

- Gəlir, başına dönüm, gəlir. Nə sözümüz ola bilər? Təki siz mehriban olun, dərdiniz ürəyimə, - Müxəstə özünü verdi irəli. «Axtardığım yar idi, rast gəldi pərvərdigar» - düşündü.

- Dost gəlişi bayram olar, Tapdıq qardaş! Sizə elə qonaqlıq eləyəcəm, dost sevinsin, paxılın bağrı partlasın.

Həyətə axışan qonum-qonşudan, qohum-əqrəbadan hər biri sevinirdi, gah qazan qarışdırır, gah da samovar tüstüləndirirdi. Sən demə, ev sahibləri belə məqamı çoxdan gözləyirmiş. Müxəstəylə Tapdığı bir neçə görməli-gəzməli yerə də apartdılar. «Qadalı hara, Uluslar hara», - düşünürdü Müxəstə. «Başıma xeyir, biz də deyirdik ki, gün keçiririk». Birdən sanki kimsə çimdiklədi: «Buraları gördü, haa, Saleh Qadalıya qayıtmaz, yüzü yüz söz deyə». «Varım-yoxum sənə qurban, ay Allah, özün deyən olsun» - yalvardı…

* * *

Kənd məktəbində müəllimlik edən Sədaqətin yerişi-duruşu, davranışı Salehin də gözündən yayınmamışdı. «Biologiya» bağına baxış zamanı Salehlə Sədaqət «gözucu» söhbətləşdilər də. Həyətdəki cır meyvə ağaclarını calatmaq üçün Sədaqətin atası ondan xahiş edəndə, aqronomun ürəyi elə döyündü ki, bilmədi nə desin. «Çağrılan yerdən qaçma!» - eşitmişdi lap uşaqkən. Ucu-bucağı görünməyən həyətdə calaq işlərini qurtarıb getmək istədi ki, Tanrıverdi kişi az qaldı yapışsın onun qolundan.

- Oğul, süfrədəkilər küsər, əgər loxmamızdan nuş etməsən. «Qonağın mərifəti, ev sahibinin nəzakətidi» deyiblər. Buyur, - süfrəyə işarə etdi. Bir Tanrı bilirdi Salehin «çəkdiklərini».

Həddən artıq ehtiyatla davranmağa çalışsa da, qorxduğu başına gəldi: Sədaqətin əlindən çay stəkanını alanda, nəlbəki yerə düşüb çilikləndi. Saleh yamanca pərt oldu.

- Siz Allah, bağışlayın, vallah qəsdən eləmədim! – üzürxahlıq edəndə, Tanrıverdi kişi altdan-altdan gülümsündü.

- Narahat olma, ay oğul, başımıza gələn işdi. – Qızım, şüşə qırıntılarını götür, ayrı nəlbəki gətir. Yaxşı ki, qonağımızın əli yanmadı.

Yamanca tutulmuşdu Saleh: sanki ləzzətli yeməklər Salehi yeyirdi. «Nə fikirləşərlər haqqımda? Niyə özümü itirdim axı». «Bəlkə… bu…»

Göz oxşayırdı kolxozun meyvə bağları: sırayla əkilmiş ağaclardakı meyvələr «gəl-gəl» deyirdi görənlərə. Uca dirəkdən asılmış radio cihazının sədası qulaqlara rahatlıq gətirirdi: «Qubanın ağ alması, yeməyə dağ alması»…

Yaşıl örtüyə bürünmüş dağlardan qayıdan əks-sədanı eşitdikcə, Salehin də qüruru artırdı. «Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı» deyimi beynini qıcıqlandırırdı…

* * *

- Başıma xeyir, ay kişi, bu gədəyə qurd yağı yedirdiblər, nədi, gedəndən bəri gözümüz yollarda qalıb, qulağımız səsdə. Niyə səs-soraq yoxdu? – Bacıxanım yalvarıcı nəzərlə Babaşa baxdı, ağlamsıdı.

- Elə mənim də matım-qutum quruyub. Heç olmasa, getdiyi yeri bilsəydim, canımı dişimə tutub payı-piyada yollanardım dalınca. Yer qatı, göy uzaq. Yönümü hara tutum ki, hamıya xoş gəlsin. El içində sözə düşmüşük, belə də rüsvayçılıq olar? Sevinirdim: oğlum böyüyüb, qoluma dayaq olajax.

- Bəlkə vayankoma gedib soruşasan? – Bacıxanım yalvardı.

- Yox, ay arvad, o, şəhərdə qeydiyyatdaydı, ordan da yolluyublar. Ürəyimə damıb: bizə yazmasa da, o şəhərli qızına yazma-

mış olmaz, inanmıram. Bəlkə, gedib onnan bir xəbərdən-ətərdən bilim, ağlın nə kəsir?

- Ağlım olsaydı, arvad doğulmazdım ki? Özüm öz əlimnən uşaq böyütmüşəm, başqasının sözüynən oturub-durur.

- Belə danışma, bəlkə, o qızın ata-anası bizdən dərrakəlidi? Bilmək olmaz, nahaq yerə xalxın qeybətini eləmə. Darhövsələ olma, bəlkə məktuba icazə vermirlər, vayennidi axı. Orda başqa zaqun var.

- Zaqunnan-maqunnan başım çıxmır, get Bakıya, gör nə işdi, - ağlamsındı. Elə kirimişdilər ki, həyətin darvazasını bərkdən-bərkdən taqqıldatdılar.

- Kimsən, əə, qapını niyə döyəcləyirsən, dilin-ağzın yoxdu? Havaxdan belə forsun qalxıb?

- Babaş, ay Babaş, əə, səni Usub qağa görmək istəyir, idarəyə gəl.

- Usub da ölsün, sən də. Keçi can hayındadı, qəssab piy axtarır. Xarabada ancaq əmrəmüntəzir olmalısan, yoxsa dərinə saman təpərlər. Bir hovur dincəlməyə haqqımız yoxdu: ver! ver! ver! Lənətə gəlsin plan qoyanın canı!

- Ağrın canıma, ay Babaş, qağaz-qağaz danışma görək. İşimizin belə çağında heç kimnən bozalaşma. Yoxsa, gözəl ağa çox gözəldi, vurub çiban da çıxardar.

- Sən uşaqların yemək-içməyini hazırla, gəlirəm. Dərsdən gələn vaxtlarıdı, yaxşımı?

- Yaxşı, arxayın ol, - gileylənə-gileylənə yollandı darvazaya sarı. – Ay Allah, sən köməyimiz ol. – Birdən dayandı, kirpi görmüş ilan kimi.

- Booy, Azay qağa! Nə vaxtdan qapının dalından qayıdırsan? Bu nədi belə? Daha yadlaşırıx?

- Yoox, tələsiyirəm ey, adamları iclasa çağırırlar. Noolub ki? Allah eləməsin. Biz qohum deyildik? Dedi-qoduya qulaq assan, gərək çoxdan düşmən olaydıq.

- Nə bilim, vallah, işlərimiz elə ələn-culan olub ki, qalmışıq məəttəl.

- Ümidini kəsmə, ay qohum, təki sağlıq olsun. Qız da bizimdi, oğlan da, hardan kəssələr, qanımız axar. Minayənin yanınnan gələn vardı, deyir salamatlıqdı. Mübarizdən nə xəbər, hələ də kağız yazmıyıb?

- Yoxdu, qağa, yoxdu. Biz də qalmışıx əleyvanda, bilmirik dərdimizi kimə deyək.

- Ümidimizi üzməyək, yaxşı olar, inşallah.

- Allah ağzınnan eşitsin, ay qohum. Həə, onu deyirdim, axı, eşitmisən?

- Nəyi?

- Tapdıxnan Müxəstənin ayağı sayalı olub…

- Noolub ki?

- Salehi evləndiriblər, deyillər. Paxıllıq teləçi Kəbirənin vurulmuşana qaldı, itsin, tapılmasın.

- Xeyirxəbər olasan, ay Bacıxanım, sağ əli Mübarizin başına. Qoy əsgərliyin qurtarsın gəlsin, girəjəm Babaşın ətiynən dərisinin arasına, qoy uşağın əl-ayağın yığsın döşünə, bəlkə başqasına da yol açıla.

- Eeh, siftəmizi dilə-dişə salanın…

- Heç dili-dişi yoxdu, kimi desə, onu da bəyənməliyik, vəssalam, şüt tamam. Kimə nə dəxli qalıb.

- Dədəm, nənənəm, saa qurban, a qohum, kaş sən deyən olsun!

- Allahın qismətindən qaçmaq – haramzadalıqdı. Nə yazılıbsa, xeyirlisini görək, inşallah. Yaşıyarıq, görərik. Di salamat qal.

- Xeyirə qənşər gələsən, a belə qohum, onçün deyiblər, dayna: «Qohum qohumun ətin yesə də, sümüyün atmaz, basdırar…»

* * *

Yumurtası tərs gəlmiş toyuq kimi vurnuxan ailənin istəyi agah olmuşdu Mübarizə: neçə gündü yuxusunu qarışdırırdı, qarışquruş görürdü, ailələri intizarda qoyduğuna görə. Nəhayət, qarnizon komandanlığından ailə üzvlərinə məktub yazmağa icazə verildi: «karantin» vaxtı qurtarmışdı, «andiçmə» keçirilmişdi.

- Mənim əzizlərim, gec məktub yazmağımın səbəbi hərbi sirr olduğundan, bu haqda danışmaq istəmirəm. Artıq mən də «müsəl-

ləh əsgərəm». Heç nədən şikayətim yoxdu. Yeganə narahatlığım «sizlərdəndi!» - «Sizlərdəndi» sözünü iri-iri, həm də kök hərflərlə yazmışdı. «Bilsinlər ki, kimlərdən söz gedir». - Acizanə təvəqqəm budur ki, məni bağışlamağa çalışın. İndi anlayıram: sevgiyə güc göstərmək, onu məhv etməkdi. İstəməzdim kimisə incidim!..» - Hər cümləni oxuyanda, Rəna yanındakılara baxır, sanki xəbərdarlıq edirdi: «Açın qulaqlarınızı, eşidin! Mən də varam, haa!» Qəsdən özündən quraşdırdığı

Sevənlərin yolu daşlı, kəsəkli,
Heç olmayır açıq, bərli-bəzəkli.
Elədirsə, sevgi yolun kəsəkmi,
Məhəbbətbdən sevinəkmi, əsəkmi? –

deyəndə, Bəşir bərkdən qışqırdı:

- Nənə, nənə, vallah, axırıncı sözləri özündən deyir! Hanı, baax, məktubda belə şeir yoxdu.

- Əə, səsini kəs, sənə deməmişəm, «nənə» ananın, ya da atanın anasına deyərlər! Oxu, Rəna, sən Bəşirə qulaq asma, o, belə şeyləri başa düşmür. – Babaş da razılaşdı.

- Oxu, qızım, oxu, dədən səsinə qurban!

- Sevən kəsdə dözüm olmaz, onu bil,
Qışı olmaz, yazı olmaz, onu bil,
Sevmirəmsə, izim qalmaz, onu bil,
Eşq toxumun məhv edəkmi, əkəkmi?

- Ay bərəkallah, qızım, belə haa, de gəlsin! – Babaş Rənanı qızışdırdı.

- Yalan yerə sevdim demə, günahdı,
Yalan sevgi sonda nalə, ya ahdı,
Haqqı sevən ömrü boyu saz olar,
Bəyənilər sevinci, pərvaz olar.

Bacıxanım yaylığının ucuyla gözlərini sildi, hıçqıra-hıçqıra içini çəkdi.

- Tanrı sizi sevindirsin, ay uşaqlar! – Babaş Rənanı göstərdi. – Görürsən, arvad, sərçə ki, «çik-çirik» elədi, deməli, vaxtıdı.

Rəna da öz növbəsində Bəşirə dil çıxartdı «- Böö!»

Təzəcə sakitləşmişdilər ki, Şanxanım içəri girdi. Rənanın əlindəki məktubu görəndə, üzünü Bacıxanıma tutdu.

- Bıy, gözümüz aydın, Mübarizdəndi? Xalan barmaqlarına qurban, ay bacıoğlu. Nə yaxşı sevindirdin bizi! Vallah, bir az da gec gəlsəydi, gedəjəydim Qızqayıt bajının üstünə ki, kitaba baxsın, görək nə işdi başımıza gəlir. Noolub ki, bu gədə ağzına su alıb, nədi? Nə deyir, nə qoyur, niyə dinmirmiş?

- Anası ölmüşə icaza vermirlərmiş, dayna.

- Niyə, aaz, yəni, belə də olur? Nə iş tutub?

- Yox, ey, nə vaxtdandı öyrədirlərmiş.

- Booy, məhlim Mübariz məktub yazmağı bilmir? Belədisə, məktəbə nəə gedirmiş?

- Elə yoox, deyir, gərək yolu-yolağanı öyrənsin, qayda-qanunu başa düşsün, sonra yazsın.

- Qıza, qıza, Mübarizin dəcəlliyin indiyə kimi kim görüb? Heç kimin toyuğuna da daş atmayıb, nooldu birdən-birə?

- Şanxanım xala, əsgərə gedənləri əvvəlcə çoxlu-çoxlu qaçırdırlar, təpik döydürürlər, nizam-intizamdan dərs keçirlər, silaha-zada öyrədirlər ki, özbaşınalıq etməsinlər, komandirlərin əmrinə tabe olsunlar…

- Xalan ölsün, ay bala, ta denən kəbinni arvada döndərirlər, dayna!

- Arvada yox, ee, kişiliyə öyrədirlər. Hərbi müəllimimiz belə deyir! – Rəşid Şanxanımın qulağına səsləndi.

- Ədə, qancığın küçüyü, kar-zad deyiləm, haa! Yavaş danışa bilmirsən?

- İndi bildin, iş nə yerdəymiş?

- Bildim, bildim. Belə şeyləri mənim kimiləri havax eşidiblər? Təki salamat olsun. Gedim Azayı muştuluxluyum.

- Bir şey verəjək? – Babaş altdan-altdan qımışdı.

- Verməz, mən də vermərəm, yox, ee, demərəm. Əl əli yuyar, əl də üzü. Havayıdan adama nə verərlər? «Gör məni, görüm səni» deyirlər, ey!

- İman yiyəsi olasan, ay Şanxanım bajı, hamı sən ürəkdə olsa, nəydi? – Babaş ayağa qalxdı. – Ə, Rəşid, o çomağı götür, get xalanı qonşu itindən keçirt, quduz dəymiş birdən hürüşün bilməz, qaranlıqdı, haa!

- Dədə, o it mənnən it kimi qorxur, ey. Əlimi yerə uzadan kimi, zingildəyə-zingildəyə götürülür yiyəsinin qapısına.

- Söz güləşdirmə, bala, gecə çölə çıxdın, ağacın əlində gərək. İtə ehtibar eləmə, yadında qalsın.

- Yaxşı, dədə. Şanxanım xala, gedək, ha olmasa, kişi qırığıyam, dayna.

- Xalan sənə qurban, a kişi qırığı. Düş qabağa. Amma iş bərk gələndə, xalanı yolda qoyub qaçma, haa, yıxılaram, bıyabır olarsan. Eşidənnər səni görəndə, «ənni-qını, ənni-qını» deyəllər. Əlбxüsus da qızlar. Canıyanmışların qulaqları həmişə səsdədi.

- Yeri, yeri, mən də gəlim dalıncan…

- Ay qırışmal, sən də özünə görə deyilsən, haa. Ölməsəm, sağ qalsam, kimə elçi göndərsən, çadramı sallam başıma…

- Belə bibiyə quzu kəsim ey, özü də lap otuxmuşunnan.

* * *

…Minayə dərsdən gəlib, üst paltarını dəyişirdi. Qonşu otaqdan Rəsmiyyə əlini dalında gizlədərək oğrun-oğrun yaxınlaşdı bədənnüma güzgünün qabağında saçlarını tumarlayan rəfiqəsinə.

- Sözlü adama oxşayırsan, haa, niyə xəlvət gəlirsən? Özgə vaxt içəri girən kimi olursan ərköyün pişik, hoppanırsan çarpayının üstünə, başlayırsan doduldamağa, qoymursan, mən də bir söz deyim. Vallah, sənin yalan-yanlışlarına elə öyrəşmişəm ki, səni görməyəndə, lap darıxıram.

- Darıxırsan, sən haa! Səni dindirincən, söz alıncan, adamın ürəyi qısılır. Elə bil dünyanın hesabatını sənin üstünə yazıblar. Son vaxtlar süksününü qaldırıb yanındakına baxmaq da istəmirsən. Bilirsən, nə var?

- Nə var?
- Gəl otur yanımda, yoxsa küsüb gedərəm, geri qayıtmaram.
- Yox əşi, aaz bəri qayıt, elçiləri yolda qoyma. Heç, qovsam da gedən deyilsən, səni tanımıram?
- Sözün qısası: sən də başqalarınnan biri. Qaranı ye, ağı tök çəpərin dibinə, sümsük itlər yalasın.
- Axı noolub? Ön sözü qurtar, keç mətləbə.
- Bu oğlanların şirin sözünə inansan, gərək üç aydan bir doğasan. Gözün görmür olanları? Bir deyənə beş de, altından da şiş de!
- Bəsdi, de görüm nə əsib-coşursan, yenə nə xəbər var?
- Üzüm gəlmir axı.
- Ələkdən, aşsüzənnən tut üzünə.
- Qonşuda biri vardı, onun da ortası cırılıb, təzəsi də yoxdu.
- Yaxşı, de görüm, nədi.
- Çirkinim, sən burda dur, gedib gözəlini tapmasam, qayıdaram yanına.
- Nə demək istəyirsən axı? Aç öküzün dördün də burax, mən də nə edəcəyimi bilim.
- Xalan oğlundan sənə namə gəlib, namə! – Minayənin rəngi qaçdı, dodaqları əsdi. Durduğu yerdə çökdü. Qonşu otaqdakı əl radiosu astadan ötürdü: «Neyləmişəm sənə ey çeşmi siyahım…»
- Mən ölum, lap axmaqsan ki, axmaq. Özünü ələ al, qızlardan ayıbdı, qulaqları dikdi! – Rəsmiyyə qapını daldan bağladı ki, gələn olmasın. – Bəlkə oxumalı bir şey yazıb, niyə bəri başdan özünnən gedirsən? Aç, oxu, sonra danışarıq, yaxşımı?
- Mənim səndən gizlincim yoxdu. Sağ ol ki, məni tək qoymursan.
- Hardadı dəli-qudurmuşun biri, məni sənin əlinnən alıb qaça, mən də rahat olam, sən də, o da. Köpək oğlanları yan qaçırlar, elə bil mənə it dəyib. Hələ ki, gözləyirəm. Əlim əlinə çatarsa, bilərəm nə toy tutacağam. Dartıb cərcənəyin qopardaram dişlərimnən. – Minayənin dodaqları qaçdı. Rəfiqələr qucaqlaşdılar. Kənardan baxan bilməzdi, ağlayırlar, yoxsa gülüşürlər.
- Mən sənə inanıram: məktubu oxuya bilərsən.

- İnansan da, olmaz. Hər kəs sirrini özü bilməlidi. Dost olsaq da, qablarımız ayrıdı. «Sirrini dostuna da demə, dostunun da dostu var». Özün oxu, özün də tənbeh elə, suçludursa. Mən bir az uzanıram, - üzü üstə çarpayıya sərildi, balıncı da qoydu boynunun dalına.

- Lağlağılıq eləmə, yoxsa əlimi də vurmaram.

- Üz vurma, keçəl suya gedən deyil. Bilmirsən, adam tüpürdüyün yalamaz?

Sanki hündürlükdən tullanmağa hazırlaşırdı Minayə: dərindən nəfəs aldı, köksünü ötürdü, gözlərini yumdu, lap ilk imtahan biletini çəkdiyi kimi. Ürəyinin döyünməsi qulaqlarında guvuldayırdı.

«Hörmətli xalaqızı, kaş keçirdiyim hisslərimi inandırıcı sözlərlə ifadə edəcəyimi duya biləydin. Məktəb illərində danışmaq asan imiş. Yadındamı qaçdı – tutdu oynadığımız? O qayğısız günlər nə tez unudularmış. Biləydin nələr keçirdiyimi. Deyiləsi sözlərimiz, əlbəttə çoxdu. «Ey məni bəyənib sevməyən gözəl (oğlan!), məndən yaxşısını tapaydın barı», - deyəcəksən. Haqlısan. Unutma ki, mənim də deyəcəklərim var. İstəməzdim ki, bir-birimizi lənətləyək. Dostluq onda sınmır ki, möhkəmliyinə şübhə qalmır. Məni günahkar sanıb, deyə bilərsən:

Daha gəlmə, nəyə gərək,
İnnən belə göz yaşların?
Fərman verib rədd edərək
Haça çatdın sən qaşların,

Bəyənmədin ağ saçlarım.
Gözlərindən qan töksən də,
Yollara nərgiz əksən də,
Özün çarmıxa çəksən də,
Lələ köçüb, yurdu qalıb,
Sənə olan sevgim solub!

Mənim üçün yoxsan, inan,
İndi gedib rahat dolan.
Sənə hamı lənət söylər,
Olacaqsan tamam peşman,
Göstərəcək bunu zaman.

Ola bilər, nə bilək. Həyat döyüş meydanıdı: qələbə də, məğlubiyyət də ola bilər. O, qalib olar ki, rəqibi yoxdu. Səni qınamıram, uman yerdən küsərlər. Yadındamı, şeirlə yarışmağımız? Sevgini qızlar daha erkən duyurmuş.

Mən yatmışdım, oyatmaqda günahkarsan,
Düşünməzdim məhəbbəti lap axtarsan,
İlk görüşdən həyatımda yaşayırsan,
«Günahınla» sən öyrətdin sevinməyi.

Necə deyim, sözlərimə inanasan,
Sözlərimin doğruluğun sınayasan,
Küskünlüyə qərq olmağa qoymayasan.
Yaxınlığa buraxmayaq deyinməyi.

Bütövlükdə məni günahkar sansan, səhv edərsən. Günahı heç kəs üstünə götürmür, elədirmi?

Nə deyirsən, söylə, görüm,
Gileyini eylə, bilim,
Niyə oldu böylə, gülüm,
Bəxti yazan belə yazıb.

Əhdi-peyman etsək də biz,
Doyünsə də bir qəlbimiz,
Düşünmədik sonun, şəksiz!
Yazı yazan özü pozub.

Başqa səmtə getdi yollar,
İmdad eylər indi qollar.
Qovuşmursa cüt amallar,
Haradansa (!) günah sızıb.

Günahın «haradansa» (!) sızmasını anlamaq, yəqin ki, çətin deyil. Sonumuzun necə qurtaracağını bilmirəm. Demə ki, «getdi yar, gəlmədi, aldatdı məni». Bu qədər. Bağışla». – Oxuyub qurtarandan sonra Minayə uzun müddət susdu. Sanki hər şey başına dolanır, haqq-hesaba hazırlaşırdı. Birdən cikkə çəkib elə hönkürdü

ki, bayaqdan mışıldayan Rəsmiyyə yerindən sıçradı, Minayənin boynunu qucaqladı. Uzun müddət hıçqıran rəfiqələrin səsindən qonşu otaqdakılar qapını döyəclədilər. Yerə düşmüş məktubun axırıncı sətirlərini oxuyandan sonra, Rəsmiyyə təəssüflə

- Əfəlsən ey, əfəl, dedim görən nə baş verib. Özünü yeyib-tökmə. Nə çoxdu «qatara gecikənlər». Təki başqası gəlsin. Bu qədər sıxılmağa dəyərmi? – dedi.

Pəncərənin qabağında durub, uzaqlara baxan Minayəyə deyilən sözlərin əhəmiyyəti görünmürdü, xısın-xısın oxuyurdu.

Mümkünmü keçmişə qayıtmaq yenə,
O günlər necə də qayğısız imiş!
Keçən hisslərimi oyatmaq mənə
Necə də çarəsiz, sayğısız imiş?!

Səni qınamıram, məni qan tutar,
Sevgiyə xəyanət ölümdən betər,
Bir zaman duymadım titrək sevgini,
Layiqəm nifrətə, qarğışa, yetər.

Gün keçir, ötüşür ömür qatarı,
Qalmayıb cismimin gücü, tutar,
Sən Allah, bağışla, bağışla barı,
Acizin günahın, kəm etibarın!..

* * *

Son zamanlar Gülbəniz bir yerdə duruş gətirə bilmirdi. «Bəlkə Mübarizin sadəlövhlüymdən xoşu gəlmədi? Niyə «sevirəm» sözünü birinci dəfə məhz oğlanlar deməlidi? Bu ədalətsizlik deyilmi? Axı yolumla getdiyim halda, niyə o, mənə ürcah oldu? Kimsəyə uyuşmadığım halda, nəydi başıma gəldi? Niyə? Niyə? Bu «niyələr» məni haralara sürütləyir?

Təzəcə-təzəcə üzü gülür, eynəsi açılırdı Dilrubə xanımın Mübarizlə Gülbənizin deyib-güldüyündən. Ürəyi elə atlanırdı ki, onların xısın-xısın danışmasından. Alınlarını bir-birinə söykəyir,

burunlarını sıxır, öpüşməkdən çəkinirdilər: Dilrubə xanımdan həya edirdilər. Bu hissləri xiyabanlardakı yayxa skamyalarda diz-dizə oturanda da qovalayırdılar. «Yaxşı qız toy gününə kimi bakirəliyini itirməz. Qoruyub saxladığı ismət canından artıq sevdiyi, inandığı oğlana qismət olmalıdı», - pıçıldayırdı şəhərli qızı. Öpüşəndə də ara səddi keçmirdilər. «Namusumun itdiyini görsən, at təpiyinin altına, saçlarımı sabunlayıb qırx, tulla bayıra, qoy məni lənətləsinlər. Ölərəm, sənnən incimərəm», - demişdi Mübarizə. «Kaş sədaqətimizi pozan olmasın!» - demişdilər axırıncı görüşdə. Çoxlarına nümunə idilər.

Həmişəki kimi deyildi Dilrubə xanım: bir az sevincli, bir az təlaşlı. Otaqdakı səliqə-səhman, adamın burnunu qıcıqlandıran təravət nəyinsə xoş gəlişindən xəbər verirdi:

- Qızım, yadındadı, «Arşın mal alan»dakı Telliylə Gülçöhrənin söhbəti? İndi mənim də ürəyim gərdəkdə nişanlısının gəlişini gözləyən gəlininki kimi döyünür. «Dup, dup, dup, dup!»

- Niyə, ana, xeyir ola?

- Xeyirlisini bu məktubu oxuyandan sonra biləcəyik, - ehtiyatla əlindəkini Gülbənizə verdi.

- Xeyirxəbər olasan, ay ana! Vallah yuxumda görmüşdüm ki, məni yamanca danlayırsan. – Uşaq şıltaqlığıyla tullandı, məktubu aldı, qaçdı otağına. «Ya Rəbb, sevindir bəndəni!» – dedi və başladı sətirlərlə «yarışmağa».

«Çöhrəni görənləri məsdi-xumar eyləmisən,
Əlinə neştər alıb gözün bimar eyləmisən.
Qəsd edib sevənlərə eşqi azar eyləmisən,
Eşqə düş, mən sevinim, özün qəddar eyləmisən.

Təbiət bəxş eləmir gözəlliyi hər bir kəsə,
Bir zamanlar qocaldıb əllərinə verər əsa!
Qorx ki, başın üstündən əsər xəzan külələri,
Susdurar, lal eyləyər, xatırladar əməllərin.

Bülbülün gülə eşqin əlindən alsalar birdən,
Çatladar ürəyini, sinəsini qan eyləyər,
Tapa bilməsə çarə, qışqırıb fəğan eyləyər,
Çırpınar tikan üstə, özünü qurban eyləyər…

Eşq odu görməyənin gözləri kor, bəxti qara,
Sevənlər Məcnun olur, getdiyini bilmir hara, - yazmışdım gündəliyimdə orta məktəbi qurtaranda.

O zamandan xeyli ötsə də, həqiqi sevginin qiymətini indi düşünməyə başlayıram. Bu işdə mənə yol göstərdiyinə görə, minnətdaram. Qadalının qadalarından uzaqlaşdıqca, həyatımın necə keçəcəyindən narahatam. Əgər bu narahatlığımı bölüşmək istəsən, özümü xoşbəxt sanardım, çünki «Səni gördüm, aşiq oldum, dərdə saldın…» Yuxularımda da səndən ayrıla bilmirəm. Elə dərdə düşmüşəm ki, çarəsini tək O bilir. Xəstəyə əl uzadılsa, şəfa tapacağına ümid artar.

Soyuq su sərinlədər saçlarını, sər sinəmə, susum sənlə,
Səbəbin söyləyərəm, səhər-səhər saçlarını sığallasam.
Səslənən sel suların salamlayar süsən-sünbül, susar sənlə,
Sarı saçlı, sarı simli sazımın sədasını soraqlasan.

İnanmıram ki, bu sətirləri soyuqqanlıqla oxuyacaqsan, mənə «kəndli ki, kəndli» deyib güləcəksən. Axı bunlar ürəyimin məhsuludu! Dilrubə xanımı doğma anam kimi öpərdim, arzuma çatsam! Sözlərimdən sevinərək güləcəksənsə, deməli

Gülüşün görənlərin gözlərini qamaşdırır,
Andırır keçmişini, sözlərini, həm çaşdırır,
Mat qalır gördüyündən, içindəsə qan ağlayır,
Çevrilib yandan keçir, başına dərman bağlayır.

Cismini dağda sanır, gizlincə hey için çəkir,
Sayrışan çiçəklərin cümləsinə biçin çəkir.
Gileyi dağda qalır, qayalarda dalğalanır,
Qovrulur od-alovun tüstüsündən, alovlanır.

Fələyin bəxş etdiyi ömür ona qəm gətirir,
Qaralır dörd bir yanı, gözlərinə nəm gətirir,
Dağların zirvəsinə ağ örpəkli çən səpilir,
Aşiqin cismi donur, gördüklərindən xoflanır.

Çox istərdim ki, kimsə sevgimizə kölgə salmasın. Birlikdə keçirdiyimiz dəqiqələri unuda bilmirəm. Əlimdə avtomat keşikdə durduğum anlarda sakitliyi pozmaq istəyən yadniyyətli insanların əvəzində səni görmək, qanadlanıb göylərə uçmaq, buludun o tayından boylanan ay işığında süzmək arzusuyla müvəqqəti olaraq ayrılıram! Yox, yox, bir də görüşmək istəyirəm. Beləmi, əzizim?!»

Məktubu göndərəndən sonra Mübariz bir müddət susdu. Minayə ilə birlikdə etdikləri əhdi-peyman yadına düşdü.

«Sənə qarşı hey uzanır sol qolum,
Bağlı qalsın, açılmasın qoy yolum,
Özgəsinə könül versəm, lal qalım,
Taleh bizi birləşdirsin, qorusun!» - demişdi bir zaman.

«Bəlkə payız küləyinə çevrilirəm? Bu necə baş verdi? Özüm-özümə xəyanət edirəm? Xəyanət? Xəyanətkarammı? Deyəsən, mən də Don Juana oxşayıram, belədirmi, Babaşın oğlu? Mən köpək oğluna inanmaq olarmı? Nə tez o yan-bu yana səmtlənirsən, Mübariz? – Əlindəki qələmi gücü gəldikcə çırpdı stolun üstünə. Mürəkkəb ləkələri sıçradı yanaqlarına. Əllərilə başını sıxdı, özünü lənətlədi. Bir sual qarşısında aciz qaldı: kim daha əzizdi? Hansı daha yaxındı?

«…Üstəlik də adınız… Mübarizdi… Son məqsədə çatmaq üçün mübarizə lazımdı… siz Allah, kömək edin, bu oğlana… ay camaat!» sözləri qulaqlarında səsləndi. «Kimlə gəzməyə gəlibsə, qoy o da əlini uzatsın… Tanıyırdım, innən belə yox!» demişdi Minayə. «…istiqanlılığımız hiss olunmayıb» gileylənmişdi öz-özünə Mübariz. «Üzündəki cırmaqları dünən görməmişəm, bu nədi?» - soruşanda, Gülbənizin yanaqları allanmışdı.

Mübarizin məktubları get-gedə seyrəlirdi. Üç illik əsgəri xidmət düşüncələrini sərtləşdirmişdi: Minayə ilə Gülbənizə münasi-

bətdəki çətinlikdən çıxış yolu tapa bilmirdi. «Yuxarı baxıram – bığdı, aşağı baxıram – saqqaldı», - fikirləşirdi. «Necə deyim ki, şəhərli qızından əl çəksəm, ömürlük «şikəst» olacağam. Onun günahı nədir ki, həmişə sıxıntıdadı. Bəlkə heç vaxt özünə simsar axtarmayıb? Mən niyə onun köməyinə gəlməyim? Buna haqqım varmı?»

«Suallar, suallar! İnsanın iliyinə işləyən suallar, gündüzü qaranlıq gecə girdabında çürüdən suallar! Sizə, yəqin ki, həqiqət, təmkin və mübarizə qalib gələ bilər. Göydə O, yerdə…

Bu nə filosofluqdu, Mübariz? Eh, rus demişkən: «Nə olar, olsun!» «Vaxtından artıq hərbi qulluq üçün ərizə yazıb bir müddət orduda qalıram, görüm başıma nələr gəlir», - nəhayətdə qərara gəldi.

* * *

…Müəllimlik diplomunu alıb doğma kəndə qayıtmağa sevinməsə də, «palaza bürün, elnən sürün» zəhlətökən misaldan yan keçə bilmədi Minayə. Rəfiqələrindən ən çox göz yaşı tökəni Rəsmiyyə idi buraxılış günü: çox isinişmişdilər.

- Söz ver ki, mənə məktub yazmaqda acizliyini unudacaqsan.

- Söz verməyə nə var ki, əməl etmək çətindi, özün bilirsən axı.

- Bilirəm, bilirəm, bilməyənin başına gəlsin. Bir də, ay Minayə, kitabda yazılanların çoxu yalandı, vallah, özün də görürsən. Məhəbbət belə gəldi, eşq belə getdi! Sevgi də düşdü oda-alova, yandı! Başın üçün boş şeydi hamısı. Gördün yemək, daha nə demək? Nə biz birinciyik, nə də axırıncı. Çay gördün, ora-burasına boylan, özünü vur suya. Pənah pərdi qırana. Özünü çox da oda-külə vurma. Canım üçün mən ağlım kəsənini edəcəyəm. Yoox, gözləyim görüm, kim qoçaqdı, ucaboydu, şah oğludu. Allah vurmuşdu: hamısı bir qəlibdəndi.

- Görürəm, fəlsəfədən başın yaxşı çıxır. Vay gününə, yaman qaynanaya tuş gəlsən, - bir-birinin çiyninə şappıldadıb gülüşdülər.

- Qoy qaynana mənnən ehtiyatlansın, elə qışqırajam ki, göbəyini tuta-tuta qaçsın. Mənə də Rəsmiyyə deyərlər. Hələ orta məktəbdə çoxlarının xoruzunu vermişəm qoltuğuna, quqquldada-quqquldada qalıblar. İnstitutdakıları görmürdün, əlimdən zağ-zağ əsir-

dilər. Özünü vasvası tutsan, işin pırıx olar. Qocam deyirdi: yavaş eşşəyi cüt-cüt minərlər. Hünər deyirəm, şıllaq atanı minəsən…

* * *

Hələ yay tətilinə gələndə Usubun oğlu Qazı Minayəyə xoş gəlməkdən ötrü gündə bir fason geyinərdi, yan-yörəsinə dolanardı. Bax elə bu xasiyyətinin ucbatından kənddə onu fırfıra Qazı çağırırdılar. Fırfıranın hərəkətləri Minayənin qulağına qonan milçəyin vızıltısına bənzəyirdi: əlini tərpədən kimi, yoxa çıxardı. Bir dəfə sol əlindəki qəzeti yellədə-yellədə gedəndə, Minayəni görən kimi dayandı. Yaxınlığından keçəndə, şübhəli-şübhəli öskürdü. Minayənin sullat salmadan yoluna davam etdiyini görəndə, bir də bərkdən öskürdü.

- Nə var, əə, boğazında sümük qalıbsa, çöpçüyə get, çıxartsın.

- Sümük yox, eey, səni udmaqda acizəm.

- Ay sən öləsən. Xasiyyətini bilmədiyin atın dalına keçmə, təpiyinə tuş gələrsən. Get anqır, tayını tap, səfehin biri!

- Səfeh niyə oluram, qəşəng qız, başqasınnan nəyim kəmdi? Mənnən qaçmağın əbəsdi, qovub-qovub yorannan sonra, tutajam, görərsən.

- Sənə elə toy tutaram ki, adın yadından çıxar! Rədd ol, bir də gözümə görünmə!

- Baxarıq, kim kimə toy tutajax. Əl-qolunu bağlayanda, elə susassan! Məsəl var, deyərlər: «Madyanın təpiyi ağrıtsa da, ayqır dözməlidi. Heç o yan-bu yan eləmə, «səndən əl çəkmərəm, mənim oluncan».

- Deyəsən, qulaqların uzanıb, həə, onunçün şappıldadırsan? Dedim, rədd ol yolumdan, yoxsa!..

- Yerə də girsən, göyə də uçsan, mənim olassan, yaxşı fikirləş!

- Yeri, yeri! – Minayə əlindəkini fırfıranın kəlləsinə çırpmaq istəyəndə, Qazı onun əlini göydə saxladı.

- Belə niyə, balası, ağlını başında cəmləşdir, sonrakı peşmanlıq fayda verməz. Heç özünnən sökmə, mənə də fırfıra Qazı deyəllər. Əlimnən qaça bilməzsən, tutajam.

Minayə institutda öyrəndiyi «sambo»nu işə saldı: sol təpiyilə Qazının paçasına elə vurdu ki, yelqovan kimi qıvrılıb sərildi yerə. Özünə gələndə, paçasını tuta-tuta uzaqlaşdı.

- Yaxşı, Azayın qızı, hələlik bir-sıfır sənin xeyrinə. Toy gecəsi görərik, kim kimi yordu. Hesabı unutma!

- Bir də! – qışqırdı Minayə. Həmin gün «başım ağrıyır» deyib evdən bayıra çıxmadı. Şanxanım çiyinlərini çəkdi: «Bu qızın başınnan şikayət eləməsi yadıma gəlmir!» - Sonrakı üç gün də məktəbdən göndərilənlərin əliboş qayıtması, Şanxanımın «kürkünə birə saldı».

- Qızıma nooldu birdən-birə? Bəlkə Mübarizdən nəsə eşidib? Poçtalyon da qəzet, məktub gətirməyib. Yəqin, balama nəzər toxundurublar! Qaçım Qızqayıt arvadın yanına, görüm nə işdi başımıza gəldi durduğumuz yerdə. – Azay içəri girdi.

- Qaçma, arvad, bu iş baxıcılıq deyil. Deyəsən ayrı zad var.

- Nə zad, ay sənə dədəm qurban? Qız əldən gedir, sən də başlamısan zaddan-maddan. Neçə gündü çaydan-çörəkdən də kəsilib. Vallah, bu qıza çarəni Qızqayıt deyəjək.

- Sən bir atının cilovunu dart, gör nə deyirəm, - Şanxanımın qolundan tutub yan otağa keçdi. – Camaat ortalıqda pişik başı bəzəyirmiş, bizim zurna-balamannan xəbərimiz yoxdu.

- Ağzına gələni danışma, bu çal vaxtında! Nə pişik, nə balaman? Başa sal görüm, hansı diliqurumuşa söz-söhbət yeri olmuşux? Düz on il hadıxdan, baxıcıdan, həkimnən yığışmadıq, Allah-Allahnan zürüyət tapdıq. Güc-bəlaynan bir uşax böyütdük, əli çörəyə çatanda, sevinəjəydik, böyürdən iş çıxdı. Deyirsən, neyliyək, haranın külün tökək bazımıza?

- Ay goru çatlamışın qızı, ev-eşiyi almısan başına, çalxalayırsan, bir hövsələ elə, dəə! Tünbətünün qızı, aman verəssən ki, mən də danışım? Qarnın paralanaydı, a beləsini doğan!

- Hə, hə, sən danış, danış, itin olum, danış. İndi görürsən danışdığımı? Mən ki, başladım, gərək ağzımı yumasan, yoxsa traxtır kimi tırıldaya-tırıldaya gedəjəm, baxmıram ki, qabağım palçığa gedir.

- Deyillər, qızımız vurub Usubun oğlunun …ğını şişirdib. Atası da dirənib ki, bu işi belə qoymuyajax.

- Nə deyir ki?

- Deyir, mənə elə belə gəlin lazımdı ki, bəlkə, bu fırfıranın gözü yollardan yığıla, qaxılıb otura bir yerdə. Madam oğlumun gözü Minayəni tutub, yumurtanın qabığında gizlənsə də, tapıb çıxardajam.

- Booy, Davud amandı! Xaşıl da daşarmış? Allah, sən saxla, deyəsən, ayam dönüb tamam tərsinə. Elə buyumuz kəm idi ki, o da başımıza gəldi. Darmadağın olasan, ay Qadalı, üzün nələr görmədi! Eşitmişdik, arvadı əzişdirərlər pis işin üstə, bu ha tərsinə olub!

- Həə, indi bildin, qızımızın başı niyə ağrıyır?

- Əşi, əşi, səni dədəən goru, başqası desə də, barı sən demə, ayıbdı. Belə şeyləri onsuz da dağarcığında saxlıyan deyilsən, səni yaxşı tanıyıram, üzünü gor görməsin.

- Görünür, səni başa sala bilməmişəm, ona görə də doğduğun bir uşaxdı, o da ki, belə çıxdı.

- Deyirəm axı, bu qızın son zamanlar törətdiyi işdəhlərdən ağlım tamam itib!

- Ağlın olub ki?

- Yaxşı, Usubun oğlu nə deyib ki, o da eləmiyib tənbəllik, dəli inək kimi şıllaqlayıb? Yaxşı deyillər axı, hərcayı sözün mərcayı da cavabı olar. Bunda deyillər ey, aslanın erkəyi-dişisi olmaz. Lap yaxşı eliyib. Hürüşün bilmiyən iti salbalayallar, dayna. Yiyəsiz görüb qızımızı? Dönüm balamın gözünə, nə vurub haa!

- Arvad, deyəsən, ağlını tamam itirmisən, haa! Bəs oğlan yiyəsi qızımızı qırmızıpapağın qabağına qatsa, necə? Heç burasını fikirləşirsən, boş maşın kimi dərə aşağı şütüyürsən? Aparıb soxallar qoduxluğa, ağlı başına gələr. Özün müəllim olasan, belə də qudurmuşlux edəsən? Tülkü tülkülüyün sübuta yetirincə, dərisin boğazınnan çıxararlar, eşitmisən?

- İndi nə məsləhət eliyirsən, gedək sərilək Usubun qabağına ki, nə istiyirsən, elə? İndidən ödün ağzınnan niyə gəlir, çağırallar irayona, mən də bildiyimi deyərəm. Qazı qızımıza niyə sataşıb ki, yo-

luynan getdiyi yerdə? Qızımız da nə ağına baxıb, nə bozuna. Söymə nökər atama, söyməyim bəy atana. Bəyəm hökumət zad yoxdu?

- Bay atonan, ayısın çölə buraxan! Zır ki, zır. Mən deyirəm, dəmdən dəmə, sən deyirsən damdan dama. Ay toyuqbaş, belə getsə, Minayə evdə qarıyajax ey, niyə irtməyinin üstündə dik durmusan?

- Yaxşı, onda sən de görüm sözünün məmmədəlisi nədi?

- Deyirəm, o yan-bu yan eləsə, deyərik, bağışla, Usub qağa, bir işdi, olub, bir də qatırçının qatırını ürkütməz. Səhv eləyib, keç günahınnan. Bax belə, nə təhərdi, hıy?

- Nə bilim, vallah, ağıllı olsaydım, mən də baxtavarrar kimi beşin doğardım dayna. Birdi, o da gözümə tirdi. Gözdüyək, görək külək bizi hara atajax. Hələlik qıza deməsək yaxşıdı, yoxsa, Allah eləməsin, əlinnən xata çıxar.

- Bax bunu düz dedin. Özü də deyirsən, arvadın ağlı toyugunku qədərdi. Arvad deyilsən ey, yolgöstərən milissən, - yavaşca sivişib çıxdılar həyətə: gələn-gedən yoxdu ki?

Beləcə Ayazlar ailəsi bir müddət qulağı səsdə, gözləri bərəyədə qaldı. «Gözün üstə qaşın var» deyən olmadı. Elə bil, qurbağa gölünə daş atılmışdı. Əvvəlki kimi Azay idarəyə, Şanxanım Bacıxanım gilə, Minayə məktəbə gedir-gəlirdi.

Bir dəfə necə oldusa, Səfər müəllim ehtiyatlana-ehtiyatlana Minayəni yanına çağırtdırdı.

- Səhhətinizdəki nasazlıq babatlaşırmı, müəllimə? – axırıncı sözə xüsusi vurğu qoydu.

- Səhhətimə noolub ki?

- Heç, elə belə, sözgəlişi soruşuram. Azay kişi necədi?

- Şikayətimiz yoxdu, sağ olun, - Minayə anlayırdı, Səfər müəllim mizrabı hansı simə vurur: qara qızın dərdi var. Oğlunun nişan üzüyünü qaytaran qızı qaçırdan tələbə yoldaşı Gündüz üç aydan sonra «xasiyyətimiz tutmadı» deyib onu Qadalıda qoyub gedib. Neçə ildi Qərənfilə hamı «murdarlanmış» deyib kənar qaçırdı. «Öz cəzandı, elə ha gözlə ki, qapınızı bir də döyən tapılacaq. Dillinin dili tez tutular», - deyirdilər.

- Əgər tapşırığınız yoxsa, gedə bilərəm? – Minayə Səfər müəllimin sözünü tamamlatdı.

- Xeyir, xeyir, dedim, bəlkə, köməyə ehtiyacınız var. Əgər olsa, çalışaram, əsirgəmiyim. – O gündən də Səfər müəllim «dodağını dişləyib» gözləyirdi…

* * *

Axırıncı dəfə Həştərxandan oğlunun yanından əliboş qayıdan Babaşın üzü gülmür, dindirənin yanında suçlu görünür, dodağından düşməyən siqaretdən bığları saralmış, gözlərinin altı tuluqlanırdı. Əsgərliyinin qurtarmasına hədiyyə aldığı «Mokviçin» üstünü çadırlamışdı. Mübarizi yola gətirə bilmədiyindən, ayaq üstəcə quruyub qaxaca dönürdü. Yuxusunda da «Həvəsimi gözümdə qoyma, oğlum, mənim də özümə görə adım-sanım var» deyirdi. Daş dinirdi, Mübariz dinmirdi: qalmışdı can-cahan. «Ata, qurbanın olum, məni bağışla. Ürəyimə güc gələ bilmirəm», - demişdi. Babaş da oğlunu həqiqi sevincindən sındırmaq istəmirdi. «Xalası qızıynan oynayıb-gülməsi məhəbbət adlana bilərmi?» - kimsə hərdən qulağına pıçıldayırdı. «Əsil sevgi adamı yandırıb-yaxmalıdı», - deyirdi öz-özünə. «Qəlb sanki bəzəkli şüşədi, düşüb sınsa, düzəltmək çox müşküldü, oğlum, səni qınamıram», - düşünürdü. Gecələr əllərini boynunun dalında daraqlayar, ulduzların uçuşmasına heyranlıqla baxırdı.

* * *

Dilrubə xanımla Gülbənizin uzaq Həştərxana – Mübarizin yanına gedib-gəlməsindən Qadalıda heç kimin xəbəri yox idi.

Susuzluqdan yarpaqları sallanan çiçəklərə sərin su səpiləndə, budaqların titrəməsini görmüsənmi, oxucum?! Ördək balalarını çaya, yaxud gölə çatdıranda fərəhlənib «qa-qa-qa» edərək qanad çalmasını xatırladırdı Gülbənizlə Mübarizin günəşdən parıldayan ləpələrdən bir-birlərinə çilədikləri duzlu su damcılarından xoşlanıb gülüşməsi. Hərdən sahildən aralanıb suyun dərin yerlərinə baş vurmaq istəyəndə, utandığından soyunmayan Dilrubə xanım həyəcandan elə çığırırdı ki, qumluqda ətçəbala uzananlar diksinir, gileylənirdilər…

* * *

Usubun adamlarının Azay gilə elçi getməsindən Babaş gilin xəbəri yox idi. «Hə» deməmişdilər: Şanxanım Azayın sözünü ağzında qoyub, az qala sinəsini şırıxlamışdı.

- Uuy! A tövbə, Bacıxanım bizi oda tutar! Heç elə şey ola bilməz! Əgər onlardan əlimizi üzsək, yenə dərd yarıdı. Siz Allah, bura gəldiyinizdən heç kəsin xəbəri olmasın! Bir daş altdan, bir daş üstdən. Bir uşağımız var, onun ürəyini qırmaram, - demişdi.

Məktəbdəki Yeni il şənliyinə hazırlıqdan hələ qayıtmamışdı Minayə, elçilər deyinə-deyinə yola düşəndə. Evdəkiləri qanıqara görəndə «dalağı sancmışdı».

- Ana?

- Nədi, dərdin ürəyim? Sən əl-üzünü yuyuncan, mən xörəyini yığaram istolun üstünə. Ləzzətli yarpaq dolması bişirmişəm.

- Nədənsə, gözümə pornux dəyirsiniz, noolub?

- Booy, nə olmalıdı, qadan canıma?

- Yoox, nəsə olub. Kimsə atamın kefinə soğan doğrayıb, deyəsən. Xeyirdimi?

- Xeyir deyəndə ki, ay qızım… - Şanxanım Azaya gözün ağartdı.

- Azay, Azay, bir ora bax, qonşunun keçiləri darışıb gül kollarına. Başına dönüm, mən çay süzüncən, onları xıxla, rədd olsunlar. Deyəsən, bərəyəni açıq qoymuşam.

- Başın nəyə qarışmışdı ki? – Azay qımırlı-qımırlı yollandı həyətə. Minayə bir şey anlamadı, çiyinlərini çəkdi, getdi mətbəxə. Elə həmin günün səhəri «Minayəni gördüm» deyən olmadı. Camaat ayaq üstə qalmşıdı: onu kim qaçırdıb?

Günortaya yaxın sənəyini kürəyinə şələyib kəhrizdən qayıdan Kəbirənin dişləri örtülmürdü.

- Kim qaçırdajax, aaz, kim tapdı, o da qapdı. Azay getsin Usub qağaya «sağ ol» desin ki, qızı topdağıtmaz evə düşdü. Atası kolxoz sədri, Qazı – partkom. Elə ha eşilsin pulun-pərənin içində. Onnan yaxşısına gedəjəydi? Bacıxanımın oğlu elə hey döysün dağarcığına ki, qırmızıdodaq, donu gödək şəhərli qızıynan yarıyajax.

Ay, hay! Pişiyimiz oğlan doğajax, biz də görəjiyik, - rişxəndlə sənəyin çatısını boşaldıb yenidən rahatladı kürəyində.

* * *

- Babaş, eşitdinmi, Usubun çərləmişi Minayəni qaçırdıb? – ətəyinin ucunu əlindən buraxmayan Bacıxanım başıalovlu halda qapını şappıldatdı. – Bu nəydi başımıza gəldi? Camaatın dilinnən düşməyəjəyik. Elə bu qalmışdı, onu da gördük. Neçə vaxtdı ovcumuzun içində uşaq böyütdük, oğlumuzun əfəliyinnən tülkünün balası qapıb qaçdı. Dərdimizi kimə deyək?

- Heç kimə! Camaatın gözünün yaşı qurumamış biz toy eliyəndə, elə bilirsən, düz iş tutduq? Lap əcəb oldu! Bilmirdik, bizim də qapımızı döyəjəklər? Bacın qızının ucbatınnan balamız didərgin düşüb, bunu bilirsən? Onu da başa düşmək olar, dayna. Xançalının daşı düşərdi, bir dəfə gedib Mübarizi yoxlasaydı. Yoox, qız getməz, oğlan gedər. Niyə, qohum deyillər? O sevindi, mənimki utandığınnan bilmədi, hara qaçsın. Görünür, bacın qızı söz verib ki, qaçırdıblar. İnək göz eləməsə, kələ yaxınlaşar? Düz deyib goruna qurban olduqlarım. Bəlkə bunnan sonra oğlumuzu tovlaşdıra bilərik. Get qaxıl xarabanda! Ağzını da açma, haa!

- Allah eşitməsin dediyini, ay Babaş, xaraba niyə deyirsən? Deyirsən dinmə, dinmərəm, daa gözümü çıxartma, qurbanın olum! Bəlkə xeyirlisi buymuş? Mən başıma haranın külünü töküm?

* * *

Minayə heç gözünü açmağa macal tapmamışdı: yolun kolkosluğundan qəflətən çıxan oğlanlar onun başına yaşıl şal atıb sürütlədilər «Pobeda»ya doğru. Dikdaban ayaqqabıları daşa ilişib düşdü yerə. – «Əl çantası da düşüb, dayanın götürüm», - deyiləndə, başa düşdü: bu fırfıra Qazının səsidi. Ha çırpındı, əl-qol atdı, güc gələ bilmədi. Ağzı yaylıqla sarıqlanmış, qolları arxadan bağlanmışdı.

Gətirilən evin barısından kənd-kəsək də görünmürdü. Həyətə buraxılmış azman itin hartıltısından evdəki şüşə qablar cingildəşir, adamın qulaqları boğulurdu. İki gün keçmişdi, Minayə heç nə yeyib-içmir, susurdu, məqam axtarırdı qaçmağa. Qapı açıldı. Gözlə-

rindən nağıllardakı adamyeyəni xatırladan enlikürək, qarabuğdayı, addımlarından döşəmənin tappıldaması, görkəmindən ətrafı vahiməyə salan orta yaşlı qadın çox mehribancasına salam verib, oturdu Minayənin lap dizlərinin dibində. Uzunbarmaqlı əllərilə onun başını sığalladı, yoğun səslə dedi:

- Qızım, qızların beləcə qaçırdılmasının ayrı ləzzəti var. Vallah, düz bir həftə o kinoda göstərirlər ey, bax onun kimi, sındırmadığım qab-qazan, pəncərə qalmadı. Dilimə bircə qurtum su da dəymədi. Sənnən də çəlimli idim. Evdəkilərin mehribançılığını duyunca, hirsim soyumağa başladı. Sən də eşitmisən, sirkə nə qədər tünd olsa, öz qabını çatladar. Ağlını başına yığ, əməllicə götür-qoy elə. Yaxşı deyiblər: «Dərdindən ölənnən qaçma». O «sonrakı peşmançılıq fayda verməzi» kim yazıb? – Özü də bilmədən Minayənin dodağı qaçdı: «Deyəsən, bu gombulun ədəbiyyatdan da xəbəri var». Süpürgəni necə tutsan, eləcə də süpürər. Bircə məsləhətimi sırğa elə, as qulağınnan: diliacı, bədhövsələ olma, yaxşımı, qızım? – eşidəndə, Minayə başını bir az da salladı. – Gəlin özü-özünü ev yiyəsi edər. «Can» desən, «can sənə qurban» eşidərsən. Görmürsən get-qayıt olanları? Yaxşıca ölçsən, biçdiyin ürəyincə olar. Unutma. Bir tərəfinə baxanda, mən də razıyam o, «O olmasın, bu olsun»la. Görünür o oğlanı küsdürmüsən, yoxsa sənnən niyə qaçardı? Heç olmasa, indikini küsdürmə, haa!..

* * *

…Bəzi işdəhlərindən zəhləsi getsə də, Babaş Usubun dəvətini yerə salmadı, «ağsaqqallığını» unutmadı. Azayı da təhər-töhmət etmişdi qapısına barışığa gələnlərdən qabaq. Bacıxanımla Şanxanım «ağızlarına su almışdılar». Babaşı «Heyvagülünə» çağıran Usubun baş əydiyini görəndə, özünü əzdirmədi: başına güllü yaylıq bağlamış arvadı Məleykəylə dayanmışdı Babaşın qarşısında.

«Kaş oğlumu yola gətirə biləydim, qayıdaydı ata yurduna. Ona elə toy edərdim, görənlər deyərdi, bir də görüm! Nə tapıb ey, köpək oğlu bu şəhərin tırhatırınnan?» - düşünürdü qohum-əqrəbasını qolunun altına toplayıb kimlərinsə acığına sındıra-sındıra oyna-

yanda. «Sən ordan çıx, mən burdan, qoy kor olsun düşmənimiz» - oxuyurdu müğənni oğlan.

* * *

Gözlərinə yuxu getmirdi Babaşla Bacıxanımın son zamanlar. Gecənin hələyini kəssələr də, yorğanı ora-bura dartışdırır, gileylənir, Mübarizi kəndə qaytarmaq üçün fənd fikirləşirdilər. Hansısa diliqurumuşun məktubundan Mübariz də hali idi kənddəkilərdən.

Təzəcə-təzəcə dedi-qodular səngiyirdi ki, Qadalını yeni qada haxladı: ilk aylar «tüşəm-tüşəmlə havası alınan» təzə gəlini elə bil dilə gətirdilər. Həyətdə təndir qalayan qaynanasına kündəni yaymaqda kömək eləyən Minayənin qəflətən gözləri qaraldı, başı gicəlləndi, fırlanıb təndirə yıxılanda, yaxınlıqdan keçən Usub haxladı.

- Köpək qızı, sənə demədim ki, gəlinnən muğayat ol! – bağırdı.

- Ay aman, qoymuyun, gəlinin saçları tüstülənir! – Məleykə Minayədən yapışanda, öz ayağı təndirdə cızıldayırdı. Qaynanayla gəlini rayon xəstəxanasına çatdırmışdılar ki, sanki buludlardan qırılıb yerdə peyda olmuşdu Mübariz. Sən demə qısamüddətli məzuniyyətə çıxıb, evlərinə görüşə gəlibmiş ki, bəd xəbərdən yerindəcə dondu.

- Sənə qurban olum, ay oğul, tez ol maşını işə sal, gedək xəstəxanaya: xalan qızının vəziyyəti ağırdı! – Mübarizin boynunu qucaqladı Babaş.

Qaz pedalını gücü gəldikcə sıxıb maşını yerindən oynadan Mübariz düzəldi yola. Naşılıqdan sükanı tez-tez fırladanda, zəhrimara qalmış «Moskviç» sözünə baxmadı: artıq gecikmişdi. Maşın yaxınlıqdakı iri gövdəli ağaca çırpılmış, içindəkilər fəryad edirdilər…

***5.XI-15 XII. 2009***
***Dağıstan***



# Eşitdiyim kəlamlar

- Pulsuzluq xiffət yaradar.
- Dərdli dərdlini axtarar.
- Sadəlövh adamı sarsaq sanarlar.
- Qəşş edib gülənləri yaltaq gördüm.
- Sırtığın üzünə tüpürsən, sevinər.
- Yaltaqlardan qaç, alçalarsan.
- Küskünlük acizlikdir.
- İradəsiz kasıb olar.
- Başqasına əl açsan, töhmətə düşərsən.
- İnanmırsan, arxdan tullanma.
- Özgəsinin günahını özünə çıxan axmaqdı.
- Dərdliyə sevinmə, ağlarsan.
- İfrat sevgi bədbəxtliyə gətirər.
- Biganəlikdən qaç, soyuqqanlılıqdan qorxma.
- Ağlamağı da bacarmalısan.
- Bilmədən risqə gedən uduzar.
- Əlacsıza əl tut, savab qazan.
- Bilmirsən – öyrən, öyrənməmək qəbahətdi.
- İnan, amma yoxla.
- Tanımadığına sataşma.
- Hər kəsə ürəyini açma, gülünc olarsan.
- Gileyi də ehtiyatla elə.
- Lağlağıdan kənar dur.
- Zarafatın sonu qalmaqaldı.
- Üzünə gülənlə dost olma.
- Tam bildiyinə də şübhə et.
- Həddən artıq inam rüsvayçılıq yaradar.
- Ən şirin sözü yaltaqlar deyir.
- Doğru oğrudan qorxmaz, çəkinər.
- Gözəllər tez gözə gələr.
- Hər gördüyünə gözəl demə.

- Bütün bədbəxtliklər qısqanclıqdan başlanır.
- Yazıqlıqdan kənar dur.
- Çərttəlik ölümə aparır.
- Özünü gözə soxmağa çalışma.
- Səni tərifləyəndən ehtiyatlı ol.
- Çox təriflənən tez gözə gələr.

# MÜNDƏRİCAT

## LİRİKA SƏHİFƏSİ


Arazım, mənim Arazım........ 4
Bağışla barı........ 5
Yeni illər........ 6
Qaçqın şair........ 7
Günahkarsan........ 8
Alış Kərəm, yan Kərəm!........ 9
Odlanar........ 13
Necə görünərdi?!........ 13
Gəlməzdim........ 14
Bu dünyanın əməlinə nə deyim?!........ 15
Qısqancam........ 17
Nə deyəsən?!........ 18
Dostum qələm........ 19
İstərəm........ 21
Dönür........ 22
Qınanma........ 22
Əbəsdi........ 23
A qardaş........ 24
Haqqım bərqərar olsun........ 26
Savalana üz tuturam........ 27
Quycağım........ 28
Türk dünyası........ 29
Nə günahı var telli sazın?!........ 31
Adsız yazı........ 32
Sevinc........ 32
Bayatılar........ 33
Dünya........ 33
Səni necə tərifləyim?!........ 35
Şən yaşasın........ 35
Ömür yolu........ 36
Yağış, yağış........ 38
Dözəmmirəm........ 38
Düzələsiyik........ 39
Elin oğlu........ 40
Yolda qalır........ 41
İlanlar yatır........ 41
Ay Allah!........ 42

… yoxsa ki mənəm?!.......... 43
Vətənim.......... 44
Gülağa Tənhaya məktub.......... 44
Bölüşdü.......... 46
İnanın.......... 46
Çələng.......... 47
Olanların sonu varmı?!.......... 51
Dünya necə olacaqdır?!.......... 52
İstəyim.......... 53
Niyə?.......... 53
Günahkaram.......... 54
Günaha batır.......... 56
Atardım.......... 57
«Qızlar».......... 58
İnanmayın ki, küsürəm.......... 60
Kitabı sevin.......... 60
Nə var ki.......... 61
Siyəzən.......... 62
… varmı, yoxdumu?!.......... 63
Əgər ki… .......... 64
Dağlar, dağlar.......... 65

**YUMOR SƏHİFƏSİ**
Qeybətçilər.......... 68
Pişik niyə miyoldayır?.......... 69
Qayğıma qalmayınız.......... 70
Bu necə mənzərədir?!.......... 71
Arı və ağcaqanad.......... 72
Gəlmədim!.......... 73
Şeytanlibas!.......... 74
Dustaqlar.......... 74
Mərdimazar.......... 76

**UŞAQLAR ÜÇÜN**
Baharın ilk xəbərçisi.......... 78
Kəpənəklər.......... 79
Nənə və nəvə.......... 79

**NƏSR SƏHİFƏSİ**
Nə günahı var telli sazın?! (hekayə).......... 84
Qadalının qadaları (povest).......... 112

**EŞİTDİYİM KƏLAMLAR**.......... 179

**************

Çapa imzalanıb: 14.04.2010
Format: 60x84 1/16. Qarnitur: Times.
Ofset kağızı: əla növ. Həcmi: 11, 5 s.ç.v. Tiraj:100
Sifariş №40. Qiyməti müqavilə ilə.

**“Mütərcim” Nəşriyyat-Poliqrafiya Mərkəzi**
**Bakı, Rəsul Rza küç., 125**
**Tel./faks 596 21 44**
***e-mail: mutarjim@mail.ru***